YapıKredi Bank Azərbaycan

Fiziki şəxs müştərilər üçün müxtəlif bank xidmətlərinin göstərilməsi üzrə Ümumi Şərtlər (Fiziki şəxs müştərilər üçün müxtəlif bank xidmətlərini əhatə edən qarışıq Müqavilə) (dördüncü versiya)

Bir tərəfdən "Yapı Kredi Bank Azərbaycan" QSC (müvafiq hallarda Bank, Borcverən, ödəniş xidməti təchizatçısı və s. kimidə adlandırıla bilər) (11.01.2000-il tarixli Mərkəzi Bank tərəfindən verilmiş 243 saylı Bank Lisenziyası, e-mail office@yapikredi.com.az) və digər tərəfdən Müştəri (müvafiq hallarda Borcalan, Kart sahibi, ödəniş xidməti istifadəçisi, Zamin və s. kimidə adlandırıla bilər) (birlikdə Tərəflər), aşağıdakı məzmunda və şərtlərlə özündə müxtəlif bank xidmətlərinin göstərilməsi üzrə ümumi şərtləri (özündə müxtəlif müqavilələrin elementlərini birləşdirən\ünsürlərini əhatə edən qarışıq müqaviləni) (bundan sonra Müqavilə və\və ya Ümumi şərtlər adlandırılacaq) bağladılar.

1. İlkin şərtlər və s.

1.1. Bu müqavilənin predmetinə (lərinə) və s. dair şərtlər bank hesabı, debet kartı, internet\mobil bankçılıq, kredit (kredit kart), əmanət (depozit), zaminlik, depozit seyfi (qutusu) və s. xidmətlərə (müxtəlif xidmətlərə və\və ya məhsullara, əməliyyatlara, işlərə və s.) aid Müqavilənin müvafiq hissələrindəki maddələr\müddəalarla tənzimlənir. Həmin xidmətlərin Müştəriyə təqdim olunması üçün müvafiq Ərizə formalarının da Müştəri tərəfindən doldurularaq və imzalanaraq Bankda təqdim olunması tələb oluna bilər ki, bu Müqavilə çərçivəsində tərəflərin imzaladığı bütün ərizə formaları onun ayrılmaz tərkib hissəsini təşkil edir (edəcəkdir). Hazırki Müqavilə və ya Ümumi şərtlər göstərilən bank xidmətlərinə və\və ya məhsullarına dair münasibətləri tənzimləyir, tərəflərin hüquq və öhdəliklərini müəyyənləşdirir. Hər bir bank xidməti v\və ya məhsulları üzrə şərtlər və s. onlara dair tərəflər arasında imzalanan müvafiq sənədələrdə (müvafiq hallara və\və ya tərəflərin müvafiq seçimlərinə görə və bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən\ayrılmaz tərkib hissəsini təşkil edəcək: aidiyyəti müqavilə, razılaşma, saziş, ərizə və s.b.b.sənəddə) öz əksini tapacaqdır. Hər bir bank xidməti (və\və ya məhsulları) üzrə xidmət haqqı, komisiya və\və ya buna bənzər haqlar Bankın həmin ana qüvvədə olan tariflərinə müvafiq olaraq müəyyən edilir və tutulur. Tərəflər arasında əvvəl imzalanmış və qüvvədə olan digər müqavilələr mövcud olduqda, bu Müqavilənin imzalanması onlar üzrə movcud olan münasibətlərə təsir etməyəcəkdir.

1.2. Müştəri bu müqavilənin və ya ümumi şərtlərin hər hansı bir şərt və\və ya müddəaları ilə razı olmadığı təqdirdə müqavilənin və ya ümumi şərtlərin bağlanılmasından\imzalanmasından imtina etmək (xidmətlərdən istifadə etməmək) hüququna malikdir.

Müştəri qəbul, təsdiq və bəyan edir ki, bu müqavilə üzrə müvafiq Bank xidməti (və\və ya məhsulu) ilə bağlı müvafiq\aidiyyəti sənədi (bu və ya digər hallar üzrə, birlikdə və\və ya ayrı-ayrılıqdada ola bilməklə hər hansı bir müvafiq müqavilə, razılaşma, saziş, ərizə və s. kimi rəsmi sənədi) müəyyən olunan qaydada (yazılı, elektron) imzaladığı andan etibarən bu Müqavilə və ya Ümumi Şərtlərin bütün müddəaları ilə razı olaraq tam və qeyd-şərtsiz qəbul etmiş və bu Müqavilə və ya Ümumi Şərtlərdə imzalamış olur.

1.3. Hazırkı Müqavilə və ya Ümuni şərtlərin hissələrində tənzimlənmə şərtləri nəzərdə tutulan münasibətlər tərəflər arasında o zaman yaranmış hesab edilir (ediləcək) ki, Müştəri tərəfindən hazırkı Müqavilə və ya Ümumi şərtlərə dair məyyən edilmiş qaydada (yazılı, elektron) müvafiq hallar üzrə aidiyyəti sənəd (birlikdə və\və ya ayrı-ayrılıqda müvafiq müqavilə, razılaşma, saziş, ərizə və s.) imzalanmış olsun. Hazırkı Müqavilə və ya Ümumi şərtlər müştəri ilə imzalanan (bağlanıla) həmin müqavilənin, razılaşmanın, sazişin və s. ayrılmaz tərkib hissəsi hesab olunur.

2. Bank hesabı üzrə maddələr\müddəalar

2.1. Predmet. Hesabda olan pul vəsaitinə dair sərəncam verilməsi, geri götürülməsi, icra müddəti və digər şərtlər**.** Bu müqaviləyə əsasən "Bank" "Müştəriyə" cari hesab açmağı, açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə dair "Müştəri"nin sərəncamlarını yerinə yetirməyi, "Müştəri" isə "Bank" tərəfindən aparılan bu əməliyyatlara görə şərtləşdirilmiş qaydada və məbləğdə haqq(ları) ödəməyi öhdəsinə götürür. "Müştəriyə" "Bank" tərəfindən müştəri kodu veriləcəkdir və müştəri həmin koda bağlı olaraq "Bankda" hər hansı valyutada hesab(lar) açа bilər, müştərinin "Bankdakı" hesabları üzrə bu müqavilənin (və\və ya ona dair müvafiq Əlavə razılaşmanın, Sazisin) şərtləri tətbiq edilir. "Müştəri" hesabındakı pul vəsaitinin köçürülməsi və ya nağd verilməsi barədə "Bank"a sərəncam (tapşırıq) vermək hüququna malikdir. "Bank" "Müştəri"nin bu sərəncamlarına əsasən o halda əməliyyat aparmalıdır ki, "Müştəri" tərəfindən verilmiş sərəncamlar qanuna, bank qaydalarına və bank praktikasının tələblərinə zidd olmasın, eyni zamanda sərəncam verməyə hüququ çatan şəxsi eyniləşdirməyə imkan verən lazımi məlumatlar həmin sərəncamlarda yazılı formada göstərilmiş olsun. "Müştəri"nin hesabından vəsaitin köçürülməsi və ya nağd verilməsi haqqında sərəncamları qanunda nəzərdə tutulmuş, bank qaydaları və\və ya müvafiq tələblər ilə müəyyənləşdirilmiş sənədlərin "Bank"a təqdim olunması yolu ilə təsdiq olunur. İmza və möhür nümunələri vərəqəsində birinci və\ və ya ikinci imzaya malik iki və daha çox şəxsin imzası qeyd olunduqda, həmin imzaların istifadəsi qaydası müştərinin istəyi ilə müəyyən edilir və bu barədə imza və möhür nümunələri vərəqəsində müvafiq qeyd aparılır. Müqavilə qüvvəyə minməzdən əvvəl açılmış hesablara da bu

Müqavilədə qeyd olunan qaydalar tətbiq edilir, habelə onların açılması ilə əlaqədar bağlanmış müqavilələrdə bu Müqavilə ilə ziddiyyət təşkil edən şərtlər olduqda, bu Müqavilə üstünlük təşkil edir.

2.1.1. Dövri ödənişlər. Bank Müştərinin ödəniş tapşırığı əsasında vəsait alanın xeyrinə ödənişləri dövri olaraq həyata keçirə bilər. Bu halda ödəniş tapşırığının "Ödənişlə əlaqədar əlavə informasiya" hissəsində aşağıdakı məlumatlar qeyd olunur: ödənişin həyata keçirilməsi tarixi; dövri ödənişlərin başa çatdığı tarix. Dövri ödənişlərin müddəti 1(bir) ildən çox ola bilməz. Bu müddət başa çatdıqdan sonra Müştəri dövri ödənişlərin aparılmasını nəzərdə tutan yeni ödəniş tapşırığı təqdim edə bilər. Müştəri dövri ödənişlərin dayandırılması haqqında emitent banka yazılı sərəncam verə bilər. Müştəri ödəniş tapşırığında dövri ödənişlərin həyata keçirilməsi ilə bağlı hər hansı bir dəyişiklik etdikdə emitent banka yeni ödəniş tapşırığı təqdim etməlidir.

2.1.2. Ödəyicinin təchizatçısı kredit köçürməsi əsasında vəsait alanın xeyrinə ödənişləri dövri olaraq həyata keçirə bilər. Bu halda kredit köçürməsinin "Ödənişlə əlaqədar əlavə məlumat" hissəsində aşağıdakı məlumatlar qeyd olunur:

- ödənişin həyata keçirilməsi tarixi;
- dövri ödənişlərin başa çatdığı tarix.

2.1.3. dövri ödənişlərin müddəti bir ildən çox ola bilməz. Bu müddət başa çatdıqdan sonra ödəyici dövri ödənişlərin aparılmasını nəzərdə tutan yeni kredit köçürməsini təqdim edə bilər.

2.1.4. Dövri ödəniş əməliyyatlarının icrasından imtina ilə bağlı prosedurlar bu müqavilənin 2.5. maddəsi ilə tənzimlənir. Ödəyici dövri ödənişlərin dayandırılması haqqında ödəyicinin təchizatçısına kağız və ya elektron formada sərəncam verə bilər. Bu halda ödəyicinin təchizatçısının məsul şəxsi kağız daşıyıcıda olan müvafiq sərəncamı "icraya qəbul edilmişdir" ştampı və öz imzası ilə təsdiq edir.

2.1.5. Ödəniş sərəncamının geri götürülməsi

2.1.5.1. Ödəniş sisteminə göndərilən ödəniş sərəncamı ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən andan gerigötürülməz hesab olunur.

2.1.5.2. Ödəniş xidməti istifadəçisi ödəniş xidməti təchizatçısı ilə ödəniş sərəncamının icra olunması üçün müəyyən günü razılaşdırdıqda, ödəniş xidməti istifadəçisi ödəniş sərəncamını ən geci razılaşdırılmış gündən əvvəlki iş gününün sonunadək geri götürə bilər.

2.1.5.3. Ödəniş əməliyyatı vasitəçi tərəfindən başlanıldığı halda, ödəyici vasitəçiyə ödəniş əməliyyatının başladılmasına razılıq verdikdən sonra ödəniş sərəncamını geri götürə bilməz.

2.1.5.4. Birbaşa debitləşmə alətindən istifadə edildikdə ödəyici ən geci pul vəsaitinin ödəniş hesabından silinməsi üçün müəyyən etdiyi gündən əvvəlki iş gününün sonunadək ödənişin həyata keçirilməsi üzrə verdiyi sərəncamı geri götürə bilər.

2.1.6. Ödəniş sərəncamının verilməsi və ondan imtina

2.1.6.1. Ödəyici ödəniş sərəncamı verdikdə, ödəniş əməliyyatı avtorizə edilmiş hesab olunur. Ödəniş sisteminə göndərilən ödəniş sərəncamı ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən anadək istənilən vaxt imtina edilə bilər. Dövri ödəniş əməliyyatlarının icrası üzrə verilmiş sərəncamdan imtina nəticəsində ödəyicinin seçimindən asılı olaraq ancaq icra vaxtı çatmış əməliyyat və ya bütün növbəti ödəniş əməliyyatları avtorizə edilməmiş hesab edilir və icra olunmur.

2.1.7. Ödəniş sərəncamının icraya qəbulu vaxtı

2.1.7.1. Ödəniş xidməti təchizatçısı ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə ödəyici ilə bağlanılmış müqavilə ilə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir.

2.1.7.2. Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur.

2.1.8. Ödəniş sərəncamının icra müddəti

2.1.8.1. Ödəniş xidməti təchizatçısı ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra etməlidir. Ödəniş xidməti təchizatçısına verilən ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir. Ödəniş xidməti təchizatçısı vəsait alanla bağladığı müqavilədə birbaşa debitləşmə ilə bağlı ödəniş əməliyyatlarının razılaşdırılmış tarixdə həyata keçirilməsinə imkan yaratmaq üçün vəsait alan tərəfindən verilən ödəniş sərəncamının ödəyiciyə xidmət göstərən ödəniş xidməti təchizatçısına vəsait alanla razılaşdırdığı tarixdə göndərilməsini təmin etməlidir.

Vəsait alanın xeyrinə ödəniş xidməti təchizatçısına daxil olan pul vəsaiti həmin əməliyyat günü vəsait alanın ödəniş hesabına mədaxil edilməli və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılmalıdır. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsi müddəti 5 (beş) iş günündən gec olmayaraq həyata keçirilir.

2.1.9. Ödəniş xidməti təchizatçısı ödəniş xidmətlərini ödəniş terminalları vasitəsilə göstərdikdə ödəyicidən qəbul olunmuş pul vəsaitini 5 (beş) iş günündən gec olmayaraq vəsait alanın ödəniş hesabına köçürməlidir. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsinədə 5 (beş) iş günü müddəti tətbiq edilir.

2.1.9.1. Ödəniş xidməti təchizatçısının icra edilməmiş və ya səhv icra edilmiş ödəniş sərəncamı ilə bağlı öhdəliyi qanunvericiliklə (Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Qanunun 31-ci və 32-ci maddələrində) nəzərdə tutulmuş qaydada müəyyən edilir.
2.1.10. Müqavilə şərtlərində dəyişikliklər haqqında məlumatı ödəniş xidməti təchizatçısı bu dəyişikliklərin tətbiq ediləcəyi tarixdən azı 30 (otuz) gün əvvəl ödəniş xidməti istifadəçisinə hər hansı bir (telefon, SMS, elektron poçt ünvanı, internet, qeydiyyat\yaşayış ünvanı) kommunikasiya kanalları\əlaqə vasitələri ilə bildirməlidir. Bu müddətdə ödəniş xidməti istifadəçisi bu dəyişikliklərlə bağlı öz etirazını bildirmədikdə, bu dəyişikliklər ödəniş xidməti istifadəçisi tərəfindən qəbul olunmuş hesab edilir.
Tərəflər razılaşırlar ki, ödəniş xidmətlərinin göstərilməsi zamanı Bankın həmin gün üçün müəyyən etdiyi valyuta mübadiləsi məzənnəsinə əsasən əməliyyatlar aparılacaqdır (icra ediləcəkdir) və valyuta mübadiləsi məzənnəsində edilən dəyişikliklər hər hansı bir xəbərdarlıq müddəti tətbiq edilmədən qüvvəyə minir.
2.1.11. Ödəniş xidməti təchizatçısı tərəfindən ödəniş əməliyyatı üzrə xidmət haqqı əməliyyat həyata keçirilmədən əvvəl ödəniş xidməti istifadəçisidən tutulur.
2.1.12. Ödəniş alətindən istifadə və ödəniş hesablarına çıxış əldə etmə üzrə məhdudiyyətlər.
Qanunvericilikdə nəzərdə tutulmuş hallarla yanaşı, ödəniş xidməti təchizatçısı aşağıdakı məqsədlərlə ödəniş alətini bloklaşdırmaq hüququna malikdir:
2.1.12.1. ödəniş alətinin təhlükəsizliyinin təmin olunması;
2.1.12.2. ödəniş alətinin dələduzluq məqsədilə və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması;
2.1.12.3. ödəyicinin kredit xətti ayrılmış ödəniş alətləri üzrə öhdəliklərini yerinə yetirə bilməməsi təhlükəsinin qarşısının alınması.
2.1.12.4. Ödəniş xidməti təchizatçısı yuxarıdakı qeyd edilən hallarda ödəyicini ödəniş alətinin bloklaşdırılması və bunun əsaslandırılmış səbəbi barəsində mümkün olduqda əvvəlcədən və ya ən geci bloklaşdırmadan dərhal sonra məlumatlandırmalıdır, bu şərtlə ki, qanunvericilikdə belə məlumatın verilməsi qadağan edilməsin.
2.1.12.5. Ödəniş xidməti təchizatçısı ödəniş alətinin bloklaşdırılmasına səbəb olan hal aradan qalxdıqdan sonra ödəniş alətini blokdan çıxarmalı və ya yeni ödəniş aləti ilə əvəz etməlidir.
2.1.12.6. Ödəniş hesabına xidmət göstərən ödəniş xidməti təchizatçısı hesab üzrə məlumat xidməti təchizatçısının və ya vasitəçinin ödəniş xidməti istifadəçisinin ödəniş hesabına çıxış əldə etməsinə və ya əməliyyat aparmasına bunun icazəsiz və ya fırıldaqçılıq məqsədilə həyata keçirildiyini əsaslandırmaqla imtina edə bilər. Belə hallarda ödəniş hesabına xidmət edən ödəniş xidməti təchizatçısı ödəyicini imtinanın səbəbləri barədə yazılı qaydada məlumatlandırır.
2.13. Ödəniş əməliyyatının məbləğinin geri ödənilməsi qaydası.
2.13.1. Ödəyici birbaşa debitləşmə üzrə ödəniləcək məbləğ limitini müəyyən etməlidir. Ödəyiciyə xidmət edən ödəniş xidməti təchizatçısı vəsait alan tərəfindən verilən ödəniş sərəncamı üzrə ödəyicinin müəyyən etdiyi ödəniş məbləğindən yüksək məbləğdə ödəniş əməliyyatı apardığı təqdirdə artıq ödənilmiş məbləği geri ödəməlidir.
2.13.2. Ödəyici 2.13.1. maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş halda vəsaitin onun ödəniş hesabından silindiyi tarixdən 2 (iki) ay müddətində ona xidmət göstərən ödəniş xidməti təchizatçısına müraciət edə bilər.
2.13.3. Ödəniş xidməti təchizatçısı ödəniş əməliyyatı üzrə məbləğin geri ödənilməsi barədə ödəyicinin müraciəti daxil olduqdan sonra 5 (beş) iş günü müddətində 2.13.1. maddəsinin ikinci cümləsinə uyğun olaraq artıq ödənilmiş məbləğin geri ödənilməsini təmin etməli və ya imtinanın səbəbləri haqqında əsaslandırılmış məlumatı ödəyiciyə təqdim etməlidir.
2.2. Pul vəsaitinin hesabdan silinməsinin əsasları.Hesabdan pul vəsaitinin silinməsini (köçürülməsini, ödənilməsini və s.) «Bank» «Müştərinin» müvafiq qaydada verilmiş sərəncamına əsasən həyata keçirir. «Müştərinin» sərancamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə (köçürülməsinə, ödənilməsinə və s.) məhkəmənin qərarı ilə, habelə bu müqavilə və\və ya qanunla müəyyənləşdirilmiş və nəzərdə tutulmuş hallarda yol verilir.
2.3. Hesabdan pul vəsaitinin silinməsinin növbəliyi. Hesabdakı pul vəsaiti «Müştərinin» sərəncamlarını və ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə, hesabdan pul vəsaiti qanunvericiliklə müəyyən edilmiş ardıcıllıqla silinir.
2.4. Hesab əməliyyatlarının həyata keçirilməsi müddətləri. Hesab üzrə əməliyyatların həyata keçirilməsi qanunvericiliklə nəzərdə tutulmuş müddətlərdən gec olmayaraq həyata keçirilir (qeyd: daxil olmuş müvafiq ödəniş sənədlərində hər hansı uyğunsuzluq və\və ya çatışmamazlıqlar müəyyən olunarsa əməliyyatların aparılması dəqiq məlumat alınana qədər uzadıla bilər).
2.5. Hesabın kreditləşdirilməsi(overdraft). “Müştəri”nin hesabında pul vəsaitinin olmamasına baxmayaraq, “Müştəri”nin sərəncamına(tapşırıqına) əsasən “Bankın” ödənişləri (köçürmələri) həyata keçirildiyi hallarda (hesabın kreditləşdirilməsi) “Bank” bu cür ödənişi(köçürməni) həyata keçirdiyi gündən “Müştəri”yə müvafiq məbləğdə kredit vermiş sayılır. “Bank” tərəfindən hesabın kreditləşdirilməsi zamanı “Müştəri” hesab əməliyyatlarının aparılması üzrə bank xidmətləri haqqından əlavə

olaraq “Bank”a hesabın kreditləşdirilməsi üzrə kreditin istifadəsinə görə illik 40% dərəcəsi ilə “Banka” faiz ödəyir. “Müştəri” qəbul, təsdiq və bəyan edir ki, hesabın kreditləşməsi ilə bağlı “Bankın” çəkdiyi və\və ya çəkməli olduğu məbləğlər, hesablanmış faizlərlə birlikdə (bank köçürmələri ilə bağlı ödənilən xidmət haqları və\və ya çəkilən xərclər, komisiyon ödənişləri, hüquqi xidmətlə bağlı ödənilən xidmət haqları və\və ya çəkilən xərclər, vurulmuş zərər və s. də daxil olmaqla) əsas kredit borcunu təşkil edəcək və həmin məbləğləri “Müştəri” hesabın kreditləşməsi üzrə əməliyyat aparıldıqdan sonra 1 gündən gec olmayaraq “Banka” qaytarmadığı təqdirdə həmin kredit məbləğinə qaytarılmayan\ödənilməyən müddət üçün (borcun tamamilə qaytarılan tarixinədək) üzərinə illik 40 faiz dərəcəsi hesablanmaqla qaytaracaqdır\ödəyəcəkdir. “Müştəri” həmçinin razılaşır ki, hesabın kreditləşdirilməsi zamanı “Bankın” sənədləri, qeydləri və\və ya hesablaşmaları əsas götürüləcək.

2.6. “Müştəri”nin hesabındakı pul vəsaitindən “Bank”ın istifadə etməsi hüququ. “Bank” “Müştəri”nin bank hesabındakı olan pul vəsaitini istifadə edə bilər ki, buna görədə faiz ödəmir. «Bank» «Müştərinin» arzusu ilə hesabındakı vəsaiti müddətli depozitə qəbul edə bilər, belə halda şərtlər bağlanmalı olan müvafiq müqavilə ilə tənzimlənir.

2.7. Hesab əməliyyatlarının aparılmasına görə “Bank”a ödənilən haqq. Hesab üzrə “Müştəri”nin sərəncamlarına əsasən “Bank”ın həyata keçirdiyi əməliyyatlara görə “Bankın” carı tarifləri və şərtləri tətbiq edilir və “Müştəri” “Bank”a buna müvafiq xidmət haqqını(larını) ödəyir. Bununla bağlı, “Bankın” rəsmi internet saytında (www.yapikredi.com.az) və\və ya filial şəbəkələrində (srtuktur bölmələrində) bəyan\elan edilən tarifləri (xidmət haqları) və şərtləri “Müştəri” qəbul etdiyini bəyan və təsdiq edir. “Bank” tərəfindən xidmət haqqı əməliyyat həyata keçirilmədən əvvəl tutulur.

2.8. “Bank”ın hüquq və vəzifələri

2.8.1. “Bank”ın aşağıdakı hüquqları vardır:

2.8.1.1. “Müştəri”nin sərəncamına əsasən həyata keçirilmiş əməliyyatlara görə “Müştəri”dən xidmət haqqını almaq (hesabdan silmək).

2.8.1.2. “Müştəri”nin hesab üzrə əməliyyatların aparılması barədə vermiş olduğu sərəncamlar qanuna, bank qaydalarına və bank praktikasının tələblərinə zidd olduqda əməliyyatı icra etməmək.

2.8.1.3. “Müştəri”nin hesabları üzrə bir ildən artıg müddət ərzində əməliyyat aparılmazsa hesabı bağlamaq (hesabın bağlanması müqavilənin ləğvi üçün əsasdır).

2.8.1.4. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunun 4.14-cü və digər müvafiq maddələrinə əsasən müştəri uyğunluğu və digər aidiyyəti tədbirlərin tətviqi mümkün deyilsə, hər hansı əməliyyatı həyata keçirilməmək, işgüzar münasibətləri yaratmamaq, hesab açmamaq, hesabı bağlamaq, habelə işgüzar münasibətlərə xitam vermək.

2.8.1.5. Bu müqavilə bağlandıqdan sonra “Müştəri”nin təqdim etmiş olduğu sənədlərin qanunvericilyə, bank hesablarının açılmasına dair müvafiq qayda və təlimatlarının tələblərinə uyğun olmadığı və\ və ya saxtalığı aşkar edilərsə və ya müvafiq qayda və təlimatlara əsasən bank hesabının yenidən rəsmiləşdirilməsi zərurəti yaranarsa və «Müştəri» bu rəsmiləşdirmədən imtina edərsə, müqaviləni ləğv etmək. Bu halda “Bank” “Müştəri” qarşısında heç bir məsuliyyət daşımır.

2.8.1.6. “Müştəri”nin “Bank” qarşısında müəyyən edilmiş hər hansı bir öhdəlikləri icra edilmədikdə və ya lazımınca icra edilmədikdə, hesabındakı pul vəsaitini ona qarşı olan tələb miqdarında (məbləğində) «Müştərinin» sərəncamı olmadan borcu (öhdəlikləri) əvəzinə mübahisəsiz qaydada «Müştərinin» hesabından silmək və\və ya ona qarşı olan (irəli sürülmüş) tələb miqdarında (məbləğində) hesabdakı(lardakı) məxaric əməliyyatlarına məhdudiyyətlər qoymaq. Müştəri” tərəfindən öhdəlikləri yerinə yetirilmədikdə və\və ya lazımınca yerinə yetirilmədikdə, o cümlədən kredit və\və ya borclar üzrə gecikdirilmiş və\və ya ödənilməmiş məbləğləri və ona hesablanmış bütün faizləri, borcun geri qaytarılması ilə bağlı çəkdiyi və\və ya çəkməli olduğu bütün xərclərinin (zərərinin) əvəzini (o cümlədən sığorta xərclərini, qarantiya və qarantiya üzrə edilən ödənişlər və\və ya çəkilən xərcləri, akkreditivlə bağlı ödənişləri və\və ya çəkilən xərcləri, bank köçürmələri ilə bağlı ödənilən xidmət haqlarını və\və ya çəkilən xərcləri, komisiyon ödənişlərini, hüquqi xidmətlə bağlı ödənilən xidmət haqlarını və\və ya çıkilən xərcləri, vurulmuş zərəri və s. daxil olmaqla) “Müştəridən” tələb etmək, tələbləri yerinə yetirilmədikdə isə borcun və ona hesablanmış faizlərin, xərclərin və s. qaytarılması üçün qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirləri həyata keçirmə, o cümlədən məhkəmə orqanlarına müracət etmək.

2.8.1.7. Əvvəlcədən müştərini məlumatlandırmaqla xidmət tariflərini (haqlarını) və şərtlərini dəyişdirmək.

2.8.1.8. “Bank” qanunvericiklə, o cümlədən “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda hər hansı əməliyyatı həyata keçirilməmək, işgüzar münasibətləri yaratmamaq, hesab açmamaq, hesabı bağlamaq, habelə işgüzar münasibətlərə xitam vermək və\və ya bank hesabındakı vəsaitlərin dondurulması üzrə qərarların qəbul edilməsi və bununla bağlı digər müvafiq işlərin həyata keçirilməsi kimi hüquqlara malik olacaqdır.

2.8.1.9. Qanunvericiklə və\və ya bu müqavilə ilə nəzərdə tuutlmuş digər hüquqlarını həyata keçirmək.

2.8.2. “Bank”ın aşağıdakı vəzifələri vardır:

2.8.2.1. Qanunvericiliklə müəyyən edilmiş qaydada pul vəsaitini bu müqavilənin şərtlərinə əsasən hesaba salmaq və hesabdan köçürmək (vermək).

2.9. “Müştəri”nin hüquq və vəzifələri
2.9.1. “Müştəri”nin aşağıdakı hüquqları vardır:
2.9.1.1. Qanunvericliklə və\və ya bu müqavilə ilə nəzərdə tuutlmuş istənilən hüquqlarını həyata keçirmək.
2.9.2. “Müştəri”nin aşağıdakı vəzifələri vardır:
2.9.2.1. Hesab üzrə aparılacaq əməliyyatlar barədə verəcəyi sərəncamların qanuna və bank qaydalarına uyğun olmasına riayət etmək. “Müştərinin” verdiyi sərəncama(lara) əsasən aparılmış əməliyyatların onun tərəfindən təqdim edilmiş saxta sənədlər üzrə həyata keçirilməsi aşkar edilərsə, aparılmış əməliyyatların nəticələri üçün tam olaraq “Müştəri” məsuliyyətli olacaq, “Bank” “Müştəri” qarşısında məsuliyyət daşımayacaq.
2.9.2.2. Hesab üzrə aparılan bank əməliyyatlarına görə xidmət haqqını “Bank”a ödəmək.
2.9.2.3. Hüquqi ünvanında və s. rekvizitlərində, habele səlahiyyətli təmsilçilərinə münasibətdə hər-hansı dəyişikliklər barədə “Banka” dərhal yazılı məlumat vermək.
2.9.2.4. Qanunvericliklə və\və ya bu müqavilə ilə nəzərdə tuutlmuş digər vəzifələrini icra etmək.
2.9.2.5. Müştəri bu Müqaviləni imzalamaqla razılaşır ki, Bankda olan istənilən bank hesabı üzrə həyat keçirilən əməliyyatın (istənilən növ mədaxil və/və ya məxaric) valyutası həmin hesabın valyutasından fərqli valyutada olduqda, əməliyyat Müştəridən əlavə razılıq alınmadan əməliyyatın icra edildiyi günə olan Bankın kommersiya məzənnəsi və Bankın qüvvədə olan tariflərinə uyğun şəkildə Bank tərəfindən müvafiq olaraq hesabın və ya əməliyyatın valyutasına mübadilə olunaraq həyata keçirilsin. Müştəri qəbul və təsdiq edir ki, Bank Müştəriyə xidmət edərkən (ödəniş tapşırıqlarının icrası və s. əməliyyatlar zamanı), öz müxbir banklarının və ya digər üçüncü tərəflərin həmin ödənişin icrasını gecikdirilməsi və ya digər səbəblərdən məbləğlərin dondurulması üçün Müştəri qarşısında heç bir məsuliyyət daşımır.
2.9.2.6. Ödəniş xidməti istifadəçisinin ödəniş alətinə və fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarına münasibətdə vəzifələri.
2.9.2.6.1. ödəniş xidməti istifadəçisinin ödəniş alətinə münasibətdə vəzifələri aşağıdakılardır:
2.9.2.6.2. ödəniş alətindən ödəniş alətinin emissiya və istifadəsi şərtlərinə uyğun olaraq istifadə etmək;
2.9.2.6.3. ödəniş alətini əldə etdikdən dərhal sonra onun fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının təhlükəsiz saxlanmasını təmin etmək;
2.9.2.6.4. ödəniş alətinin itirilməsini, oğurlanmasını və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadə olunmasını müəyyən etdikdə ödəniş xidməti təchizatçısını və ya onun tərəfindən səlahiyyətləndirilmiş digər şəxsi dərhal məlumatlandırmaq.
2.10. Bank hesabının ləğvi və bank hesabına dair digər müddəalar. Bu müqavilə imzalandığı gündən qüvvəyə minr, tərəflərdən birinin digər tərəfə onun ləğvinə dair yazılı olaraq bildiriş göndərilmədiyi müddətədək davam edir (qanunvericiliklə və\və ya müqavilə ilə müəyyən edilmiş tələblər nəzərə alınmaqla). Bu müqavilənin 2.8.1.4. maddəsində müəyyən edilmiş hallar mövcud olduqda və ya sonradan aşkar edildikdə “Bank” müqaviləni birtərəfli qaydada ləğv edə bilər. Ciddi əsaslar olduqda, xüsusilə də bank hesabı sahibinin bank hesabından qeyri-qanuni məqsədlər üçün istifadə etməsi sübut edilsə, Bank müqaviləni birtərəfli qaydada ləğv etmək hüququna malik olacaq. Bununla yanaşı, “Müştəri”nin hesabları üzrə keçirilən əməliyyatlar barədə “çirkli pulların” yuyulması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə hər hansı şəkildə əlaqəli olduğuna dair əsaslı şubhələr mövcud olduqda, «Bank» qanunvericiliklə nəzərdə tutulmuş tədbirləri görməklə müqaviləni birtərəflli qaydada ləğv edə bilər. Müqavilənin ləğvi hesabın bağlanması üçün əsasdır və bu hal “Müştərinin” “Bank” qarşısında mövcud olan icra edilməmiş vəzifə və öhdəliklərindən azad etmir. Müqavilənin ləğv edilməsi “Müştərinin” bu müqavilə üzrə icra edilməmiş öhdəliklərinin xitamına səbəb olmur.
2.11. Xüsusi şərt. Müştəri Bank və onun bütün struktur bölmələrində mövcud olan və gələcəkdə Banka məlum olacaq özü barəsində bütün məlumat və sənədlərin, ABŞ-ın qanunvericilik aktı olan Xarici hesablar üzrə Vergi Əməletməsi Aktı (“FATCA” - Foreign Account Tax Compliance Act) və Ümumi Hesabatlılıq Standartı (“CRS” - Common Reporting Standart) çərçivəsində və FATCA/CRS ilə bağlı dövlət daxili hüquqi mexanizmlərin tətbiq edilməsi halında müvafiq yerli qanunvericiliyin tələblərinə uyğun olaraq, Bank tərəfindən bütün ölkədaxili və xarici rəsmi dairələrə, səlahiyyətli orqanlara və Amerika Birləşmiş Ştatlarının Daxili Gəlirlər Xidmətinə (“IRS”), FATCA çərçivəsində 3-cü şəxslərlə Bank arasındakı razılaşmalar və/və ya korporativ əlaqələr çərçivəsində həmin 3-cü şəxslərə açıqlanmasına, müştəri barədə bütün məlumatların təqdim edilməsinə, gələcəkdə buna dair istisnasız olaraq heç bir tələb irəli sürməmək şərti ilə və müddətsiz olaraq icazə verdiyini, bununla da FATCA/CRS çərçivəsində Bankı özü barədə bank sirri təşkil edən müştəri haqqında məlumatların qorunması öhdəliyindən azad etdiyini, belə məlumatlar açıqlandığı təqdirdə Bankın heç bir məsuliyyət daşımadıqlarını qəbul, təsdiq və bəyan edir. Müştəri FATCA/CRS tələblərinə uyğun olaraq, ondan tələb edilən bütün zəruri məlumatları və sənədləri Banka dərhal verəcəyinə; hər hansı bir şəkildə FATCA/CRS tələblərinə uyğun hərəkət etməməsinə və ya FATCA/CRS çərçivəsində və ya sair Azərbaycan Respublikasının qanunvericliyi, xarici dövlətin qanunvericiliyinin tələblərinə uyğun olaraq ondan tələb edilən məlumatı və sənədləri əskik verməsi və ya təqdim etdiyi sənədlərin etibarlı olmaması və Bank tərəfindən Müştərini sadəcə xəbərdar edilməsi şərtilə, Bankın Müştərinin müvafiq hesablarını bağlamasına, hesab üzərində sərəncam vermək hüquqlarını məhdudlaşdırmasına/blok qoymasına, Müştəriyə bank məhsullarının təqdim edilməsinin/xidmətlərinin

göstərilməsinin dayandırılmasına səlahiyyətli olduğunu əvvəlcədən və gələcəkdə bu bəyanatı geri götürməyəcəyi şərtilə qəbul və təsdiq edir, buna dair öz üzərinə öhdəlik götürür.

2.12. Fərdi məlumatlar üzrə müddəalar. Fərdi məlumatların qorunması.

2.12.1. Fərdi məlumatların toplanması və işlənilməsi məqsədləri və hüquqi əsasları

Bank tərəfindən subyektlərin fərdi məlumatları "Fərdi məlumatlar haqqında Azərbaycan Respublikası Qanununun (bundan sonra "Qanun") 8.1, 9.6.1-ci və 9.6.2-ci maddələri və digər müvafiq müddəaları, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu, bank fəaliyyəti ilə bağlı digər qanun və qaydaları və hazırkı Müqavilə əsasında və Qanunla müəyyən edilən fərdi məlumatların toplanması və işlənməsi şərtlərinə uyğun olaraq aşağıdakı məqsədlər üçün toplanılır və işlənilir:

a) Bank tərəfindən təqdim edilən məhsul və xidmətlər subyektlərin istifadə vərdişlərinə və ehtiyaclarına uyğun olmaqla özəlləşdirilərək subyektlərə tövsiyə edilməsi və tanıdılması üçün lazımi tədbirlərin planlaşdırılması və icrası;

b) Bank tərəfindən təqdim edilən məhsullardan və xidmətlərdən subyektlərin faydalanmaları üçün lazımi fəaliyyətlərin iş vahidlərimiz tərəfindən yerinə yetirilməsi və münasib iş müddətlərində icra olunması;

c) Bank tərəfindən həyata keçirilən ticarət və əməliyyat fəaliyyətlərinin yerinə yetirilməsi üçün müvafiq iş vahidlərimiz tərəfindən həyata keçirilməsi və münasib iş müddətlərində icra olunması;

d) Bank və Bankla biznes əlaqələri mövcud olan şəxslərin hüquqi və ya texniki təhlükəsizliyinin və iş davamiyyətinin təmin edilməsi;

e) Bankın törəməsi olan, biznes əlaqələri qurduğu və ya agentliyi olan qurumlarla birlikdə həyata keçirilən marketinq fəaliyyətlərinin planlaşdırılması və icrası;

f) Bank tərəfindən hazırkı Müqavilə çərçivəsində nəzərdə tutulan digər hüquq və öhdəliklərin yerinə yetirilməsi;

g) Bank tərəfindən təqdim edilən məhsul və xidmətlərin keyfiyyətinin müəyyənləşdirilməsi məqsədilə statistik tədqiqatların aparılması;

h) Əməkdaşlıq məqsədləri üçün Bank tərəfindən subyektlə gələcəkdə istənilən əlaqələrin qurulması;

i) Azərbaycan Respublikası qanunvericiliyinin icbari tələblərini, habelə, Bankın tabe olduğu digər hər hansı xarici qanunvericiliyin məcburi tələblərinin yerinə yetirilməsi məqsədilə Bank və səlahiyyətli dövlət orqanları və ya publik qurumları arasında yuxarıda göstərilən məqsədlər üçün əməkdaşlığın həyata keçirilməsi.

2.12.2. Fərdi məlumatlar, onların işlənilmə əməliyyatları və informasiya sistemləri

2.12.2.1. Bu Müqavilənin məqsədləri üçün fərdi məlumatlar dedikdə, subyektin adı, soyadı, atasının adı, mobil telefonu, elektron poçt ünvanı, ŞV/pasport məlumatları, subyektin Müqavilələr əsasında həyata keçirilən maliyyə əməliyyatları barədə məlumatı və işlənilmə məqsədlərinə nail olmaq üçün tələb olunacaq digər məlumat başa düşülür.

2.12.2.2. Subyektin fərdi məlumatlarının işlənilmə məqsədlərinə nail olmaq üçün avtomatlaşdırılmış və ya digər vasitələrlə toplanması, sistemləşdirilməsi, montaj edilməsi, mühafizəsi, istifadəsi, ötürülməsi, verilməsi, adsızlaşdırılması, təşkili, strukturlaşdırılması, saxlanması, uyğunlaşdırılması və ya düzəliş edilməsi, surətinin çıxarılması, bərpa edilməsi, məsləhətləşmə, üçüncü tərəflərə ötürülmə, yayılma, dərc edilmə və ya digər vasitələrlə açıqlanması və ya digər şəkildə əldə edilməsi, uyğunlaşdırılması, birləşdirilməsi, məhdudlaşdırılması, silinməsi, məhv edilməsi və ya arxivləşdirilməsi vasitələri ilə işləniləcəkdir.

2.12.2.3. Subyektin fərdi məlumatları Bank tərəfindən məlumat mərkəzi, şöbə, ATM, faks, qısa mesaj (SMS), biznes tərəfdaşlarının nümayəndəlikləri, internet bankçılıq, mobil bankçılıq, Bankın internet saytları və buna bənzər kanallarla elektron və/və ya fiziki qaydada fərdi məlumatların toplanması və işlənməsi məqsədləri üçün əldə edilir.

2.12.3. Fərdi məlumatların üçüncü şəxslərə və transsərhəd ötürülməsi. Bank tərəfindən əldə edilən fərdi məlumatlarınız, yuxarıda qeyd olunan məqsədlərlə ölkə daxilində və ya ölkə xaricində olan ortaqlarımıza, törəmə şirkətlərimizə, səlahiyyətli dövlət və özəl sektor institutlarına və təşkilatlarına, biznes tərəfdaşlarımıza və tədarükçülərimizə Qanunda müəyyən edilən qaydalarda və şərtlərlə ötürülə bilər.

2.12.4. Fərdi məlumatların işlənilməsi və toplanması müddəti. Subyekt Banka fərdi məlumatlarının toplanması və işlənməsi barədə yazılı etirazını bildirənədək və ya hazırki Müqavilənin qüvvədə olma müddəti bitənədək Bank tərəfindən subyektin fərdi məlumatları onların toplanılma və işlənilmə məqsədlərinə nail olmaq üçün tələb olunan müddətdə toplanılacaq və işləniləcəkdir.

2.12.5. Fərdi məlumatların arxivləşdirilməsi və məhv edilməsi. Fərdi məlumatların müvafiq informasiya sistemində hazırki Müqavilə ilə müəyyən olunmuş saxlanma müddəti başa çatdıqda və ya subyektin ölümündən sonra onun barəsində toplanılmış fərdi məlumatlar qanunvericiliklə müəyyən olunmuş qaydada məhv edilir və ya arxivləşdirilir.

2.12.6. Fərdi məlumatların mühafizəsi

2.12.6.1. Bank fərdi məlumatlardan icazəsiz istifadə və ya belə məlumatlara icazəsiz daxilolmanın, onların təsadüfən və ya icazə olmadan məhv edilməsinin, itirilməsinin və ya düzəliş edilməsinin, fərdi məlumat haqqında qanunvericiliyin tələblərinin pozulmasının qarşısını almaqla yanaşı, işlənilmiş fərdi məlumatın məxfiliyinin, tamlığının və ona daxilolma hüquqlarının

qorunması və təmin edilməsi məqsədilə texniki və təşkilati tədbirlər həyata keçirəcəkdir və fərdi məlumatlar işlənilmə məqsədlərinə uyğun şəkildə işlənilməcəkdir.

2.12.6.2. Bank həyat və sağlamlıqla bağlı təhlükələrin qarşısını almaq üçün zəruri olan hallar, eləcə də Qanunda nəzərdə tutulan hallar istisna olmaqla fərdi məlumat subyektin yazılı razılığı olmadan bu Müqavilədə qeyd olunan üçüncü şəxslərdən başqa tərəflərə təqdim etməyəcək və kommersiya məqsədləri üçün istifadə etməyəcək.

2.12.7. Subyektin hüquqları

2.12.7.1. Subyekt aşağıdakı hüquqlara malikdir:

a) informasiya sistemində özü barəsində fərdi məlumatların mövcudluğu, onların mülkiyyətçisi və ya operatoru haqqında məlumat almaq;

b) informasiya sistemində özü barəsində fərdi məlumatların toplanılmasının, işlənilməsinin və üçüncü şəxslərə verilməsinin hüquqi əsaslandırılmasını tələb etmək, bu məlumatların toplanılmasının, işlənilməsinin və üçüncü şəxslərə verilməsinin subyekt üçün hansı hüquqi nəticələrə səbəb olacağı barədə məlumat almaq;

c) informasiya sistemində özü barəsində toplanılmış fərdi məlumatların məzmunu ilə tanış olmaq;

d) informasiya sistemində özü barəsində fərdi məlumatların toplanılması və işlənilməsi məqsədini, işlənilmə müddətini, üsullarını, onun fərdi məlumatları ilə tanış olmaq icazəsi olan şəxslərin, o cümlədən məlumat mübadiləsi aparılması nəzərdə tutulan informasiya sistemlərinin dairəsini bilmək;

e) informasiya sistemində özü barəsində toplanılmış və işlənilən fərdi məlumatların dəqiqləşdirilməsini və qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, məhv edilməsini tələb etmək, habelə həmin məlumatların müəyyən olunmuş qaydada arxivə verilməsi barədə müraciət etmək;

f) özü barəsində fərdi məlumatların toplanılmasına və işlənilməsinə qadağan qoyulmasını tələb etmək;

g) informasiya sistemində özü barəsində toplanılmış və işlənilən fərdi məlumatların əldə edilməsi mənbələri barədə məlumat almaq, həmin məlumatların qanuniliyinin sübuta yetirilməsini tələb etmək;

h) informasiya sistemində özü barəsində toplanılmış və işlənilən fərdi məlumatların mühafizəsini tələb etmək;

i) özü barəsində toplanılan və işlənilən fərdi məlumatların olduğu informasiya sistemlərinin uyğunluq sertifikatının mövcudluğu və dövlət ekspertizasından keçirilməsi haqqında məlumat almaq;

j) Fərdi məlumatlarının işlənilib-işlənilmədiyini öyrənmək;

k) Fərdi məlumatların dəqiqləşdirilməsini tələb etmək;

l) Fərdi məlumatları yarımçıq və ya səhv işlənildiyi hallarda belə halların aradan qaldırılmasını və müvafiq hallarda bununla bağlı həyata keçirilən prosedurun fərdi məlumatların ötürüldüyü üçüncü şəxslərə bildirilməsini tələb etmək;

m) Fərdi məlumatlarının toplanılması və işlənilməsi məqsədlərinə nail olunduqda və onların saxlanılması zərurəti aradan qalxdıqda həmin məlumatların təxirə salınmadan məhv edilməsini tələb etmək və müvafiq hallarda bununla əlaqədar olaraq fərdi məlumatların ötürüldüyü üçüncü şəxslərə məlumat verilməsini tələb etmək;

n) İşlənilən fərdi məlumatların avtomatlaşdırılmış sistemlər vasitəsilə analiz edilməsi nəticəsində şəxsin öz əleyhinə olan hər hansı bir halın ortaya çıxmasına qarşı etiraz etmək;

o) müvafiq səlahiyyətli orqanlara, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə və ya müvafiq məhkəməyə şikayət edə və məhkəmə ilə təsdiq olunmuş maddi və mənəvi zərərlərin kompensasiyasını tələb edə bilərsiniz;

p) Qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlar.

2.12.7.2. Subyekt fərdi məlumatlar üzrə Banka müraciət etdikdə, tələbin xüsusiyyətindən asılı olaraq tələbi ən qısa vaxt ərzində və Qanunda hər hansı əks müddəa nəzərdə tutulmadığı halda, ən geci yeddi (7) iş günü ərzində ödənişsiz əsasla həyata keçirəcəkdir. Bununla bağlı üçüncü şəxsə müraciət etmək zərurəti yarandıqda sorğunun icra müddəti daha 7 iş günü uzadıla bilər.

2.13. Ödəniş xidməti təchizatçısı ödəniş xidməti istifadəçisi tərəfindən şikayətin daxil olduğu tarixdən 7 (yeddi) iş günü müddətində müraciətə baxır və nəticəsi barədə ödəniş xidməti istifadəçisini məlumatlandırır. Müraciətə baxılması bu müddətdə mümkün olmadığı halda həmin müddətdən gec olmayaraq şikayətə baxılması müddətinin artırılmasının səbəblərini əsaslandırmaqla şikayətə baxılması müddəti barədə ödəniş xidməti istifadəçisinə məlumat verir. Ödəniş xidməti təchizatçısına şikayətin verilməsi ödəniş xidməti istifadəçisinin məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırmır.

2.14. Bu müqavilə qeyri-müəyyən müddətdə bağlanılır. Ödəniş xidməti istifadəçisi 1 (bir) ay əvvəl ödəniş xidməti təchizatçısına yazılı bildiriş verməklə müqaviləni ləğv edə bilər. Bu müqavilə ləğv edilənədək ödəniş xidməti istifadəçisi istifadə etdiyi ödəniş xidmətlərinə görə xidmət haqlarını ödəməlidir. Ödəniş xidməti təchizatçısı ödəniş xidməti istifadəçisini 30 (otuz) gün əvvəl məlumatlandıraraq bu müqaviləni ləğv edə bilər.

Müqavilə ləğv edilənədək ödəniş xidməti istifadəçisi istifadə etdiyi ödəniş xidmətlərinə görə xidmət haqlarını ödəməlidir. Əgər xidmət haqları avans şəklində ödənilmişdirsə, həmin haqlar müqavilə ləğv edilənədək göstərilən ödəniş xidmətlərinə görə

ödənilməli olan xidmət haqları çıxılmaqla ödəniş xidməti istifadəçisinə müqavilənin ləğv olunduğu günün növbəti iş günündən gec olmayaraq geri qaytarılır.

2.15. Tərəflər razılaşırlar ki, məlumatların və\və ya müracitlərin ötürülməsi üzrə əlaqə vəsitələri kimi tərəflərin bu müqavilədə göstərilən və ya sonradan bir birinə təqdim etdikləri bu və ya digər (telefon, SMS, elektron poçt ünvanı, internet, qeydiyyat\yaşayış ünvanı və s.) kommunikasiya kanallar\əlaqə vasitələri üzrə həyata keçirilə bilər.

2.16. Fors-major. Tərəflər müqavilə imzalandıqdan sonra fövqəladə xarakterli qarşısı alınmaz qüvvə nəticəsində bu müqavilə üzrə öhdəliklərini tam və ya qismən yerinə yetirə bilmədikdə buna görə məsuliyyət daşımırlar. Belə fövqəladə xarakterli hadisələr deyildikdə daşqın, zəlzələ, partlayış, qasırğa, torpaq çöküntüsü, epidemiya və digər təbbi hadisələr, həmçinin müharibə və döyüş əməliyyatları, ərazi və müvafiq sahə üzrə tətillər, dövlət və icra hakimiyyəti orqanının bu müqavilənin icrasını mümkünsüz edən qərarları başa düşülür. Bu bənddə sadalanan hadisələr hansı tərəfin mövcud müqavilə üzrə öhdəliklərinin icrasının qarşısını alırsa həmin tərəf belə hadisələrin baş verməsi və aradan qaxması barədə digər tərəfə təsdiqedici sənədlərlə birlikdə dərhal məlumat verir. Fors-major halları 30 gün və ya ondan artıq davam edərsə tərəflərdən biri 5 gün əvvəl digərini rəsmi qaydada məlumatlandırmaqla müqaviləyə xitam verə bilər.

3. Debet kartı üzrə maddələr\müddəalar

3.1. Predmet. Debet kart. "Bank", "Kart sahibi"nin "Bank"da olan hesabındakı pulun (müəyyən edilmiş debet kart limiti) ATM (kart vasitəsilə nağd pul vəsaitinin alınması və digər bank xidmətlərindən istifadə edilməsi üçün nəzərdə tutulmuş proqram-texniki kompleks-bankomat) aparatlarından nağd şəkildə vəsaitin alınması\çıxarılması (nağd vəsaitin əldə edilməsi), bank hesabından istifadə edərək hər hansı bir nağd ödəniş etmədən debet kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisələrdə\təşkilatlarda\sahibkarlarda alqı-satqı (alış-veriş) əməliyyatların həyata keçirilməsi üçün onu debet kart ilə təmin etməyi, «Kart sahibi» isə müəyyən edilmiş şərtlərlə «Bank»a komisyon muzdu (haqqını) ödəməyi öhdəsinə götürür. Debet kart dedikdə «Bank»ın buraxdığı (emissiya etdiyi) və mülkiyyətində olan, "Kart sahibi"nə ATM aparatlarından fərdi qaydada müəyyən edilmiş PİN-kodu (gizli şifrəni) yığmaqla nağd pul vəsaitinin alınmasına\çıxarılmasına (nağd vəsaitin əldə edilməsinə), bank hesabından istifadə edərək hər hansı bir nağd ödəniş etmədən debet kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisələrdə\təşkilatlarda\sahibkarlarda alqı-satqı (alış-veriş) əməliyyatların həyata keçirilməsinə imkan verən elektron daşıyıcısı olan texniki vasitədir (plastik kartdır).

3.2. Debet kartla əməliyyat və ödəniş qaydası

3.2.1. Debet kart müvafiq qaydada ATM aparatlarına daxil edilib, PİN kod (gizli şifrə) və ödəniləcək məbləğ yığılmaqla ödəniş həyata keçirilir.

3.2.2. "Kart sahibi" qəbul və təsdiq edir ki, Debet kart vasitəsi ilə ATM aparatlarından nağd alınan\çıxarılan vəsaitlərə görə komisyon muzduna(haqqına) "Bankın" carı tarifləri tətbiq edilirki "Bank"a buna müvafiq komisyon muzdu (haqqı) ödənilir. "Kart sahibi" həmçinin təsdiq və bəyan edir ki, bununla bağlı məlumatlar Bank tərəfindən "kart sahibinə" (kart istifadəçilərinə) "Bank"ın rəsmi internet saytları (www.yapikredi.com.az və \vəya www.worldcard.com.az) və/və ya filial şəbəkələri (struktur bölmələri) və\və ya digər bank kanalları\üsulları vasitəsi (elektron poçt, SMS və s.) ilə bəyan\elan edilir\çatdırılır (sadalanlan üsulların hər hansı biri vasitəsi ilə bəyan\elan edilə\çatdırıla bilər).

3.2.3. «Kart sahibi»nə debet kartın təqdim edilməsi ilə əlaqədar olaraq «Kart sahibi» tərəfindən «Bank»a razılaşdırılmış qaydada 5 (beş) manat məbləğində bir dəfəlik komisyon muzd (haqq) ödənilir.

3.2.4. "Kart sahibi" həmçinin qəbul, təsdiq və bəyan edir ki, gündəlik və\və ya nağd əməliyyatlar üzrə məhdudiyyətlər (limitlər və s.) barədə məlumatlar) Bank tərəfindən "kart sahibinə" (kart istifadəçilərinə) "Bank"ın rəsmi internet saytı (www.yapikredi.com.az) və/və ya filial şəbəkələri (struktur bölmələri) və\və ya digər bank kanalları\üsulları vasitəsi (elektron poçt, SMS və s.) ilə bəyan\elan edilir\çatdırılır (sadalanlan üsulların hər hansı biri vasitəsi ilə bəyan\elan edilə\ çatdırıla bilər).

3.3. Debet kartla rəftar qaydası

3.3.1. Debet kartın və PIN kodun (gizli şifrəsinin) qorunmasına görə "Kart sahibi" məsuliyyət daşıyır. Debet kartın itməsi, oğurlanması, korlanması (yararsız vəziyyətə düşməsi) və s. hallarda "Kart sahibi" dərhal "Bank"a müvafiq qaydada (yazılı və ya Telefon Məlumat Mərkəzi vasitəsilə) məlumat verməlidir.

3.3.2. Debet kartın arxasında mövcud olan imza yeri, kart qəbul edildiyi vaxt "Kart sahibi" tərəfindən davamlı mürəkkəblə imzalanmalıdır. Debet kartın arxasında mövcud olan imza yerinin imzalanmaması ilə bağlı ortaya çıxa biləcək bütün məsələlərə görə məsuliyyət "Kart sahibinin" üzərinə düşür.

3.3.3. "Bank" tərəfindən debet kartın "Kart sahibi"nə təhvil verildikdən sonra debet kartından üçüncü şəxs(lər)in (o cümlədən səlahiyyətsiz şəxs(lər) tərəfindən) hər hansı bir şəkildə istifadəsinə və/ və ya debet kartından pul vəsaitinin silinməsinə (çıxarılmasına, köçürülməsinə və s.) görə, həmçinin qeyri-qanuni istifadə halları nəticəsində debet kartından (hesabından) pul vəsaitlərin silinməsinə (çıxarılmasına, köçürülməsinə və s.) görə "Bank" məsuliyyət daşımır.

3.3.4. "Kart sahibi" debet kartın Bankda təhvil (təslimi) edilməsi ilə yanaşı, "Bank"a bildirdiyi və Bankın sistemində qeydiyyata alınanünvana poçt vasitəsi ilə (qapalı zərfdə) göndərilə/çatdırıla biləcəyini və debet kartı olan qapalı zərfin itirilməsi/oğurlanması hallarda Bank tərəfindən heç bir məsuliyyət daşımayacağını qəbul, bəyan və təsdiq edir.
"Kart sahibi" debet karta aid müvafiq PIN kodun (gizli şifrəni) SMS (kart sahibinin Banka bildirdiyini və Bank sistemində qeydiyyata alınan mobil telefon nömrəsinə), poçt (kart sahibinin Banka bildirdiyini və Bank sistemində qeydiyyata alınanünvana) Telefon Mərkəzi (Call Center) və s. bank kanalları vasitəsi ilə təqdim ediləcəyini (ala biləcəyini) qəbul, bəyan və təsdiq edir . PİN kod poçt vasitəsi ilə göndərildiyi təqdirdə PİN kodla olan qapalı zərfin itirilməsi/oğurlanması hallarında "Bank" heç bir məsuliyyət daşımayacağını "Kart sahibi" qəbul, bəyan və təsdiq edir.
Debet kart və ona dair müvafiq PIN kod (gizli şifrə) "Kart sahibi"nin "Bank"a bildirdiyi ünvana poçt vasitəsi ilə göndərildikdə (çatdırıldıqda), debet kart və ona dair müvafiq PIN kod (gizli şifrə) ayrı-ayrı vaxtlarda və ayrı-ayrı qapalı zərflərdə göndəriləcək (çatdırılacaq).
Qeyd: "BANK KANALLARI": Bankın filial və şöbələri (struktur bölmələri) xaricində qalan Müştəriyə xidmətlərini çatdırdığı internet, mobil cihazlar, ATM, Telefon Mərkəzi və s. kimi kanallar.
3.4. Bankın hüquq və vəzifələri.
3.4.1. Bankın aşağıdakı hüquqları vardır:
3.4.1.1. Debet kart vasitəsilə aparılan əməliyyata(lara) görə «Kart sahibi»nin hesabından mübahisəsiz qaydada komisyon haqqını silmək (tutmaq).
3.4.1.2. «Kart sahibi» tərəfindən bu müqavilənin hər hansı bir şərti(ləri) pozulduğu halda debet kartının fəaliyyətini dayandırmq (bloklaşdırmaq), kart hesabı üzrə əməliyyatları dayandırmaq, onun qaytarılmasını tələb etmək və\və ya müqaviləni ləğv etmək.
«Kart sahibi» tərəfindən müqavilə ilə müəyyən edilmiş şərtlər və tələblər yerinə yetirilmədikdə qanunvericiliklə nəzərdə tutulmuş bütün tədbirləri həyata keçirmək, o cümlədən məhkəməyə müraciət etmək.
3.4.1.3. Əvvəlcədən məlumatlandırmaqla xidmət tariflərini və komisyon muzdunu (haqqını) dəyişmək.
3.4.1.4. İstifadə müddəti başa çatdıqdan sonra müvafiq qiymətləndirmədən (təhlildən) asılı olaraq debet kartının istifadə müddətini uzatmamaq.
3.4.1.5. Müştərinin plastik karta bağlı müvafiq hesabı\ları bağlandıqda və ya həmin hesab\lardan bir ildən artıq müddət ərzində əməliyyat aparılmadıqda Bank plastik kartı kart sahibinin tapşırığı olmadan birtərəfli qaydada istifadəyə bağlamaq (kartı ləğv) etmək hüququna malikdir, bu zaman bu müqaviləyə xitam verilir.
3.4.1.6. Qanunvericiklə və\və ya bu müqavilə ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.
3.4.2. Bankın aşağıdakı vəzifələri vardır:
3.4.2.1. «Kart sahibi»nin müraciətini qiymətləndirərək (təhlil edərək), uyğun hesab etdiyi təqdirdə debet kartı ilə təmin etmək; Debet kartdan və PİN-koddan (gizli şifrədən) istifadə qaydalatı ilə "kart sahibini" tanış etmək; Debet kartın istifadəsi ilə yerinə yetirilən əməliyyatlar və aparılan hesablaşmalar üzrə kart sahibinin müraciətlərinə və şikayətlərinə 7 (yeddi gün) ərzində baxmaq. Bu müqavilə ilə üzərinə düşən öhdəlikləri icra etmək.
3.5. «Kart sahibi»nin hüquq və vəzifələri
3.5.1. «Kart sahibi»nin aşağıdakı hüquqları vardır:
3.5.1.1. Bu müqavilənin hər hansı bir şərti(ləri) ilə razı olmadığı təqdirdə, müqavilənin imzalanmasından (bağlanmasından) imtina etmək. Bu müqavilə ilə müəyyən edilmiş müddətdə debet kart vasitəsilə nağd pul vəsaitinin alınmasını (nağd vəsaitin əldə edilməsini), bank hesabından istifadə edərək hər hansı bir nağd ödəniş etmədən debet kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisələrdə\təşkilatlarda\sahibkarlarda alqı-satqı (alış-veriş) əməliyyatlarını həyata keçirmək.
3.5.1.2. Borc və ödənişlər (silinmələr) haqqında öz etirazlarını 7 (yeddi) təqvim gün ərzində yazılı şəkildə «Bank»a bildirmək və şikayətlərinə həmin müddət ərzində baxılmasını tələb etmək.
3.5.1.3. Hesabı üzrə pul vəsaitlərinin hərəkəti və hesabındakı qalıq haqqında çıxarışları, müvafiq qaydada müraciət etdikdən sonra 3 (üç) bank günündən gec olmayaraq almaq.
3.5.2. «Kart sahibi»nin vəzifələri
3.5.2.1. Debet kartdan istifadəyə görə razılaşdırılmış qaydada «Bank»a komisyon muzdunu(haqqını) və s. ödəmək.
3.5.2.2. «Bank»ın tələb etdiyi halda debet kartı dərhal «Bank»a qaytarmaq.
3.5.2.3. Debet kartın və debet kartın PİN kodunun (gizli şifrəsinin) qorunmasını təmin etmək. Debet kartın itirilməsi (oğurlanması), korlanması və\və ya səlahiyyətsiz şəxs tərəfindən istifadə hallarında (və ya buna şübhələr olduqda) dərhal "Bank"a yazılı məlumat vermək. Bu kimi məlumatlar əsasında debet kartı bank tərəfindən fəaliyyəti dayandırılacaq (qeyd: «Bank» tərəfindən debet kartın «kart sahibinə» təhvilindən sonra debet kartdan istifadəsinə, habelə üçüncü şəxsin(lərin) hər hansı bir şəkildə istifadəsinə (əməliyyatların aparılmasına) görə və\ və ya debet kartından (hesabdan) pulun silinməsinə (çıxarılmasına, köçürülməsinə və s.) görə «Bank» məsuliyyət daşımır və bununla bağlı bütün məsuliyyət «kart sahibinin» üzərinə düşür).
3.5.2.4. Debet kartın itməsi, oğurlanması, hər cür korlanması və s. hallarda bununla bağlı Bankın göstərişlərini əməl etmək. Debet kartdan istifadə müddəti başa çatdıqdan sonra debet kartdan istifadə etməmək və debet kartı «Bank»a qaytarmaq. Debet

kartdan üçüncü şəxslərin istifadəsinə yol verməmək.

3.5.2.5. Hər hansı bir şəkildə "kart sahibinə" "Bank" tərəfindən debet kartına (hesabına) artıq ödəniş edildiyi təqdirdə artıq ödənilmiş məbləği Bankın xəbərdarlığından sonra dərhal geri qaytarmaq (ödəmək). Qaytarmadığı təqdirdə əməliyyatın həyata keçirildiyi tarix ilə bu məbləğin geri ödənildiyi (ödəniləcək) tarix arasında olan artıq ödənilmiş məbləğə hesablanmış (tətbiq edilən) faiz hesablanmasına müvafiq ödəniş etməyi kart sahibi qəbul, bəyan və təsdiq edir. Debet kart vasitəsilə əməliyyat apararkən Azərbaycan Respublikasının qanunvericiliyinin bütün tələblərinə ciddi riayət etmək. Debet kartların alınması və istifadəsi ilə bağlı qanunvericiliyin tələblərinə və buna müvafiq "Bank" tərəfindən müəyyən edilən qaydalara tam riayət etmək.

3.6. Debet kartdan istifadə müddəti. Kart sahibi debet kart üzərində ay və il kimi qeyd edilmiş sonuncu istifadə etmə tarixinin müəyyən edildiyini, göstərilən ayın sonuncu gününə qədər qüvvədə olduğunu və bu tarixdən sonra kartdan istifadə edilməyəcəyini qəbul, bəyan və təsdiq edir. Etibarlıq (istifadə) müddəti bitən kart(lar)ın və\və ya kart nömrə və ya gizli şifrələrinin (PİN kod) istifadəsindən yarana biləcək hər cür məsuliyyəti "kart sahibi" daşıyır.

3.7. Dəftər və qeydlərinin dəlil olacağı. Bu müqavilənin tərəfləri, bu müqavilə və onun tətbiq edilməsi ilə bağlı aralarında yarana biləcək hər cür mübahisələrin həlli zamanı "Bankın" dəftər, yazılı, kompyuter (sistem) və ya səsli qeydlərinin, "kart sahibi" tərəfindən "Banka" göndəriləcək (təqdim ediləcək) yazılı və\və ya faks təlimatlarının əsaslı dəlil (sübut) olacağını qəbul, bəyan və təsdiq edirlər. Bununla yanaşı, tərəflər həmçinin aralarında həyata keçiriləcək telefon danışıqlarının qeydiyyata alınmasını və "Bank" tərəfindən qanunvericiliyin tələbləri daxilində uyğun görüləcək vaxtadək saxlanılmasını və bu şəkildə saxlanılan telefon danışıqlarının (qeydlərinin) dəlil (sübut) olacağını qəbul, bəyan və təsdiq edirlər.

3.8. Kartın (kredit və\və ya debet) MasterCard Moneysend və\və ya Visa MoneyTransfer əməliyyatlarında istifadəsi.

Kart, qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə xaricdəki MasterCard kredit (və\və ya debet) və\və ya Visa kredit (və\və ya debet) kartından Azərbaycandakı MasterCard kredit (və\və ya debet) və\və ya Visa kredit (və\və ya debet) kartına pul köçürmə əməliyyatlarında da istifadə edilə biləcəkdir. Bu əməliyyatın həyata keçirilməsi üçün ölkə xaricindən "Bank"a MasterCard kredit (və\və ya debet) və Visa kredit (və\və ya debet) kartının nömrəsi verilməli və göndərilmək istənilən məbləğ bildirilməlidir. Moneysend və\və ya MoneyTransfer əməliyyatı həyata keçirilərkən sistem "onlayn" (real vaxt) rejimində alıcının kredit (və\və ya debet) kartının açıq olub olmamasına nəzarət edəcək, kart pul köçürülməsi olduqda uyğun gəlirsə pul köçürməsi həyata keçiriləcək, istifadəyə bağlıdırsa "onlayn" əməliyyatına icazə verilməyəcək. "Onlayn" şəklində əməliyyat təsdiq edildikdən sonra, pulun karta keçə bilməsi mübadilə yolu ilə həyata keçiriləcək. Mübadilə faylı eyni gün ərzində gələ (daxil ola) biləcəyi kimi, bir-iki gün ərzində də gələ (daxil ola) biləcəyindən, məbləğin kredit (və\və ya debet) kartına keçmə zamanı mübadilə faylının gəlişinə (daxil olmasına) bağlı olacaq və əməliyyatın həyata keçirilməsi üçün göndərmə tarixindəki yox, mübadilə tarixində olan kartın vəziyyəti (durumu) nəzərə alınacaq, "onlayn" əməliyyatlarla mübadilədən gələn əməliyyatlar üst-üstə düşdüyü (uyğunlaşdığı) təqdirdə kredit (və\və ya debet) kartına pul köçürülməsi (transferi) həyata keçirilə biləcək. Ölkə xaricindən pul xarici pul vahidi (valyuta) ilə göndərildikdə, göndərilən məbləğ "Bank"ın məzənnə (satış) kursuna müvafiq Azərbaycan Manatı (AZN) ekvivalentində kredit (və\və ya debet) kart hesabına alınacaq məbləğ qeyd ediləcəkdir. Birdəfəlik göndəriş əməliyyatlarında, qanunvericiliyin tələblərinə əsasən "Bank" tərəfindən müəyyənləşdirilən limitdən (məbləğdən) artıq olmayan əməliyyatlar həyata keçirilə biləcək, bu məbləğdən artıq olan əməliyyatlar isə icra olduqda qəbul edilməyəcəkdir. "Bank", yuxarıdakıları nəzərə alaraq qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə bu kimi üst limiti dəyişdirmək hüququna malikdir. "Kart sahibinin" kredit (və\və ya debet) kartı hesabı üzrə əməliyyatların açıqlanması olaraq Moneysend və\və ya MoneyTransfer ifadəsi və göndərənin adı görünəcək (əks ediləcək). "Kart sahibinin" kredit (və\və ya debet) kartına Moneysend və\və ya MoneyTransfer əməliyyatı ödəmə əməliyyatı kimi əks ediləcək, yəni əvvəlcə kredit (və\və ya debet) kartının hesab çıxarışına (bildirişinə) əks edilmiş olan borc məbləği geri qaytarılacaq, balansında məbləğ qalarsa, bu məbləğ kart sahibinə ödənilə biləcək və kart sahibi bu məbləği, kart (hesab) müsbət balansda olmadığı müddətdə nağd pul vəsaitinin alınması/çıxarılması komisyonunu ödəyərək çıxara biləcək.

3.9. Debet kartın mülkiyyəti, itirilmə və oğurlanma halları.

- Kart Bankın mülkiyyətində olmaqla "Kart sahibi" "Bank"ın tələb etdiyi halda kartı dərhal "Bank"a qaytarmaqda məsuliyyətlidir. "Bank" (kartın itirilməsi/oğurlanması hallarında) özü və ya ATM aparatları, kart sistem təşkilatları, kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisə/sahibkar vəsitəsi ilə karta məhdudiyyət (əl) qoya bilər.
- Kartın itirilməsi, oğurlanması, hər hansı bir şəkildə təsir altından çıxması, istifadə edilməyəcək hala düşməsi, kart istifadə edilməsi üçün gizli şifrə (PIN kod) məlumatların itirilməsi və yaxud oğurlanması və ya kartdan istifadə edərək onların iradələri xaricində hər hansı bir əməliyyatın reallaşdığını bildikləri təqdirdə, "Kart sahibi", dərhal "Bank"a ("Bank"ın Telefon Mərkəzinə), "Bank"ın istənilən filial (şöbələrinə və s.) və\və ya hesab çıxarışlarında (bildirişlərində) göstərilən telefona bildirmək və ya yazılı qaydada təsdiq etməkdə məsuliyyət daşıyır.

3.10. Debet kartdan istifadə

- Kart, kartın istifadəsinin məqsədinə uyğun olaraq ödəniş vasitəsi kimi qəbul edilən müəssisələrdə (müəssisə/sahibkar), "Bank"ın filial (şöbə) şəbəkələrində və ATM/POS-terminal aparatlarında, elektron bank əməliyyatlarında, İnternet/Mobil Bankçılıq xidmətində və "Bank"ın və/və ya beynəlxalq kart təşkilatlarının (beynəlxalq ödəniş sistemlərinin) səlahiyyət verdiyi

şəbəkə və qurumlarda (müəssisə/təşkilat/sahibkar) malların, iş və/və ya xidmətlərin dəyərinin ödənilməsi əməliyyatlarının aparılmasında və nağd pul vəsaitinin alınmasında/çıxarılmasında (nağd vəsaitin əldə edilməsində) istifadə edilə bilər.
- Kart ilə kartı ödəniş vasitəsi kimi qəbul edilən müəssisələrdə, satış və/və ya xidmət şəbəkələrində həyata keçirilən malların, iş və/və ya xidmətlərin dəyərinin ödənilməsi zamanı müvafiq xərcləmə sənədi, kart ilə "Bank"ın filiallarından (şöbələrindən) nağd pul vəsaitin alınması/çıxarılması (nağd vəsaitin əldə edilməsi) hallarında nağd ödəmə sənədi (qəbzi) təqdim edilir. Bu sənədlər (ATM-dən nağd pul vəsaitin alınması/çıxarılması (nağd vəsaitin əldə edilməsi) halları istisna olmaqla) kart sahibi tərəfindən imzalanır. "Kart sahibi" bununla bağlı hazırlanan və ona verilən sənədin nüsxəsini saxlamağı öhdəsinə götürür. "Bank"ın filiallarından (şöbələrindən) nağd pul vəsaitinin alınması/çıxarılması (nağd vəsaitin əldə edilməsi) zamanı nağd ödəmə sənədi yerinə "Bankın" filialı (şöbəsi) tərəfindən verilən müvafiq qəbz də etibarlıdır.
- Qiymətli mədən (metal), daş və əşyaların satın alınması, valyuta alışları əməliyyatları, "Kart sahibi"nin başqa bir kredit kartının borcunu bağlanması məqsədilə apardığı borc transferləri, şəxs və qurumlara (təşkilatlara) edilən ödənişlər, lotereya və mərc kuponları, daşınan qiymətli alışları, səyahət çekləri (qəbzləri), pul köçürməsi əməliyyatları, kart hesabından başqa kart hesabına və ya digər hesablara köçürmə əməliyyatları nağd vəsaitlərin istifadəsi daxilində olan əməliyyatlar kimi qiymətləndirildiyindən, yuxarıda qeyd edilən əməliyyatlar nağd pul vəsaitinin alınması/çıxarılması (nağd vəsaitin əldə edilməsi) əməliyyatları kimi sayılır (qanunvericilikdə bun(lar)a dair əksinə/ziddinə bir hal nəzərdə tutulmadığı təqdirdə). " "Kart sahibi" bunları qəbul etdiyini bəyan və təsdiq edir.
- "Kart sahibi", qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə kartını "Bank"dakı bir və ya birdən çox hesabına bağlaya biləcək və kartı və/və ya gizli şifrəsi (PIN kod) ilə bu hesablarına (ATM-lər vasitəsi/kanalı ilə) çıxış əldə edərək "Bank" tərəfindən təmin ediləcək "Bank" əməliyyatlarını və/və ya bu Müqavilə ilə tənzimlənən İnternet/Mobil Bankçılıq xidmətini həyata keçirə biləcək.
- "Bank"ın, qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə karta bağlı stimullaşdırıcı kampaniyalar (bal, bankın müəyyən etdiyi və ya müyyən edəcəyi əlavə xidmətlər və s.) həyata keçirdiyi/təşkil edildiyi təqdirdə, "kart sahibi", bu kampaniyalardan istifadə etmək hüququna sahib olması və faydalanmaq istədiyi halında, ona hesab çıxarışı (bildiriş), mətbuat, broşur və ya digər mənbələrdən (üsulla) bildiriləcək kampaniya şərtlərinin məcburi xarakter daşıdığını, bu kimi kampaniyaların şərtlərini və müddətlərini müəyyən etməyə, onların şərtlərinə dəyişikliklərin edilməsinə və/və ya tətbiqinə xitam verilməsinə "Bank"ın səlahiyyətli olduğunu, dəyişikliyin Hesab çıxarışı (bildirişi) ,və ya sms və ya e-mail ilə bildirilməsinin kifayət (yetərli) olduğunu və hesab çıxarışında (bildirişində) qeyd edilən son ödəniş tarixindən etibarən dəyişiklikləri qəbul etmiş sayılacağını qəbul, bəyan və təsdiq edir. Kart sahibi" həmçinin qəbul, bəyan və təsdiq edir ki, karta bağlı "Bank"ın müəyyən etdiyi xüsusiyyətlərə sahib olan müxtəlif əməliyyatlarda (stimullaşdırıcı kampaniyalarda və s.) "Bank"ın müəyyən etdiyi əmsala görə hesablanacaq ballar, onların istifadəsi üzrə başqa müddətlərin müəyyən edildiyi hallar istisna olmaqla, "kart sahibi" tərəfindən qazanıldıqdan sonra 3 ay ərzində istifadə edilmədiyi təqdirdə Bank həmin balları qeyd-şərtsiz silmək (həmin balları ləğv etmək) hüququna malikdir.
- "Bank"ın müəyyən etdiyi xüsusiyyətlərə sahib olan əməliyyatlarda (stimullaşdırıcı kampaniyalarda), "Bank"ın müəyyən etdiyi əmsala görə hesablanacaq ballar, yalnız kartın istifadəsinə bağlı olduğundan, bal qarşılığının nağd şəkildə ödənilməsinə istifadə edilmir (edilə bilməz) və/və ya kart borcundan silinməsində Bankın razılığı olmadan istifadə edilmir (edilə bilməz). Ballar "Bank" tərəfindən müəyyən edilərək hesab çıxarışı (bildirişi), mətbuat, broşur, internet vasitəsi ilə "kart sahibinə" bildiriləcək yalnız kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisələrdə (sahibkarlarda) və "Bank" tərəfindən müəyyən edilərək özünə hesab çıxarışı (bildirişi), mətbuat, broşur, internet vasitəsi ilə bildiriləcək qayda və şərtlərlə istifadə edilə bilər. "Kart sahibi", müzakirə mövzusu olan balları "Bank"ın razılığı olmadan bu şəxslərə dövr edə bilməz, kart borclarının ödənilməsində gecikməyə düşməsi, hər hansı bir səbəblə kartın fəaliyyətinin dayandırılması (bloklaşdırılması), yenilənməməsi, hər hansı bir səbəblə müqavilə ləğv edildiyi təqdirdə, yığılmış ballardan istifadə etməyəcəyini və bu barədə "Bank"dan hər hansı bir haqq və ya məbləğ tələb etməyəcəyini, müəyyən bir aksiya və/və ya kampaniya daxilində, müəyyən bir kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisələrdən (sahibkarlardan) qazanılmış balların digər bir bu kimi müəssisələrdə istifadəsinə məhdudiyyət qoya biləcəyinə, bal səbətinə rəhbərlik barədə "Bank"ın səlahiyyətli olduğunu, "kart sahibinin" istifadə etdiyi kartın kart növünün/proqramının/xüsusiyyətlərinin dəyişdirilməsi hallarında əvvəlki kartın malik olduğu bəzi xüsusiyyətlərinin yeni karta köçürülməyə biləcəyini, hansılarının köçürülüb köçürülməyəcəyi "Bank"ın təşəbbüsünə aid olduğunu qəbul, bəyan və təsdiq edir.
- Kartların bal qazanma səbəbi (məqsədi) ilə gerçək olmayan (məqsəddən kənar) və ya ticarət məqsədi ilə istifadəsi müəyyən (təsbit) edildiyi təqdirdə, "Bank" haqsız əldə edilən balları ləğv etmək hüququna malik olacaq.
- "Bank", karta bağlı müxtəlif çeşitli xidmət, üstünlük, yardım xidmətləri (assistent servisləri), sığorta, kampaniya, ödəniş qaydası və s. xidmətləri qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə bir araya gətirərək meydana gətirəcəyi xidmət paketlərini kartda istifadə edilən xüsusiyyətlər halına gətirə bilər. "Kart sahibi", bu xüsusiyyətlərdən faydalanmaq istədiyi və hər bir xüsusiyyətlər olduqda "Bank" tərəfindən müəyyən edilən meyarlara sahib olduğu təqdirdə, özünə hesab çıxarışı (bildirişi), mətbuat, broşur və/və ya digər mənbələrdən bildiriləcək xüsusi şərtlərin və məlumatların (məzmunların) məcburi

xarakter daşıdığını, müzakirə mövzusu olan xüsusiyyətlərin tətbiqi şərtlərini və müddətini müəyyən etmədə, bunları dəyişdirməyə, yenilərini əlavə etməyə və/və ya tətbiqinə xitam verməyə "Bank"ın səlahiyyətli olduğunu, dəyişikliyin hesab çıxarışı (bildirişi) ilə özünə bildirilməsinin yetərli (kifayət) olduğunu və hesab çıxarışında (bildirişdə) qeyd edilən son ödəniş tarixindən etibarən dəyişiklikləri qəbul etmiş sayılacağını qəbul, bəyan və təsdiq edir.

- "Kart sahibi", kartdan istifadə edilməsinə başlamamışdan əvvəl, o cümlədən təhlükəsizlik şərtlərini gözləmək məqsədi ilə, kartın aktivləşdirilməsi üçün "Bank"ın Telefon Mərkəzinə (Call Center) zəng vuraraq kartın aktivləşdirilməsinə dair müraciət etməlidir (qeyd: bununla belə "Kart sahibi" qəbul, təsdiq və bəyan edir ki, kartın aktivləşdirilməsi göstərilən şərtlər gözlənilmək şərti ilə həmçinin digər bank kannaları vəsitəsi ilə də həyata keçirilə bilər (Bankın struktur bölmələri (filiallarında, şöbələrində və s.), SMS, ATM və s.). Kartı yalnız bu prosedurdan sonra (yəni zəruri məlumatlar " kart sahibi" tərəfindən təsdiq edildikdən sonra) aktivləşdirilərək əməliyyatlarda istifadə etmək mümkün olacaq. Bank uyğun bildiyi təqdirdə kartı avtomatik şəkildə aktivləşdirilməsi hüququnu özündə saxlayır.

3.11. Debet kartın təmassız qaydada əməliyyat apara bilməsi (təmassız xüsusiyyətləri olan kart)

- Təmassız xüsusiyyəti olan kart - standart kartın malik olduğu xüsusiyyətləri ilə yanaşı, Pos-terminal aparatlarında təmassız qaydada oxudulmaq şərti ilə, kart daxilindəki məlumatları POS terminal aparatlarına ötürərək (transfer edərək), qanunvericiliyin tələbləri əsasında və buna müvafiq "Bank" tərəfindən müəyyənləşdirilmiş qaydalar çərçivəsində gizli şifrə (PIN kod) istifadə edilməsinə ehtiyac olmadan əməliyyat həyata keçirmək xüsusiyyətlərinə malik olan kartdır. Bu əməliyyatlarda xərcləmə sənədinin müvafiq qaydada təşkil edilməsi və " kart sahibi" tərəfindən imzalanması zəruri deyil.
- "Kart sahibi", kartın təmassız qaydada da əməliyyat apara bilməsi üçün, "Bank"ın limiti daxilində sözügedən karta təmassız əməliyyat limitinin müəyyən edəcəyini, hər bir karta təyin olunan təmassız əməliyyat limitinin kartı limitindən düşüləcəyini (çıxılacağını), hər bir karta müəyyən edilən limitini artırmaq, azaltmaq və ya ləğv etmək səlahiyyətinə malik olduğunu, bunların özünə hesab çıxarışı (bildirişi) ilə (və ya qanunvericiliyin tələblərinə zidd olmayan "Bank"ın uyğun hesab etdiyi digər üsullarla) əvvəlcədən bildiriləcəyini, bu xüsusiyyətləri ləğv etdirmədikləri müddətədək yeni standart təmassız əməliyyat limitinin kart üçün etibarlı olacağını, kart ilə həyata keçirəcəkləri gizli şifrə (PIN kod) istifadəsi tələb edilən hər təmaslı əməliyyatdan sonra təmassız əməliyyat limitinin cəmi istifadə edilə bilən limitdən köçürülərək (devr edilərək) avtomatik olaraq karta müəyyən edilmiş təmassız əməliyyat limitinə yüksəldiləcəyini qəbul, bəyan və təsdiq edir.
- "Kart sahibi", təmassız xüsusiyyətlərinə malik olan kartın itməsi və ya oğurlanması səbəbindən əldən çıxdığı təqdirdə, karta müəyyən edilmiş təmassız əməliyyat limitinin "Bank" tərəfindən ləğv edilməsinin mümkün olmadığını, bu səbəbə görə bu limit(lər)in bu şəxslər tərəfindən istifadə edilə biləcəyini, bu kimi əməliyyatlarla bağlı hər cür məsuliyyətin özünə aid olduğunu qəbul, bəyan və təsdiq edir.

3.12. Debet kartın mobil ödəniş əməliyyatlarında istifadəsi

- Kartın mobil ödəniş əməliyyatlarında istifadəsi qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə kart sahibinin Bankın sistemində qeydiyyata alınan mobil telefonunu xüsusi POS terminal aparatlarına təmassız olaraq oxudub əməliyyat aparılmasını təmin edir. Kartın mobil ödəniş əməliyyatlarında istifadə edilə bilməsi üçün kart sahibi, "Bank"ın həmin dövrdə dəstəklədiyi texnologiyaya cavab verən, mobil telefonu üçün zəruri olan texnoloji imkanlara (funksiyalara) malik olmalıdır.
- "Kart sahibi", mobil telefonunun təmassız əməliyyatlarda istifadə edilməsi üçün, karta bağlı bir əlavə kart buraxılacağını, buraxılan bu əlavə kartı ilə "Bank" tərəfindən daha sonra müəyyən ediləcək məbləğə qədər olan əməliyyatları gizli şifrəsiz (PIN kod), bu məbləğdən artıq olan əməliyyatları isə müvafiq gizli şifrə (PIN kod) ilə həyata keçirilə biləcəyini qəbul, bəyan və təsdiq edir.
- "Kart sahibi", "Bank" sistemində qeydiyyatdan keçmiş mobil telefonunu mobil ödəmə əməliyyatlarında istifadə edəcəyini, bu xüsusiyyətin sadəcə öz istifadəsində olacağını, mobil ödəmə əməliyyatları olduqda istifadə edəcəyi gizli şifrənin (PIN kodun) gizliliyini və təhlükəsizliyini təmin edəcəyini, başqa hər hansı bir şəxsə heç bir halda istifadə etdirməyəcəyini və ya istifadəsini təmin edən məlumatları olduqda bu şəxslərə qəti şəkildə açıqlamayacağını, bunun açıqlamasından yarana biləcək hər cür zərərin və məsuliyyətin özünə aid olduğunu, mobil ödəmə əməliyyatları olduqda istifadə edəcəyi telefon xəttinin başqa bir "SIM" kartla dəyişdirilməsi və/və ya başqa bir "GSM" operatoruna keçiriləcəyi hallarda "SIM" kartın məhv edilməsi ilə əlaqədar hər cür məsuliyyətin özünə aid olduğunu əvvəlcədən qəbul, bəyan və təsdiq edir.
- "Kart sahibi", mobil ödəniş əməliyyatları olduqda istifadə edəcəyi "SIM" kartın, yaddaş kartının, aparatın və/və ya örtüyün itməsi, oğurlanması və ya digər şəxslərin əlinə keçməsindən şübhələnməsi və ya bu kimi şübhələndirici hallar baş verdiyi təqdirdə, dərhal "Bank"ın Telefon Mərkəzinə (Call Center) məlumat verəcəyini, bu kimi hallarda "Bank"ın "SIM" kart, yaddaş kartı, aparat və s. üzərində olan Bank tətbiqlərinin (imkanlarının) başlayacağını əvvəlcədən qəbul, bəyan və təsdiq edir.

3.13. Debet kart, nömrə və gizli şifrənin istifadəsindən yaranan məsuliyyət

- "Kart sahibi"nin məsuliyyəti, kartın fiziki cəhətdən təhvil (təslim) alınması ilə (andan), fiziki olaraq kartı tələb etməyən və yalnız nömrə və/və ya gizli şifrə (PIN kod) istifadəsi ilə mümkün olan əməliyyatlar baxımından isə, hələ təhvil edilməmiş olsa belə, kart(ın) nömrə və/və ya gizli şifrəsinin (PIN kodun), təhvil alınması, öyrənilməsi və\və ya dəyişdirilməsi ilə (andan) başlayır. Kartın arxasında mövcud olan imza yeri kart təhvil (təslim) alındığı zaman dərhal silinməz bir qələmlə (davamlı

mürəkkəblə) "Kart sahibi" tərəfindən imzalanmalıdır. Kartın arxasında mövcud olan imza yerinin imzalanmamasından yaranacaq hər cür məsuliyyət "Kart sahibi"nə aiddir.

- Kart, kart nömrəsi və gizli şifrənin (PIN kodun) "kart sahibin"dən başqa digər şəxslər tərəfindən istifadə edilməsi qadağandır, bunların hər nə şəkil və qaydada olursa olsun başqaları tərəfindən istifadəsi ilə bağlı yaranacaq hər cür məsuliyyət "kart sahibi"nə aiddir. Buna görə də "kart sahibi", kart, kart nömrəsinin və/və ya gizli şifrəsinin (PIN kodunun) üçüncü şəxslərin əlinə keçməməsi üçün hər zaman və hər çür zəruri tətbirlər görməkdə öhdəçilik götürüb lazım bildiyi hər durumda "Bank"a müraciət edərək yeni gizli şifrə(PIN kod) almalıdır, müvafiq texniki imkanlar olduğu təqdirdə isə özəl gizli şifrələri özünün müəyyən edə biləcəyi yeni gizli şifrələrə dəyişdirməlidir.
- "Kart sahibi", kart hesab(lar)ına bağlı olan bütün kartların, kart nömrə və gizli şifrələrinin (PIN kodun) istifadəsindən yaranan bütün borclara görə məsuliyyət daşıyır. "Kart sahibi" bütün kartdan qanunvericiliyin tələblərinə və müqavilə şərtlərinə müvafiq istifadə etməyi qəbul, bəyan və təsdiq edir.

3.14. Mal/xidmətin qüsurlu çıxması. Kart müəyyən bir müəssisədə/sahibkarda müəyyən bir marka mal/xidmət alışı şərti ilə verilməyib, o cümlədən beynəlxalq kart təşkilatlarının (beynəlxalq ödəniş sistemlərinin) qaydalarına (standartlarına) tabe olduğundan, "Bank", kart ilə alınacaq mal, iş və ya xidmətlərin cinsi, xüsusiyyəti, məzmunu, miqdarı, əvəzi, müddətli (bərabər hissələrlə/annuitet) ödəniş məbləği və sayı, qüsurlu çıxması, ləğvi, qaytarılması və s. məsələlərə görə hər hansı bir məsuliyyət daşımadığı kimi, bu məsələlərdə "kart sahibi" ilə kartı ödəniş vəsitəsi kimi qəbul edən müəssisə/sahibkar arasında ortaya çıxabiləcək mübahisəli məqamlara görə də heç bir şəkildə məsuliyyətli deyil. Bu səbəblərə əsaslanaraq "Bank"a bu müqavilənin şərtlərinə əsasən yaranan borcların ödənilməsi gecikdirilə bilməz. Mədaxil (kredit) sənədlərinin toplanılması, " kart sahibi"nin adı çəkilən mal/xidmət əvəzi (haqqı) üçün daha əvvəl hazırlanan (təşkil edilən) xərc(ləmə) (əməliyyat) sənədlərinə əsasən yaranan borc və öhdəliklərini aradan qaldırmır.

3.15. Kart hesabının Borc (debet) və mədaxil (kredit) qeydləri

- "Kart sahibi", xarici valyutada edəcəyi xərclər (ödənişlər) və nağd pul vəsaitinin alınma/çıxarılma əməliyyatlarında qanunvericiliklə müəyyən edilmiş tələb və limitlərə ciddi əməl (riayət) edəcəyini, əməl etməyəcəyi təqdirdə yaranacaq hər cür məsuliyyətin özünə aid olacağını qəbul, bəyan və təsdiq edir. "Bank", xarici əməliyyatlarla xarici valyuta növündən həyata keçirilən (reallaşdırılan) əməliyyatlarla əlaqədar olaraq, qanunvericiliyin tələbləri əsasında beynəlxalq kart çıxaran/buraxan (emissiya edən) təşkilatların tələb edəcəyi ödənişlər də daxil olmaqla, hər cür borc qeydini, qeyd edilən tarixdə bu kimi əməliyyatlar olduqda "Bankın" ödəniş etdiyi tarixdəki plastik (kredit\debit) kart əməliyyatlar üçün müəyyən etdiyi valyuta satış kursuna (məzənnəsinə) müvafiq və xərcləmə vergisi (qanunvericiliklə nəzərdə tutulduğu təqdirdə) ilə komissiyaları nəzərə alaraq AZN-ə (Azərbaycan Manatına) çevirməyə (konvertasiya etməyə) və kart hesabına borc kimi qeyd etməyə və ya xarici valyuta üzərində tələb hüququna malikdir. "Bank" "Kart sahibinə" əvvəlcədən məlumat verməklə AZN-ə (Azərbaycan Manatına) çevirmə (konvertasiya) şərtlərini müəyyən etmək və dəyişdirmək hüququna malikdir. Bundan əlavə, beynəlxalq kart təşkilatları (qurumları) və sistemləri tərəfindən kartın istifadəsi ilə əlaqədar olaraq "Bank"a bildiriləcək xərc/məsrəf, əlavə ödəniş və komissiyalar da vergi (qanunvericiliklə nəzərdə tutulduğu və ya ona zidd olmadığı təqdirdə), rüsum, xərc və fond (qanunvericiliklə nəzərdə tutulduğu və ya ona zidd olmadığı təqdirdə), kimi ödənişlər ilə birlikdə "Bank" tərəfindən yuxarıda göstərilən qaydada AZN-ə (Azərbaycan Manatı ekvivalentinə) çevrilərək (konvertasiya edilərək) kart hesabına borc olaraq qeyd ediləcək və ya xarici valyuta üzərindən də tələb edilə biləcəkdir. "Kart sahibi", özünə hesab çıxarışı (bildirişi) ilə əvvəlcədən bildirmək şərti ilə bu xərc, əlavə ödəniş və komissiyalarda meydana gələ biləcək dəyişikliklərə də eyni ilə riayət edilməsini qəbul, bəyan və təsdiq edir.

3.16. Debet kartın təhvili (təslimi)

- "Kart sahibi" öz seçiminə əsasən, kartın Bankda təhvili (təslimi) edilməsi ilə yanaşı, "Bank"a bildirdiyi və Bankın sistemində qeydiyyata alınan ünvana poçt vasitəsi ilə (qapalı zərfdə) göndərilə/çatdırıla biləcəyini və debet kartı olan qapalı zərfin itirilməsi/oğurlanması hallarda Bank tərəfindən heç bir məsuliyyət daşımayacağını qəbul, bəyan və təsdiq edir.
- "Kart sahibi" karta aid müvafiq PIN kodun (gizli şifrəni) SMS (kart sahibinin Banka bildirdiyini və Bank sistemində qeydiyyata alınan mobil telefon nömrəsinə), poçt (kart sahibinin Banka bildirdiyini və Bank sistemində qeydiyyata alınan ünvana), Telefon Mərkəzi (Call Center) və s. bank kanalları vasitəsi ilə təqdim ediləcəyini (ala biləcəyini) qəbul, bəyan və təsdiq edir. PİN kod poçt vasitəsi ilə göndərildiyi təqdirdə PİN kodla olan qapalı zərfin itirilməsi/oğurlanması hallarda Bank heç bir məsuliyyət daşımayacağını "Kart sahibi" qəbul, bəyan və təsdiq edir.
- Kart və ona dair müvafiq PIN kod (gizli şifrə) "Kart sahibi"nin "Bank"a bildirdiyi ünvana poçt vasitəsi ilə göndərildikdə (çatdırıldıqda), kart və ona dair müvafiq PIN kod (gizli şifrə) ayrı-ayrı vaxtlarda və ayrı-ayrı qapalı zərflərdə göndəriləcək (çatdırılacaq).

4. Kredit kartı üzrə maddələr\müddəalar

4.1. Predmet

Bir tərəfdən "Bank"(Borcverən) digər tərəfdən "Kart və/və ya əlavə kart sahibi"(Borcalan) "Bank"ın emissiya etdiyi (buraxdığı) kartın (Bank tərəfindən emissiya edilən bütün kredit kartları) və əlavə kartın, bunların nömrə və gizli şifrələrinin

(PIN kod) istifadə edilməsi ilə bağlı şərtlərini və qaydalarını müəyyən etmək məqsədilə aşağıdakı şəkildə razılaşmışlar:
Qeyd: müqavilənin bu hissəsində istifadə olunan anlayışlar aşağıdakı mənaları daşıyır:
"Kart": "Bank" tərəfindən buraxılan (emissiya edilən) və qanunvericiliyin tələbləri daxilində respublika ərazisində/xaricində müxtəlif növ hesablaşma və ödəniş əməliyyatlarının (köçürmə, nağd vəsaitin əldə edilməsi, elektron bankinq (bankçılıq), malların, iş və xidmətlərin ödənilməsi və s.) aparılmasında istifadə edilə bilən bütün kredit kartlarıdır;
"Əlavə kart": "Bank" tərəfindən "Kart sahibi"nin müraciətinə əsasən və "Bank"ın müvafiq qiymətləndiliməsindən (təhlilindən) asılı olaraq uyğun hesab etdiyi təqdirdə buraxılan (emissiya edilən)/verilən, "Kart sahibi"nin hesabına bağlı və müəyyən edilmiş limit daxilində kredit kartla yanaşı əməliyyat qabiliyyətinə və kredit kartının malik olduğu funksiyalara malik olan kartdır;
"Əməliyyat": qanunvericiliyin tələbləri daxilində kart(lar) vasitəsilə malların, iş və xidmətlərin tam və ya qismən ödənilməsi, hesablararası köçürmələrin aparılması, valyuta mübadiləsi və nağd pul vəsaitin alınmasıdır/çıxarılmasıdır (nağd vəsaitin əldə edilməsidir);
"Müəssisə/sahibkar" (bir yerdə və ya ayrı ayrılıqda): kart(lar)ı ödəniş vasitəsi kimi qəbul edən müəssisə, təşkilat və/və ya məntəqələrdir (şəbəkələr);
"Son ödəniş tarixi" (günü): aparılan əməliyyatlar üzrə son ödəniş tarixi(günü) kimi "Bank" tərəfindən müəyyən edilən tarix(gün);
"ATM (Bankomat) aparatları": kart vasitəsilə nağd pul vəsaitinin alınması (çıxarılması) və digər Bank xidmətlərindən istifadə edilməsi üçün nəzərdə tutulmuş proqram-texniki kompleksdir.
"POS-terminal aparatları": kart vasitəsilə malların, iş və xidmətlərin ödənilməsi, habelə nağd pulun alınması (çıxarılması) üçün nəzərdə tutulmuş avadanlıq;
"Xərcləmə (xərc) sənədi": kart(lar) vasitəsi ilə malların, iş və xidmətlər ödənilməsi və s. aparılan əməliyyatların əvəzində nəzərdə tutulmuş hallarda müvafiq qaydada tərtib edilən və kart/əlavə kart sahibinin imzaladığı bir sənəddir (qəbz/faktura və s.).
"Bank kanalları": Bankın filial və şöbələri (struktur bölmələri) xaricində qalan Müştəriyə xidmətlərini çatdırdığı internet, mobil cihazlar, ATM, Telefon Mərkəzi və s. kimi kanallar;
"Worldcard müraciət forması": "Kart\əlavə kart sahibi"nin müvafiq məlumatların "Bank"a təqdim edildiyi və bu Müqavilənin ayrılmaz hissəsi olan ərizə forması. Müraciət Forması Müqaviləyə Əlavə olunur və onun tərkib hissəsini təşkil edir.
4.2. Kartın verilməsi.
- Tərəflərin bu müqaviləni imzalaması "Bank"-ın kredit/kredit kartını vermək (kredit xətti limitini açmaq) vədini ifadə etmir və kart hesabını açmaq öhdəliyini yaratmır. Ancaq "Bank" bu müqavilənin ayrılmaz tərkib hissəsi olan "Kart sahibi"nin müraciət ərizəsində (formasında) təqdim edilən/bildirilən və/və ya özünün aparacağı təhlili (qiymətləndirilməsi) nəticəsində əldə etdiyi məlumatlar əsasında kredit kart verməyi (kredit xətti limiti açmağı) uyğun gördüyü təqdirdə, "Kart sahibin"ə kart hesabı/hesabları açaraq, kart(lar)ı (əlavə kart(lar) da daxil olmaqla) "Kart sahibi"nə təhvil verir. Bu müqavilənin imzalanmasından sonra, gələcəkdə veriləcək bütün kartlara da bu müqavilənin şərtləri eyni ilə tətbiq edilir. Bu müqavilənin qüvvədə olduğu müddət ərzində "Kart sahibi"nin müraciətinə əsasən, "Bank" müvafiq qiymətləndirmə əsasında əlavə kart verə bilər.
- "Kart sahibi", kart hesabı/hesablarına bağlı olan bütün kartların, kart(lar)ın nömrə və gizli şifrələrin (PIN kod) istifadəsindən yaranmış və yarana biləcək bütün borclarına görə məsuliyyət daşıyır.
- "Kart/əlavə kart sahibi", kart(lar)ını və/və ya kart(lar)ın nömrə və gizli şifrələrini (PIN kod) qanunvericiliyin tələblərinə, bu müqavilənin şərtlərinə və bunlara müvafiq "Bank"ın müəyyən etdiyi qaydalara uyğun istifadə edəcəyini qəbul, bəyan və təsdiq edir.
4.3. İstifadə (kredit kartı) limiti
- İstifadə limiti; "Bank"ın kart hesabı/hesablarına, "Kart/əlavə kart sahibi" olduqda tanıdığı, kart və/və ya kart nömrə və gizli şifrələrindən (PIN kod) istifadə ediləcək xərclər, nağd pul vəsaitin əldə edilməsi (alınması/çıxarılması), faiz, ödəniş, komissiya, bunların vergi (qanunla nəzərdə tutulduğu təqdirdə), fond (qanunla nəzərdə tutulduğu təqdirdə) reallaşdırılması daxil olmaqla aşılmaması lazım olan istifadə limitidir. "Kart sahibi"nin müraciəti və zəruri sənədləri təqdim etməsi və "Bank"ın bu müraciəti uyğun hesab etdiyi təqdirdə ona ayrılmış istifadə limiti artırıla bilər. "Kart/əlavə kart sahibi" istifadə limitini aşmamağı (keçməməyini) qəbul edir və öhdəsinə götürür.
- Bununla belə Bank tərəfindən "Kart/əlavə kart sahibi" üçün kart üzrə müəyyən edilmiş istifadə limitinin 10 (on) faizi həcmində limiti aşma (keçmə) imkanı verilir. "Kart/əlavə kart sahibi", istifadə limitinin hər hansı bir şəkildə aşılması (keçməsi) hallarında, aşılan (keçilən) məbləğə həmin gündən başlayaraq, borc (borc balansı) müəyyən edilən limitə düşənə qədər, müəyyən olunan nisbətdə (miqdarda) limit aşma faizini və limit aşma komissiyasını ödəməyi qəbul, bəyan və təsdiq edir. Bu öhdəlik pozulduqda "Bank", kart hesabını/hesablarını bağlayıb müqaviləni birtərəfli qaydada ləğv edərək kart(lar)ın qaytarılmasını tələb edə bilər. "Bank" qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə birdən çox kartları tək bir kart

hesabına bağlaya, eyni hesaba bağlı birdən çox ortaq və ayrı-ayrı istifadə limiti verə bilər.
- "Kart\əlavə kart sahibi" həmçinin qəbul, təsdiq və bəyan edir ki, gündəlik və\və ya nağd əməliyyatlar üzrə məhdudiyyətlər (limitlər və s.) barədə məlumatlar Bank tərəfindən "kart\əlavə kart sahibinə (kart istifadəçilərinə) "Bank"ın rəsmi internet saytı (www.yapikredi.com.az; www.worldcard.com.az) və/və ya filial şəbəkələri (struktur bölmələri) və\və ya digər bank kanalları\üsulları vasitəsi (elektron poçt, SMS və s.) ilə bəyan\elan edilir\çatdırılır (sadalanlan üsulların hər hansı biri vasitəsi ilə bəyan\elan edilə\ çatdırıla bilər).

4.4. Kartın etibarlılıq (istifadə) müddəti

"Kart/əlavə kart sahibi", kart(lar) üzərində ay və il kimi qeyd edilmiş sonuncu istifadə etmə tarixinin müəyyən edildiyini, göstərilən ayın sonuncu gününə qədər qüvvədə olduğunu və bu tarixdən sonra kart(lar)dan istifadə edilməyəcəyini qəbul, bəyan və təsdiq edir. Etibarlıq müddəti bitən kart(lar)ın və/və ya kart nömrə və gizli şifrələrinin (PIN kod) istifadəsindən yarana biləcək hər cür məsuliyyət(i) "Kart/əlavə kart sahibi(nə)" daşıyır (aiddir). "Bank" istifadə müddəti bitən kartları müvafiq qiymətləndirilməsindən (təhlilindən) asılı olaraq yeniləyib yeniləməməkdə sərbəstdir.

4.5. Kartın mülkiyyəti, itirilmə və oğurlanma halları

- Kart(lar) Bankın mülkiyyətində olmaqla "Kart/əlavə kart sahibi" "Bank"ın tələb etdiyi halda kart(lar)ı (əlavə kart(lar) daxil) dərhal "Bank"a qaytarmaqda məsuliyyətlidir. "Bank" (kartın itirilməsi/oğurlanması hallarında) özü və ya ATM aparatları, kredit kart sistem təşkilatları, kredit kartını ödəniş vasitəsi kimi qəbul edən müəssisə/sahibkar vəsitəsi ilə kart(lar)a məhdudiyyət (əl) qoya bilər.
- Kart(lar)ın itirilməsi, oğurlanması, hər hansı bir şəkildə təsir altından çıxması, istifadə edilməyəcək hala düşməsi, kart istifadə edilməsi üçün gizli şifrə (PIN kod) məlumatların itirilməsi və yaxud oğurlanması və ya kartdan istifadə edərək onların iradələri xaricində hər hansı bir əməliyyatın reallaşdığını bildikləri təqdirdə, "Kart/əlavə kart sahibi", dərhal "Bank"a ("Bank"ın Telefon Mərkəzinə), "Bank"ın istənilən filial (şöbələrinə və s.) və ya hesab çıxarışlarında (bildirişlərində) göstərilən telefona bildirmək və ya yazılı qaydada təsdiq etməkdə məsuliyyət daşıyır.

4.6. Kartdan istifadə

- Kart, kredit kartının istifadəsinin məqsədinə uyğun olaraq ödəniş vasitəsi kimi qəbul edilən müəssisələrdə (müəssisə/sahibkar), "Bank"ın filial (şöbə) şəbəkələrində və ATM/POS-terminal aparatlarında, elektron bank əməliyyatlarında, İnternet/Mobil Bankçılıq xidmətində və "Bank"ın və/və ya beynəlxalq kart təşkilatlarının (beynəlxalq ödəniş sistemlərinin) səlahiyyət verdiyi şəbəkə və qurumlarda (müəssisə/təşkilat/sahibkar) malların, iş və/və ya xidmətlərin dəyərinin ödənilməsi əməliyyatlarının aparılmasında və nağd pul vəsaitinin alınmasında/çıxarılmasında (nağd vəsaitin əldə edilməsində) istifadə edilə bilər.
- "Kart/əlavə kart sahibinin", "Bank" tərəfindən etibarlı (nizamlı) tanınan ödəniş/ faktura ödənişləri üzrə (mobil telefon fakturası, hər hansı bir üzvlük haqqının ödənilməsi və s.) təlimatları qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə "Bank"a yazılı və ya şifahi qaydada (Telefon Mərkəzi, filial(şöbə) şəbəkələri və s.) verilməsi halında müvafiq qaydada təsdiq alınmaq şərti ilə, kart hesabında "Bank" tərəfindən borc kimi qeyd ediləcəyini və bu şəkildə "Bank" qarşısında borcun qəti olaraq yaranacağını "Kart/əlavə kart sahibi" bəyan, qəbul və təsdiq edir.
- Kart ilə kartı ödəniş vasitəsi kimi qəbul edilən müəssisələrdə, satış və/və ya xidmət şəbəkələrində həyata keçirilən malların, iş və/və ya xidmətlərin dəyərinin ödənilməsi zamanı müvafiq xərcləmə sənədi, kart ilə "Bank"ın filiallarından (şöbələrindən) nağd pul vəsaitin alınması/çıxarılması (nağd vəsaitin əldə edilməsi) hallarında nağd ödəmə sənədi (qəbzi) təqdim edilir. Bu sənədlər (ATM-dən nağd pul vəsaitin alınması/çıxarılması (nağd vəsaitin əldə edilməsi) halları istisna olmaqla) kart/əlavə kart sahibi tərəfindən imzalanır. "Kart/əlavə kart sahibi" bununla bağlı hazırlanan və ona verilən sənədin nüsxəsini saxlamağı öhdəsinə götürür. "Bank"ın filiallarından (şöbələrindən) nağd pul vəsaitinin alınması/çıxarılması (nağd vəsaitin əldə edilməsi) zamanı nağd ödəmə sənədi yerinə "Bankın" filialı (şöbəsi) tərəfindən verilən müvafiq qəbz də etibarlıdır.
- Qiymətli mədən (metal), daş və əşyaların satın alınması, valyuta alışları əməliyyatları, "Kart/əlavə kart sahibi"nin başqa bir kredit kartının borcunu bağlanması məqsədilə apardığı borc transferləri, şəxs və qurumlara (təşkilatlara) edilən ödənişlər, lotereya və mərc kuponları, daşınan qiymətli alışları, səyahət çekləri (qəbzləri), pul köçürməsi əməliyyatları, kart hesabından başqa kart hesabına və ya digər hesablara köçürmə əməliyyatları nağd vəsaitlərin istifadəsi daxilində olan əməliyyatlar kimi qiymətləndirildiyindən, yuxarıda qeyd edilən əməliyyatlar nağd pul vəsaitinin alınması/çıxarılması (nağd vəsaitin əldə edilməsi) əməliyyatları kimi sayılır (qanunvericilikdə bun(lar)a dair əksinə/ziddinə bir hal nəzərdə tutulmadığı təqdirdə). " "Kart/əlavə kart sahibi" bunları qəbul etdiyini bəyan və təsdiq edir.
- Kart ilə "Bank"ın və ya kartlı sistem təşkilatlarının ATM-lərindən həyata keçiriləcək nağd pul alınma/çıxarılma (nağd vəsaitin əldə edilməsi) əməliyyatları və yaxud qanunvericiliyin tələbləri daxilində olmaq şərti ilə sadəcə kart nömrəsi və/və ya gizli şifrə (PIN kod) göstəricilərinin istifadəsi ilə internet və hər cür səsli, görüntülü və/və ya data (sistem) transferini təmin edən (saxlayan) şəbəkələrlə elektron qaydada həyata keçirilən bank əməliyyatlarında, alqı/satqılarda (alış-verişdə) və kart nömrəsindən istifadə edilərək telefon, faks və s. vasitələrlə həyata keçiriləcək (reallaşdırılacaq) əməliyyatlarda, əməliyyatı göstərən sənədin təşkil olunması və/və ya imzalanması mümkün olmadıqda, borc qəti olaraq, sifarişin verildiyi, görüşmənin

keçirildiyi, kart nömrəsinin çatdırıldığı və ya imza yerinə keçən kod nömrəsi, gizli şifrə (PIN kod) və ya şəxsiyyəti təsdiq edən başqa bir üsulla əməliyyatın həyata keçirildiyi və ya digər bank/ödəmə əməliyyatın Bankda (Bank sistemində) qeydiyyata alındığı andan yaranacaq. "Kart/əlavə kart sahibi", "Bankın" bu əməliyyatlar üzrə xərcləri qanunvericiliyin və kartı ödəniş vəsitəsi kimi qəbul edən müəssisələrin, beynəlxalq kredit kartı sistemlərinin (beynəlxalq ödəniş sistemlərinin) tətbiqi əsasları (standartları) daxilində elektron qaydada (məkanda) edəcəyi birtərəfli bildirişi üzrə ödəməyə və "kart sahibinin" kart hesabına borc kimi qeyd etməyə səlahiyyəti olduğunu qəbul, təsdiq və bəyan edir.

- "Kart sahibi", qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə kartını "Bank"dakı bir və ya birdən çox hesabına bağlaya biləcək və kartı və/və ya gizli şifrəsi (PIN kod) ilə bu hesablarına (ATM-lər vasitəsi/kanalı ilə) çıxış əldə edərək "Bank" tərəfindən təmin ediləcək "Bank" əməliyyatlarını və/və ya bu Müqavilə ilə tənzimlənən İnternet/Mobil Bankçılıq xidmətini həyata keçirə biləcək. Bu halda "kart sahibi", əlavə kart ilə də kart hesabına bağlı hesab məlumatlarına çıxış əldə edərək əməliyyat həyata keçirə biləcəyini, bu əməliyyatlardan özünün birbaşa məsuliyyətli olduğunu əvvəlcədən qəbul, bəyan və təsdiq edir.
- "Bank"ın, qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə karta bağlı stimullaşdırıcı kampaniyalar (bal, bankın müəyyən etdiyi və ya müyyən edəcəyi əlavə xidmətlər və s.) həyata keçirdiyi/təşkil edildiyi təqdirdə, "kart/əlavə kart sahibi", bu kampaniyalardan istifadə etmək hüququna sahib olması və faydalanmaq istədiyi halında, ona hesab çıxarışı (bildiriş), mətbuat, broşur və ya digər mənbələrdən (üsulla) bildiriləcək kampaniya şərtlərinin məcburi xarakter daşıdığını, bu kimi kampaniyaların şərtlərini və müddətlərini müəyyən etməyə, onların şərtlərinə dəyişikliklərin edilməsinə və/və ya tətbiqinə xitam verilməsinə "Bank"ın səlahiyyətli olduğunu, dəyişikliyin Hesab çıxarışı (bildirişi) ,və ya sms və ya e-mail ilə bildirilməsinin kifayət (yetərli) olduğunu və hesab çıxarışında (bildirişində) qeyd edilən son ödəniş tarixindən etibarən dəyişiklikləri qəbul etmiş sayılacağını qəbul, bəyan və təsdiq edir. Kart/əlavə kart sahibi" həmçinin qəbul, bəyan və təsdiq edir ki, karta bağlı "Bank"ın müəyyən etdiyi xüsusiyyətlərə sahib olan müxtəlif əməliyyatlarda (stimullaşdırıcı kampaniyalarda və s.) "Bank"ın müəyyən etdiyi əmsala görə hesablanacaq ballar, onların istifadəsi üzrə başqa müddətlərin müəyyən edildiyi hallar istisna olmaqla, "Kart/əlavə kart sahibi" tərəfindən qazanıldıqdan sonra 3 ay ərzində istifadə edilmədiyi təqdirdə Bank həmin balları qeyd-şərtsiz silmək (həmin balları ləğv etmək) hüququna malikdir.
- "Bank"ın müəyyən etdiyi xüsusiyyətlərə sahib olan əməliyyatlarda (stimullaşdırıcı kampaniyalarda), "Bank"ın müəyyən etdiyi əmsala görə hesablanacaq ballar, yalnız kartın istifadəsinə bağlı olduğundan, bal qarşılığının nağd şəkildə ödənilməsinə istifadə edilmir (edilə bilməz) və/və ya kart borcundan silinməsində Bankın razılığı olmadan istifadə edilmir (edilə bilməz). Ballar "Bank" tərəfindən müəyyən edilərək hesab çıxarışı (bildirişi), mətbuat, broşur, internet vasitəsi ilə "kart/əlavə kart sahibinə" bildiriləcək yalnız kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisələrdə (sahibkarlarda) və "Bank" tərəfindən müəyyən edilərək özünə hesab çıxarışı (bildirişi), mətbuat, broşur, internet vasitəsi ilə bildiriləcək qayda və şərtlərlə istifadə edilə bilər. "Kart/əlavə kart sahibi", müzakirə mövzusu olan balları "Bank"ın razılığı olmadan bu şəxslərə dövr edə bilməz, kart borclarının ödənilməsində gecikməyə düşməsi, hər hansı bir səbəblə kartın fəaliyyətinin dayandırılması (bloklaşdırılması), yenilənməməsi, hər hansı bir səbəblə müqavilə ləğv edildiyi təqdirdə, yığılmış ballardan istifadə etməyəcəyini və bu barədə "Bank"dan hər hansı bir haqq və ya məbləğ tələb etməyəcəyini, müəyyən bir aksiya və/və ya kampaniya daxilində, müəyyən bir kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisələrdən (sahibkarlardan) qazanılmış balların digər bir bu kimi müəssisələrdə istifadəsinə məhdudiyyət qoya biləcəyinə, bal səbətinə rəhbərlik barədə "Bank"ın səlahiyyətli olduğunu, "Kart/əlavə kart sahibinin" istifadə etdiyi kartın kart növünün/proqramının/xüsusiyyətlərinin dəyişdirilməsi hallarında əvvəlki kartın malik olduğu bəzi xüsusiyyətlərinin yeni karta köçürülməyə biləcəyini, hansılarının köçürülüb köçürülməyəcəyi "Bank"ın təşəbbüsünə aid olduğunu qəbul, bəyan və təsdiq edir.
- Kartların bal qazanma səbəbi (məqsədi) ilə gerçək olmayan (məqsəddən kənar) və ya ticarət məqsədi ilə istifadəsi müəyyən (təsbit) edildiyi təqdirdə, "Bank" haqsız əldə edilən balları ləğv etmək hüququna malik olacaq.
- "Bank", karta bağlı müxtəlif çeşitli xidmət, üstünlük, yardım xidmətləri (assistent servisləri), sığorta, kampaniya, ödəniş qaydası və s. xidmətləri qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə bir araya gətirərək meydana gətirəcəyi xidmət paketlərini kartda istifadə edilən xüsusiyyətlər halına gətirə bilər. "Kart/əlavə kart sahibi", bu xüsusiyyətlərdən faydalanmaq istədiyi və hər bir xüsusiyyətlər olduqda "Bank" tərəfindən müəyyən edilən meyarlara sahib olduğu təqdirdə, özünə hesab çıxarışı (bildirişi), mətbuat, broşur və/və ya digər mənbələrdən bildiriləcək xüsusi şərtlərin və məlumatların (məzmunların) məcburi xarakter daşıdığını, müzakirə mövzusu olan xüsusiyyətlərin tətbiqi şərtlərini və müddətini müəyyən etmədə, bunları dəyişdirməyə, yenilərini əlavə etməyə və/və ya tətbiqinə xitam verməyə "Bank"ın səlahiyyətli olduğunu, dəyişikliyin hesab çıxarışı (bildirişi) ilə özünə bildirilməsinin yetərli (kifayət) olduğunu və hesab çıxarışında (bildirişdə) qeyd edilən son ödəniş tarixindən etibarən dəyişiklikləri qəbul etmiş sayılacağını qəbul, bəyan və təsdiq edir.
- "Kart/əlavə kart sahibi", kartdan istifadə edilməsinə başlamamışdan əvvəl, o cümlədən təhlükəsizlik şərtlərini gözləmək məqsədi ilə, kartın aktivləşdirilməsi üçün "Bank"ın Telefon Mərkəzinə (Call Center) zəng vuraraq kartın aktivləşdirilməsinə dair müraciət etməlidir (qeyd: bununla belə "Kart/əlavə kart sahibi" qəbul, təsdiq və bəyan edir ki, kartın aktivləşdirilməsi göstərilən şərtlər gözlənilmək şərti ilə həmçinin digər bank kannaları vəsitəsi ilə də həyata keçirilə bilər (Bankın struktur

bölmələri (filiallarında, şöbələrində və s.), SMS, ATM və s.). Kartı yalnız bu prosedurdan sonra (yəni zəruri məlumatlar "kart/əlavə kart sahibi" tərəfindən təsdiq edildikdən sonra) aktivləşdirilərək əməliyyatlarda istifadə etmək mümkün olacaq. Bank uyğun bildiyi təqdirdə kartı avtomatik şəkildə aktivləşdirilməsi hüququnu özündə saxlayır.

4.7. Kartın təmassız qaydada əməliyyat apara bilməsi (təmassız xüsusiyyətləri olan kart)

- Təmassız xüsusiyyəti olan kart - standart kartın malik olduğu xüsusiyyətləri ilə yanaşı, Pos-terminal aparatlarında təmassız qaydada oxudulmaq şərti ilə, kart daxilindəki məlumatları POS terminal aparatlarına ötürərək (transfer edərək), qanunvericiliyin tələbləri əsasında və buna müvafiq "Bank" tərəfindən müəyyənləşdirilmiş qaydalar çərçivəsində gizli şifrə (PIN kod) istifadə edilməsinə ehtiyac olmadan əməliyyat həyata keçirmək xüsusiyyətlərinə malik olan kartdır. Bu əməliyyatlarda xərcləmə sənədinin müvafiq qaydada təşkil edilməsi və "kart/əlavə kart sahibi" tərəfindən imzalanması zəruri deyil.
- "Kart/əlavə kart sahibi", kart/əlavə kartın təmassız qaydada da əməliyyat apara bilməsi üçün, "Bank"ın kredit kartı limiti daxilində sözügedən kart/əlavə karta təmassız əməliyyat limitinin müəyyən edəcəyini, hər bir kart/əlavə karta təyin olunan təmassız əməliyyat limitinin kredit kartı limitindən düşüləcəyini (çıxılacağını), hər bir kart/əlavə karta müəyyən edilən limitini artırmaq, azaltmaq və ya ləğv etmək səlahiyyətinə malik olduğunu, bunların özünə hesab çıxarışı (bildirişi) ilə (və ya qanunvericiliyin tələblərinə zidd olmayan "Bank"ın uyğun hesab etdiyi digər üsullarla) əvvəlcədən bildiriləcəyini, bu xüsusiyyətləri ləğv etdirmədikləri müddətədək yeni standart təmassız əməliyyat limitinin kart/əlavə kart üçün etibarlı olacağını, kart/əlavə kart ilə həyata keçirəcəkləri gizli şifrə (PIN kod) istifadəsi tələb edilən hər təmaslı əməliyyatdan sonra təmassız əməliyyat limitinin cəmi istifadə edilə bilən limitdən köçürülərək (devr edilərək) avtomatik olaraq kart/əlavə karta müəyyən edilmiş təmassız əməliyyat limitinə yüksəldiləcəyini qəbul, bəyan və təsdiq edir.
- "Kart/əlavə kart sahibi", təmassız xüsusiyyətlərinə malik olan kart/əlavə kartın itməsi və ya oğurlanması səbəbindən əldən çıxdığı təqdirdə, kart/əlavə karta müəyyən edilmiş təmassız əməliyyat limitinin "Bank" tərəfindən ləğv edilməsinin mümkün olmadığını, bu səbəbə görə bu limit(lər)in bu şəxslər tərəfindən istifadə edilə biləcəyini, bu kimi əməliyyatlarla bağlı hər cür məsuliyyətin özünə aid olduğunu qəbul, bəyan və təsdiq edir.

4.8. Kartın mobil ödəniş əməliyyatlarında istifadəsi

- Kartın mobil ödəniş əməliyyatlarında istifadəsi qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə kart sahibinin Bankın sistemində qeydiyyata alınan mobil telefonunu xüsusi POS terminal aparatlarına təmassız olaraq oxudub əməliyyat aparılmasını təmin edir. Kartın mobil ödəniş əməliyyatlarında istifadə edilə bilməsi üçün kart sahibi, "Bank"ın həmin dövrdə dəstəklədiyi texnologiyaya cavab verən, mobil telefonu üçün zəruri olan texnoloji imkanlara (funksiyalara) malik olmalıdır.
- "Kart sahibi", mobil telefonunun təmassız əməliyyatlarda istifadə edilməsi üçün, karta bağlı bir əlavə kart buraxılacağını, buraxılan bu əlavə kartı ilə "Bank" tərəfindən daha sonra müəyyən ediləcək məbləğə qədər olan əməliyyatları gizli şifrəsiz (PIN kod), bu məbləğdən artıq olan əməliyyatları isə müvafiq gizli şifrə (PIN kod) ilə həyata keçirilə biləcəyini qəbul, bəyan və təsdiq edir.
- "Kart sahibi", "Bank" sistemində qeydiyyatdan keçmiş mobil telefonunu mobil ödəmə əməliyyatlarında istifadə edəcəyini, bu xüsusiyyətin sadəcə öz istifadəsində olacağını, mobil ödəmə əməliyyatları olduqda istifadə edəcəyi gizli şifrənin (PIN kodun) gizliliyini və təhlükəsizliyini təmin edəcəyini, başqa hər hansı bir şəxsə heç bir halda istifadə etdirməyəcəyini və ya istifadəsini təmin edən məlumatları olduqda bu şəxslərə qəti şəkildə açıqlamayacağını, bunun açıqlamasından yarana biləcək hər cür zərərin və məsuliyyətin özünə aid olduğunu, mobil ödəmə əməliyyatları olduqda istifadə edəcəyi telefon xəttinin başqa bir "SIM" kartla dəyişdirilməsi və/və ya başqa bir "GSM" operatoruna keçiriləcəyi hallarda "SIM" kartın məhv edilməsi ilə əlaqədar hər cür məsuliyyətin özünə aid olduğunu əvvəlcədən qəbul, bəyan və təsdiq edir.
- "Kart sahibi", mobil ödəniş əməliyyatları olduqda istifadə edəcəyi "SIM" kartın, yaddaş kartının, aparatın və/və ya örtüyün itməsi, oğurlanması və ya digər şəxslərin əlinə keçməsindən şübhələnməsi və ya bu kimi şübhələndirici hallar baş verdiyi təqdirdə, dərhal "Bank"ın Telefon Mərkəzinə (Call Center) məlumat verəcəyini, bu kimi hallarda "Bank"ın "SIM" kart, yaddaş kartı, aparat və s. üzərində olan Bank tətbiqlərinin (imkanlarının) başlayacağını əvvəlcədən qəbul, bəyan və təsdiq edir.

4.9. Kartın (kredit və\və ya debet) MasterCard Moneysend və\və ya Visa MoneyTransfer əməliyyatlarında istifadəsi

Kart, qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə xaricdəki MasterCard kredit (və\və ya debet) və\və ya Visa kredit (və\və ya debet) kartından Azərbaycandakı MasterCard kredit (və\və ya debet) və\və ya Visa kredit (və\və ya debet) kartına pul köçürmə əməliyyatlarında da istifadə edilə biləcəkdir. Bu əməliyyatın həyata keçirilməsi üçün ölkə xaricindən "Bank"a MasterCard kredit (və\və ya debet) və Visa kredit (və\və ya debet) kartının nömrəsi verilməli və göndərilmək istənilən məbləğ bildirilməlidir. Moneysend və\və ya MoneyTransfer əməliyyatı həyata keçirilərkən sistem "onlayn" (real vaxt) rejimində alıcının kredit (və\və ya debet) kartının açıq olub olmamasına nəzarət edəcək, kart pul köçürülməsi olduqda uyğun gəlirsə pul köçürməsi həyata keçiriləcək, istifadəyə bağlıdırsa "onlayn" əməliyyatına icazə verilməyəcək. "Onlayn" şəklində əməliyyat təsdiq edildikdən sonra, pulun karta keçə bilməsi mübadilə yolu ilə həyata keçiriləcək. Mübadilə faylı eyni gün ərzində gələ (daxil ola) biləcəyi kimi, bir-iki gün ərzində də gələ (daxil ola) biləcəyindən, məbləğin kredit (və\və ya debet) kartına keçmə zamanı mübadilə faylının gəlişinə (daxil olmasına) bağlı olacaq və əməliyyatın həyata keçirilməsi üçün göndərmə tarixindəki

yox, mübadilə tarixində olan kartın vəziyyəti (durumu) nəzərə alınacaq, "onlayn" əməliyyatlarla mübadilədən gələn əməliyyatlar üst-üstə düşdüyü (uyğunlaşdığı) təqdirdə kredit (və\və ya debet) kartına pul köçürülməsi (transferi) həyata keçirilə biləcək. Ölkə xaricindən pul xarici pul vahidi (valyuta) ilə göndərildikdə, göndərilən məbləğ "Bank"ın məzənnə (satış) kursuna müvafiq Azərbaycan Manatı (AZN) ekvivalentində kredit (və\və ya debet) kart hesabına alınacaq məbləğ qeyd ediləcəkdir. Birdəfəlik göndəriş əməliyyatlarında, qanunvericiliyin tələblərinə əsasən "Bank" tərəfindən müəyyənləşdirilən limitdən (məbləğdən) artıq olmayan əməliyyatlar həyata keçirilə biləcək, bu məbləğdən artıq olan əməliyyatlar isə icra olduqda qəbul edilməyəcəkdir. "Bank", yuxarıdakıları nəzərə alaraq qanunvericiliyin tələblərinə zidd olmamaq şərti ilə bu kimi üst limiti dəyişdirmək hüququna malikdir. "Kart sahibinin" kredit (və\və ya debet) kartı hesabı üzrə əməliyyatların açıqlanması olaraq Moneysend və\və ya MoneyTransfer ifadəsi və göndərənin adı görünəcək (əks ediləcək). "Kart sahibinin" kredit (və\və ya debet) kartına Moneysend və\və ya MoneyTransfer əməliyyatı ödəmə əməliyyatı kimi əks ediləcək, yəni əvvəlcə kredit (və\və ya debet) kartının hesab çıxarışına (bildirişinə) əks edilmiş olan borc məbləği geri qaytarılacaq, balansında məbləğ qalarsa, bu məbləğ kart sahibinə ödənilə biləcək və kart sahibi bu məbləği, kart (hesab) müsbət balansda olmadığı müddətdə nağd pul vəsaitinin alınması/çıxarılması komisyonunu ödəyərək çıxara biləcək.

4.10. Kart, nömrə və gizli şifrənin istifadəsindən yaranan məsuliyyət

- "Kart/əlavə kart sahibi"nin məsuliyyəti, kartın fiziki cəhətdən təhvil (təslim) alınması ilə (andan), fiziki olaraq kartı tələb etməyən və yalnız nömrə və/və ya gizli şifrə (PIN kod) istifadəsi ilə mümkün olan əməliyyatlar baxımından isə, hələ təhvil edilməmiş olsa belə, kart(ın) nömrə və/və ya gizli şifrəsinin (PIN kodun) , təhvil alınması, öyrənilməsi və\və ya dəyişdirilməsi ilə (andan) başlayır. Əlavə kartın təhvili (təslimi) də bu müddəaların təhvil (təslim) şərtlərinə tabedir. Kartın arxasında mövcud olan imza yeri kart təhvil (təslim) alındığı zaman dərhal silinməz bir qələmlə (davamlı mürəkkəblə) "Kart/əlavə kart sahibi" tərəfindən imzalanmalıdır. Kartın arxasında mövcud olan imza yerinin imzalanmamasından yaranacaq hər cür məsuliyyət "Kart/əlavə kart sahibi"nə aiddir.
- Kart, kart nömrəsi və gizli şifrənin (PIN kodun) "Kart/əlavə kart sahibin"dən başqa digər şəxslər tərəfindən istifadə edilməsi qadağandır, bunların hər nə şəkil və qaydada olursa olsun başqaları tərəfindən istifadəsi ilə bağlı yaranacaq hər cür məsuliyyət "Kart/əlavə kart sahibi"nə aiddir. Buna görə də "Kart/əlavə kart sahibi", kart, kart nömrəsinin və/və ya gizli şifrəsinin (PIN kodunun) üçüncü şəxslərin əlinə keçməməsi üçün hər zaman və hər çür zəruri tətbirlər görməkdə öhdəçilik götürüb lazım bildiyi hər durumda "Bank"a müraciət edərək yeni gizli şifrə(PIN kod) almalıdır, müvafiq texniki imkanlar olduğu təqdirdə isə özəl gizli şifrələri özünün müəyyən edə biləcəyi yeni gizli şifrələrə dəyişdirməlidir.
- Kartı, kart nömrəsi və ya gizli şifrənin (PIN kodun) "kart/əlavə kart sahibi"nin sahib olduğu iş yerlərində və ya üçüncü şəxslərə aid olsa belə eyni iş yerində davamlı şəklində ticarət məqsədilə istifadə edilməsi də qadağandır, kartın bu şəkildə istifadəsi ilə bağlı yaranacaq hər cür məsuliyyət "Kart/əlavə kart sahibi"nə aiddir. Kartın bu şəkildə və məqsədlə istifadə edilməsi müəyyən edildiyi təqdirdə "Bank" kartı ləğv etmək (fəaliyyətini dayandırmaq) hüququna malikdir. "Kart/əlavə kart sahibi" ölüm halından sonra belə kart, kart nömrəsi və ya gizli şifrənin (PIN kod) istifadə edilməsi ilə həyata keçirilən əməliyyatlarla bağlı yaranan borcların kart hesabına borc kimi qeyd edilməsinə əvvəlcədən razılıq verdiyini bəyan və təsdiq edir.
- "Kart sahibi", kart hesab(lar)ına bağlı olan bütün kartların (əlavə kart daxil), kart nömrə və gizli şifrələrinin (PIN kodun) istifadəsindən yaranan bütün borclara görə məsuliyyət daşıyır. "Kart sahibi" bütün kart(lar)dan qanunvericiliyin tələblərinə və müqavilə şərtlərinə müvafiq istifadə etməyi qəbul, bəyan və təsdiq edir.

4.11. Mal/xidmətin qüsurlu çıxması

Kart müəyyən bir müəssisədə/sahibkarda müəyyən bir marka mal/xidmət alışı şərti ilə verilməyib, o cümlədən beynəlxalq kart təşkilatlarının (beynəlxalq ödəniş sistemlərinin) qaydalarına (standartlarına) tabe olduğundan, "Bank", kart ilə alınacaq mal, iş və ya xidmətlərin cinsi, xüsusiyyəti, məzmunu, miqdarı, əvəzi, müddətli (bərabər hissələrlə/annuitet) ödəniş məbləği və sayı, qüsurlu çıxması, ləğvi, qaytarılması və s. məsələlərə görə hər hansı bir məsuliyyət daşımadığı kimi, bu məsələlərdə "Kart/əlavə kart sahibi" ilə kartı ödəniş vəsitəsi kimi qəbul edən müəssisə/sahibkar arasında ortaya çıxabiləcək mübahisəli məqamlara görə də heç bir şəkildə məsuliyyətli deyil. Bu səbəblərə əsaslanaraq "Bank"a bu müqavilənin şərtlərinə əsasən yaranan borcların ödənilməsi gecikdirilə bilməz. Mədaxil (kredit) sənədlərinin toplanılması, "Kart/əlavə kart sahibi"nin adı çəkilən mal/xidmət əvəzi (haqqı) üçün daha əvvəl hazırlanan (təşkil edilən) xərc(ləmə) (əməliyyat) sənədlərinə əsasən yaranan borc və öhdəliklərini aradan qaldırmır.

4.12. Kart hesabının Borc (debet) və mədaxil (kredit) qeydləri

- "Kart/əlavə kart sahibi", kart, kart nömrəsi və/və ya gizli şifrə (PIN kod) ilə həyata keçirilən bütün əməliyyatların məbləği qədər "Bank" qarşısında borclandıqlarını və borcu təsdiq etdiyini, bu məbləğlərin faiz, komissiya, ödəniş, vergi (qanunvericiliklə nəzərdə tutulduğu təqdirdə) ilə birlikdə kart hesabına borc kimi qeyd edilməsini, həyata keçirəcəyi ödənişlərin də eyni hesaba mədaxil qeydini qəbul, bəyan və təsdiq edir.
- "Kart/əlavə kart sahibi", xarici valyutada edəcəyi xərclər (ödənişlər) və nağd pul vəsaitinin alınma/çıxarılma əməliyyatlarında qanunvericiliklə müəyyən edilmiş tələb və limitlərə ciddi əməl (riayət) edəcəyini, əməl etməyəcəyi təqdirdə yaranacaq hər cür

məsuliyyətin özünə aid olacağını qəbul, bəyan və təsdiq edir. "Bank", xarici əməliyyatlarla xarici valyuta növündən həyata keçirilən (reallaşdırılan) əməliyyatlarla əlaqədar olaraq, qanunvericiliyin tələbləri əsasında beynəlxalq kart çıxaran/buraxan (emissiya edən) təşkilatların tələb edəcəyi ödənişlər də daxil olmaqla, hər cür borc qeydini, qeyd edilən tarixdə bu kimi əməliyyatlar olduqda "Bankın" ödəniş etdiyi tarixdəki plastik (kredit\debit) kart əməliyyatlar üçün müəyyən etdiyi valyuta satış kursuna (məzənnəsinə) müvafiq və xərcləmə vergisi (qanunvericiliklə nəzərdə tutulduğu təqdirdə) ilə komissiyaları nəzərə alaraq AZN-ə (Azərbaycan Manatına) çevirməyə (konvertasiya etməyə) və kart hesabına borc kimi qeyd etməyə və ya xarici valyuta üzərində tələb hüququna malikdir. "Bank" "Kart sahibinə" əvvəlcədən məlumat verməklə AZN-ə (Azərbaycan Manatına) çevirmə (konvertasiya) şərtlərini müəyyən etmək və dəyişdirmək hüququna malikdir. Bundan əlavə, beynəlxalq kart təşkilatları (qurumları) və sistemləri tərəfindən kartın istifadəsi ilə əlaqədar olaraq "Bank"a bildiriləcək xərc/məsrəf, əlavə ödəniş və komissiyalar da vergi (qanunvericiliklə nəzərdə tutulduğu və ya ona zidd olmadığı təqdirdə), rüsum, xərc və fond (qanunvericiliklə nəzərdə tutulduğu və ya ona zidd olmadığı təqdirdə), kimi ödənişlər ilə birlikdə "Bank" tərəfindən yuxarıda göstərilən qaydada AZN-ə (Azərbaycan Manatı ekvivalentinə) çevrilərək (konvertasiya edilərək) kart hesabına borc olaraq qeyd ediləcək və ya xarici valyuta üzərindən də tələb edilə biləcəkdir. "Kart/əlavə kart sahibi", özünə hesab çıxarışı (bildirişi) ilə əvvəlcədən bildirmək şərti ilə bu xərc, əlavə ödəniş və komissiyalarda meydana gələ biləcək dəyişikliklərə də eyni ilə riayət edilməsini qəbul, bəyan və təsdiq edir.

- "Kart/əlavə kart sahibi", hesab çıxarışında (bildirişində) göstərilən son ödəniş tarixində müəyyən edilən minimum məbləği "Bank"a ödəmədiyi təqdirdə "Bank"ın, sözügedən minimum məbləği, "Kart/əlavə kart sahibi"nin "Bank"dakı hesab(lar)ına borc olaraq qeyd edərək geri qaytara biləcəyi kimi, "Bank"dakı hesablarından silmək (geri qaytarmaq) hüququna (səlahiyyətinə) malik olduğunu qəbul, bəyan və təsdiq edir.
- "Kart/əlavə kart sahibi"nin borcu xarici valyuta ilə aparılan əməliyyatlarla bağlı olduqda və "Bank" bu müqavilədən yaranan (irəli gələn) həmin borcların qaytarılmamasına görə "Kart/əlavə kart sahibi"nə qarşı məhkəmədə iddia qaldırmaq məcburiyyətində qalarsa, iddiada borc məbləğləri həmin günə "Bank"dakı satış kursuna (məzənnəsinə) müvafiq Azərbaycan Manatı (AZN) ekvivalentində əks ediləcək. "Kart/əlavə kart sahibi", bunları qəbul etdiyini bəyan, qəbul və təsdiq edir.

4.13. Hesab çıxarışının (bildirişin) hazırlanması (təşkil edilməsi)

- "Bank", kart hesablarının aidiyyəti dövrə aid bütün borc (debet) və mədaxil (kredit) qeydlərinin siyahısını təsdiq edən və bir sonrakı dövrə aid hesab faktura tarixini və son ödəniş tarixini göstərən hesab çıxarışını (bildirişini) müştərinin seçiminə görə "Kart sahibi"nə təqdim edir və/və ya poçtla göndərilməsini istəyən (tələb edən) "Kart sahibi"nin ünvanına göndərir və/və ya "Kart sahibi"nin tələbi ilə Bank sistemində qeydiyyata alınan mobil telefon nömrəsinə SMS vasitəsi ilə (SMS ilə yalnız qısa məlumat) göndərir və bunun üçün də müvafiq ödəniş (komissiya haqqını) tələb edə bilər.
- "Kart sahibi", "Bank"a verəcəyi (təqdim edəcəyi) məlumata əsasən hesab çıxarışını (bildirişi) poçtla yox, qanunvericiliyə zidd olmayan digər üsulla göndərilməsini istəmişsə (tələb etmişsə) hesab çıxarışı (bildirişi), "Bank" bunu uyğun hesab etdiyi təqdirdə, onun seçdiyi üsulla göndərilə bilər. "Kart sahibi", yuxarıdakılar nəzərə alınmaqla seçdiyi hesab çıxarışının (bildirişin) göndərilmə üsulunu (qaydasını), "Bank"a yazılı qaydada müraciət etmək və ya Telefon Mərkəzi (Call Center) və\və ya bank tərəfindən müəyyən edilmiş digər bank kannaları vasitəsi ilə "Bank"dan istəmək şərti ilə dəyişdirə bilər.
- Hesab çıxarışının (bildirişinin) göndərmə periodları (dövrləri) "Kart sahibi"nin istəyinə əsasən və Bankın müəyyən etdiyi üsullara uyğun olaraq dəyişdirilə bilər. Həmin dəyişiklik kart sahibinə hesab çıxarışı (bildirişi) ilə təsdiq edilir (bildirilir).
- "Kart/əlavə kart sahibi", kart hesabları üzrə mövcud olan borcunu(larını), "Bank"ın təqdim etdiyi imkanlardan (hesab çıxarışı, telefon, ATM və s.) istifadə etməklə öyrənmək imkanına da malikdir. "Kart sahibi"nə göndərilən bir əvvəlki dövrə aid hesab çıxarışında (bildirişində) müəyyən edilən dövrü hesab faktura tarixi və son ödəniş tarixi qeyd edilmiş (bildirilmiş) olduğundan, hesab çıxarışının (bildirişin) özünə çatmamış olduğunu iddia edərək ödəmə etmədən "Kart sahibi" gecikməyə düşmədiklərini iddia edə bilməz.
- Kartla aparılan əməliyyatlara, son ödəniş tarixindən etibarən 10 (on) gün ərzində "Bank"a müraciət edərək "Kart/əlavə kart sahibi" etiraz edə biləcəyindən (etiraz hüququna malik olduğundan), "Kart sahibi" edəcəyi müraciətdə hesab çıxarışının (bildirişinin) hansı hissələrinə etiraz etdiyinin səbəbini bildirməlidir. Həmin müddət ərzində etiraz edilməyən hesab çıxarışı (bildirişi) qətiləşir (qəti xarakter daşıyır). Kartla aparılan əməliyyatlara "Kart/əlvə kart sahibi" tərəfindən etiraz edildiyi təqdirdə, etirazlarla (borcla, əsassız silinmələrlə və s.) bağlı müraciətlərə "Bank"a müraciət daxil olan tarixdən etibarən 15 (on beş) gün ərzində baxılacaq.

4.14. Müddətli (bərabər hissələrlə/annuitet) ödənişlə satışlara dair xüsusi müddəalar

4.14.1. "Kart/əlavə kart sahibinin" istifadə etdiyi kartlardan hər hansı biri ilə, müddətli (bərabər hissələrlə/annuitet) ödənişli satış olduqda səlahiyyət verilən müəssisələrdə (sahibkarlarda) müddətli (bərabər hissələrlə/annuitet) ödənişli alqı-satqı (alış-veriş) və ya Bankın ATM və ya filial (şöbə) şəbəkələrindən müddətli (bərabər hissələrlə/annuitet) ödənişli nağd (nağd vəsiatin alınması/çıxarılması) avans əməliyyatı həyata keçirilildiyi təqdirdə, "kart sahibi", kart ilə həyata keçirilən və müddətli (bərabər hissələrlə/annuitet) ödənişli satış və nağd vəsaitin alınma/çıxarılma əməliyyatlardan irəli gələn ödənişlərdən, adı çəkilən ödənişlər (borclar) tam geri ödənilənə qədər (kart hər hansı bir səbəbə görə ləğv edilmiş və/və ya kartın etibarlıq müddəti

keçmiş olsa belə) məsuliyyətlidir. "Kart/əlavə kart sahibi", müddətli (bərabər hissələrlə/annuitet) ödənişlə alqı-satqı (alış-veriş) etdiyi kartı ödəniş vasitəsi kimi qəbul edən yerlərdə fərqli məhsullar olduqda fərqli müddət və qiymət tətbiq oluna biləcəyini əvvəlcədən qəbul, bəyan və təsdiq edir.

4.14.2. "Kart sahibi" tərəfindən həyata keçirilən xərc(ləmə) ilə bağlı əməliyyatlarda əsas tarix, alqı/satqının aparıldığı və müddətlərə/bərabər hissələrə bölündüyü günün tarixi kimi olub bu tarix, xərcləmə əməliyyatı ilə bağlı alqı/satqı (alış-veriş) sənədinin sürətində qeyd edilir. "Bank" etibarlılıq müddəti bitən və yenilənmədən kart(lar)la əlaqədar müddətli ödənişli olan borclar haqqında kart sahibinə hesab çıxarışını (bildirişini) göndərməyə davam edir. "Kart sahibi", borclarını (kreditlərini) vaxtında ödəmədiyi təqdirdə, "Bank" "Kart sahibi"nin əleyhinə qanunvericilikdə nəzərdə tutulmuş zəruri tədbirləri həyata keçirməyə başlaya bilər (bütün borcun ödənilməsi zəruri hala gəlir) və "Kart sahibin"ə qarşı borc tam başlanana qədər müvafiq gecikdirilmə faizi tətbiq edilir. "Kart sahibi" bunları qəbul etdiyini bəyan və təsdiq edir.

4.15. Faiz, ödəniş, komissiya və s.

- "Kart sahibi" kreditləşdirməni seçməyib bütün borcunu hesab çıxarışında (bildirişində) müəyyən edilən son ödəniş tarixinə qədər tam olaraq ödəyə bilər. Ancaq kart hesabının mədaxil (kredit) balanslarına (müsbət balansa) çevrilən hallar istisna olmaqla, dövr borcundan çox həyata keçirilən ödənişlər "Kart sahibin"ə bunların qaytarılmasını tələb etmək haqqını yaratmır.
- "Kart sahibi" son ödəniş tarixinə qədər bütün borcunu ödəməyərək kreditləşdirməni seçdiyi təqdirdə, hesab çıxarışında (bildirişində) qeyd ediləcək (müəyyən ediləcək) minimum məbləği son ödəniş tarixinə qədər ödəməyə görə məsuliyyət daşıyır. Minimum məbləğ hesab çıxarışının (bildirişin) son ödəniş tarixində ödənilməsi məcburi hissəsi (qismi) kimi olaraq müəyyən edilir. Minimum ödənilməli olan məbləğlər ilə bağlı məlumat "kart sahibinə" göndərilən və/və ya təqdim edilən hesab çıxarışında (bildirişdə) əks olunur.
- "Kart/əlavə kart sahibi" hesab çıxarışında (bildirişində) qeyd ediləcək dövr borcuna uyğun minimum məbləği və ya artıq ödəniş etdiyi təqdirdə, dövr borcuna hesab faktura tarixindən etibarən günlük, dövr borcu ərzində nağd pul vəsaitinin alınması/çıxarılması və ya nağd istifadə əhatəsində olan əməliyyatların həyata keçirilməsi (aparılması) hallarında əməliyyat tarixindən etibarən müvafiq faiz tətbiqini qəbul, bəyan və təsdiq edir.
- Hesab çıxarışında (bildirişində) müəyyən olunacaq minimum məbləğ son ödəmə tarixinə qədər ödənilmədiyi təqdirdə müvafiq gecikdirilmə faizini ödəyəcəyini və əks təqdirdə "Bank"ın xəbərdarlığı ilə bütün borcun ödənilməsinin zəruri hala gələcəyini "Kart/əlavə kart sahibi" qəbul, bəyan və təsdiq edir. Bu kimi hallarda "Bank" müqaviləni dərhal ləğv edərək kart hesablarını bağlaya və kartın qaytarılmasını tələb edə bilər. "Kart/əlavə kart sahibi"borca etiraz etməsi onu borcu ödəmək öhdəliklərindən azad etmir.
-"Kart\əlavə kart sahibi" əvvəlcədən qəbul, təsdiq və bəyan edir ki, kart ilə "card to card" (kartdan digər karta(lara) və\və ya hesaba(la) köçürmələr və s.)) əməliyyatları üçün və\və ya kartla müxtəlif internet resursları (saytları) uzərindən və\və ya kanallar vasitəsilə kart ilə aparılan kredit/kredit kart/cari hesab/debit kart təyinatlı əməliyyatları (ödənişləri) üzrə müvafiq komisiya haqqı tətbiq edilir (həmin əməliyyatlara görə "Bank"ın cari tarifləri və şərtləri tətbiq edilir) ki, "Kart\əlavə kart sahibi" buna müvafiq komisiya haqqlarını ödəyir. "Kart\əlavə kart sahibi" həmçinin təsdiq edir ki, bununla bağlı məlumatlar Bank tərəfindən "kart\əlavə kart sahibinə" (kart istifadəçilərinə) Bankın rəsmi internet saytı (linki) (https://www.worldcard.com.az/worldu-taniyin/worldu-kesfet/faiz-ve-kart-ucretleri.aspx) vasitəsi ilə bəyan\elan edilir (çatdırılır) və həmin komisiya haqqlarınıda "Kart\əlavə kart sahibi" qəbul edir.

"Kart/əlavə kart sahibi", "Bank"ın yuxarıda tətbiq edilən müvafiq faiz və komissiyaların (xidmət haqqlarının) nisbət, miqdar və minimum məbləğlərinin müəyyən edilməsinə, əvvəlcədən məlumat verməklə bunları dəyişdirilməsinə, yeni faiz və komissiyaların müəyyən etməsinə səlahiyyətli olduğunu, ediləcək dəyişikliklərin 30 (otuz) təqvim günü əvvəlcədən bildirilməsinin kifayət (yetərli) olacağını qəbul, bəyan və təsdiq edir. "Kart/əlavə kart sahibi" həmin dəyişikliklərlə razı olmadığı təqdirdə 110 manatdan (yüz on) çox məbləğdə borclar üçün 3 (üç) ay əvvəlcədən, daha az məbləğdə borclar üçün isə 1 (bir) ay əvvəlcədən yazılı şəkildə etiraz etməklə (etirazını bildirməklə) və kartın (kredit xəttinin) istifadəsi ilə əlaqədar yaranmış bütün borclarını ödəməklə müqaviləyə xitam vermək hüququna malikdir. "Bank" qanunvericiliyin tələblərinə müvafiq qaydada kart hesablarına ediləcək ödənişlərin "Kart/əlavə kart sahibi" nin hansı borc və/və ya öhdəliyinə şamil etmək hüququna malikdir.

"Kart/əlavə kart sahibi" bu müqavilə üzrə borc faizlərinin dərəcəsi dəyişdikdə ləğvetmə haqqında 3 (üç) aylıq xəbərdarlıq müddətini gözləməklə istənilən vaxt bu müqaviləni ləğv etməkdə xüsusi hüquqa malikdir. Əgər "Kart/əlavə kart sahibi" ləğvetmə haqqında xəbərdalıq müddətinin qurtardığı günün sonunadək "Banka" borcu ödəməzsə, "Kart/əlavə kart sahibi" tərəfindən ləğvetmə natamam sayılır.

4.16. Kartın/əlavə kartın təhvili (təslimi)

- "Kart/əlavə kart sahibi" öz seçiminə əsasən, kartın (əlavə kart daxil) Bankda təhvili (təslimi) edilməsi ilə yanaşı, "Bank"a bildirdiyi və Bankın sistemində qeydiyyata alınan ünvana poçt vasitəsi ilə (qapalı zərfdə) göndərilə/çatdırıla biləcəyini və kredit kartı olan qapalı zərfin itirilməsi/oğurlanması hallarda Bank tərəfindən heç bir məsuliyyət daşımayacağını qəbul, bəyan və təsdiq edir.

- “Kart sahibi” karta (əlavə kart daxil) aid müvafiq PIN kodun (gizli şifrəni) SMS (kart sahibinin Banka bildirdiyini və Bank sistemində qeydiyyata alınan mobil telefon nömrəsinə), poçt (kart sahibinin Banka bildirdiyini və Bank sistemində qeydiyyata alınan ünvana), Telefon Mərkəzi (Call Center) və s. bank kanalları vasitəsi ilə təqdim ediləcəyini (ala biləcəyini) qəbul, bəyan və təsdiq edir . PİN kod poçt vasitəsi ilə göndərildiyi təqdirdə PİN kodla olan qapalı zərfin itirilməsi/oğurlanması hallarda Bank heç bir məsuliyyət daşımayacağını “Kart sahibi” qəbul, bəyan və təsdiq edir.
- Kart (əlavə kart daxil) və ona dair müvafiq PIN kod (gizli şifrə) “Kart sahibi”nin “Bank”a bildirdiyi ünvana poçt vasitəsi ilə göndərildikdə (çatdırıldıqda), kart və ona dair müvafiq PIN kod (gizli şifrə) ayrı-ayrı vaxtlarda və ayrı-ayrı qapalı zərflərdə göndəriləcək (çatdırılacaq).

4.17. Hüquqi ünvan və məlumat dəyişiklikləri

4.17.1. “Kart/əlavə kart sahibi”, bu müqavilədə göstərilən bildirişlərin (çıxarışların) yerinə yetirilə bilməsi (göndərilməsi) üçün aşağıda qeyd edilən ünvan(lar)ın onun hüquqi (qanuni) ünvan(lar)ının olmasını və həmin ünvan(lar)a göndəriləcək müraciətlərin (bildirişlərin və s.) özünə göndərilmiş sayılacağını qəbul, bəyan və təsdiq edir.

4.17.2. “Kart/əlavə kart sahibi”, bu müqavilə/müraciət formasında (ərizəsində) qeyd ediləcək ad, soyad, ünvan kimi məlumatların və əlaqəli sənədlərin doğruluğunu (dürüstlüyünü) öhdəsinə götürdüyü kimi, bu məlumat və ya sənədlərdə dəyişikliklər baş verdiyi təqdirdə dərhal, ünvan dəyişiklikləri barədə isə 5 (beş) gündən gec olmayaraq yazılı qaydada Banka məlumat verməyi (bildirməyi) öhdəsinə götürür. Əks təqdirdə, yarana biləcək hər hansı bir anlaşmazlıqlardan və bunların nəticələrindən məsuliyyətli olacaq. “Kart/əlavə kart sahibi” müraciət formasında (ərizəsində) və/və ya bəyan etdiyi maliyyə vəziyyətinin dürüstlüyünü (doğruluğunu) və hər il “Bank” tərəfindən tələb edildiyi zaman yeni dövrə aid maliyyə vəziyyətini göstərən, qanuni (səlahiyyətli) orqanlarının və ya “Bank”ın uyğun görəcəyi formada (şəkildə) bir sənədi (məlumatı) “Bank”a təqdim etməyi (verməyi) öhdəsinə götürür.

4.18. Dəftər və qeydlərinin dəlil olacağı

Bu müqavilənin tərəfləri, bu müqavilə və onun tətbiq edilməsi ilə bağlı aralarında yarana biləcək hər cür mübahisələrin həlli zamanı “Bank”ın dəftər, yazılı, kompyuter (sistem) və ya səsli qeydlərinin, “Kart sahibi” tərəfindən “Bank”a göndəriləcək (təqdim ediləcək) yazılı və/və ya faks təlimatlarının əsaslı dəlil (sübut) olacağını qəbul, bəyan və təsdiq edirlər. Bununla yanaşı, tərəflər həmçinin aralarında həyata keçiriləcək telefon danışıqlarının qeydiyyata alınmasını və “Bank” tərəfindən qanunvericiliyin tələbləri daxilində uyğun görüləcək vaxtadək saxlanılmasını və bu şəkildə saxlanılan telefon danışıqlarının (qeydlərinin) dəlil (sübut) olacağını qəbul, bəyan və təsdiq edirlər.

4.19. Müqavilənin ləğvi

Bu müqavilə, imzalandığı tarixdən qüvvəyə minir və tərəflərdən birinin digər tərəfə onun ləğvinə dair yazılı olaraq bildiriş göndərilmədiyi müddətədək davam edir (qanunvericiliklə və/və ya müqavilə ilə müəyyən edilmiş tələblər və şərtlər nəzərə alınmaqla). 110 (yüz on) manatdan çox məbləğdə borclar üçün borc müqaviləsinin ləğv edilməsi haqqında xəbərdarlıq müddəti 3 (üç) ay, daha az məbləğdə borclar üçün 1 (bir) ay təşkil edir. “Bank”, “Kart/əlavə kart sahibi”nin bu müqavilədən irəli gələn hər hansı bir öhdəliklərinin vaxtında yerinə yetirilməməsi və/və ya lazımınca yerinə yetirilməməsi, borcunun ödənilməməsi və/və ya müqavilənin şərtlərini digər şəkildə pozduğu (yerinə yetirmədiyi) təqdirdə, kart hesabı(ları)nın/kart(lar)ın fəaliyyətini dayandıra (bloklaşdıra), müqaviləni ləğv edərək borcun tamamilə ödənilməsini və kart(lar)ın qaytarılmasını tələb edə bilər. “Kart/əlavə kart sahibi”, buna dair “Bank”ın bildirişindən sonra kart(lar)ı istifadə etməyərək “Bank”a geri qaytarmağa görə məsuliyyətlidir. “Kart/əlavə kart sahibi”, “Bank”a borc məbləğindən asılı olaraq xəbərdarlıq müddətlərini gözləməklə yazılı qaydada bildirmək və eyni zamanda kart(lar)ı qaytarmaq və kartın (kredit xəttinin) istifadəsi ilə əlaqədar yaranmış bütün borcunu(larını) ödəyərək müqaviləni ləğv (xitam) etmək hüququna malikdir.

4.20. Məhkəmə və s. xərclərin ödənilməsi

Bu müqavilədən yaranan (irəli gələn) borcların “Kart/əlavə kart sahibi” tərəfindən vaxtında və lazımı qaydada geri qaytarılmamasına görə “Bank”, “Kart/əlavə kart sahibi”nə qarşı iddia qaldırmaq və ya icra tətbiqinin həyata keçirmək məcburiyyətində qalarsa, “Kart/əlavə kart sahibi” bununla bağlı “Bank”ın çəkəcək hər cür xərclərinin (vəkil/hüquqi xidmət ilə bağlı xərclər daxil olmaqla) “Bank”a ödənilməsini qəbul, bəyan və təsdiq edir.

4.21. “Bank”ın hüquq və vəzifələri (öhdəlikləri)

4.21.1. “Kart/əlavə kart sahibi”nin ödəniş qabiliyyətinin müəyyən edilməsi üçün lazımı sənədləri “Kart/əlavə kart sahibi”ndən tələb etmək;

4.21.2. “Kart/əlavə kart sahibi”nin istifadə etmiş olduğu vəsaiti (krediti) və vəsait (kredit) üzrə faizləri, komissiya və digər nəzərədə tutulmuş ödənişləri (haqqları) vaxtında, müqavilə ilə müəyyən edilmiş şərtlərlə qaytarılmasını, kredit və ona hesablanmış faiz borcunu, eləcə də ödənilməsi gecikdirilmiş kredit və kreditdən istifadəyə görə faiz borcunu, müqavilə üzrə hesablanan gecikdirilmə faizlərinin və s. qaytarılmasını tələb etmək, tələbləri yerinə yetirilmədikdə kartın fəaliyyətini dayandırmaqla (bloklaşdırmaqla), borcun qaytarılması üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün tədbirləri həyata keçirmək, o cümlədən məhkəməyə müraciət etmək;

4.21.3. “Kart/əlavə kart sahibi”nin təqdim etmiş olduğu sənədlərdə saxtakarlıqlar aşkar edildikdə, kartın fəaliyyətini

dayandırmaqla (bloklaşdırmaqla) müqaviləni ləğv etmək və kartın istifadəsi üzrə yaranmış bütün borcların qaytarılmasını tələb etmək, tələbləri yerinə yetirilmədikdə borcun qaytarılması üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün tədbirləri həyata keçirmək, o cümlədən məhkəməyə müraciət etmək;

4.21.4. "Kart/əlavə kart sahibi"nə əvvəlcədən xəbərdarlıq etməklə (məlumat verməklə) inflyasiya göstəricilərinin; və/və ya kredit resurslarının qiymətlərinin; və/və ya bazar şəraitinin hər hansı digər şəkildə dəyişməsini (maliyyə böhranı və s.) nəzərə alaraq kredit kartı limitini, faiz dərəcələrini, komissiya haqqlarını dəyişdirmək;

4.21.5. "Kart/əlavə kart sahibi", bu müqavilə ilə müəyyən edilmiş öhdəliklərini (və ya onun bir hissəsini) icra etmədiyi və yaxud lazımınca icra etmədiyi təqdirdə, habelə inflyasiya göstəricilərinin və/və ya bazar şəraitinin kəskin dəyişməsi və/və ya hər hansı bu kimi digər səbəb(lər) nəticəsində maliyyə itkilərinə məruz qalma təhlükəsi yarandıqda (maliyyə böhranı və s.) kartın fəaliyyətini dayandırmaq;

4.21.6. "Kart/əlavə kart sahibi", bu müqavilə ilə müəyyən edilmiş öhdəliklərini (və ya onun bir hissəsini) icra etmədiyi və yaxud lazımınca icra etmədiyi təqdirdə, habelə "kart/əlavə kart sahibinin" əmlak və maliyyə vəziyyəti pisləşərsə və bunun nəticəsində borcun qaytarılması təhlükəyə məruz qala bilərsə, kartın fəaliyyətini dayandıraraq istifadə edilməmiş kredit kartı limitinin qalan hissəsinin ayrılmasını dayandırmaq;

4.21.7. "Kart/əlavə kart sahibi"nin kredit borcları haqqında məlumatların alınması və/və ya onun haqqında toplanan məlumatlarda qeyri-dəqiqliyin aradan qaldırılması üçün Kredit Reyestrinə müraciət etmək. "Kart/əlavə kart sahibi"nin maliyyə vəziyyəti və bank hesabları barədə məlumatları ondan əldə etmək;

4.21.8. "Kart/əlavə kart sahibi" tərəfindən bu müqavilə üzrə öhdəlikləri icra edilmədikdə və ya lazımınca icra edilmədikdə, gecikdirilmiş borcu və ondan istifadə üçün hesablanmış bütün faizləri, gecikdirilmə faizlərini, komissiya və s. nəzərdə tutulmuş digər ödənişləri borcu(ları) əvəzinə mübahisəsiz (akseptsiz) qaydada "Kart/əlavə kart sahibi"nin və/və ya "zaminin" "Bank"dakı istənilən hesab(lar)ından silmək (ödəmək) və\və ya ona qarşı olan (irəli sürülmüş) tələb miqdarında (məbləğində) hesab(lar)dakı məxaric əməliyyatlarına məhdudiyyətlər qoymaq;

4.21.9. "Kart/əlavə kart sahibi"nin öhdəliklərinin icra edilməməsi və ya lazımınca icra edilməməsi səbəbindən yaranmış (ödənilməmiş) borcların geri qaytarılmasının təmin edilməsi məqsədilə borcun qaytarılmasını üçüncü şəxslərə tapşırmaq və bu məqsədlə qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tətbirlərin həyata keçirilməsi üçün (məhkəmə instansiyalarına\orqanlarına müraciət və s.) kart/əlavə kart sahibinə aid olan məlumatları həmin şəxslərə təqdim etmək. Bu işlərin aparılmasına görə həmin şəxslərə ödənilən xərclər və yaxud çəkilən (çəkilməli olan) məsrəfləri (xərcləri) "Kart/əlavə kart sahibi"ndən və/və ya "Zamindən" tələb etmək (tutmaq/almaq);

Bu müqavilə üzrə tələb hüquqlarını üçüncü şəxslərə satmaq və ya güzəşt etmək.

4.21.10. "Bank" bu və ya digər hallarda "Kart\əlavə kart sahibinə" borcun əsas məbləği, hesablanmış faiz və\və ya gecikdirilmə faizlər, kamisiyalar, xərclər və s. üzrə bu və ya digər güzəştlərin (silinməsi, azaldılması və s.b.b.) tətbiq edilməsi hüququnu özündə saxlayır və bu kimi şərtlərin müqavilədə öz əksini tapması "Bank" tərəfindən həmin güzəştlərin "Kart\əlavə kart sahibinə" qarşı məcburi qaydada tətbiq edilməsi ilə bağlı öz üzərinə öhdəliklərin qəbul edilməsini və\və ya vədini nəzərdə tutmur\ifadə etmir (həmin güzəştlərin tətbiq edilib-edilməməsi "Bankın" müstəsna hüququna aid edilir və "Kart\əlavə kart sahibinin" "Bankdan" güzəştlərin ona qarşı tətbiq edilməsi tələbi ilə bağlı hüquqlarının və\və ya tələblərinin olmasını qeyd-şərtsiz istisna edir).

4.21.11. Kart verilməmişdən əvvəl "Kart/əlavə kart sahibi" və/və ya "Zamin" tərəfindən təqdim etmiş olduqları sənədləri/məlumatları qanununvericiliyin və buna müvafiq "Bank"ın tələblərinə uyğunluğunu yoxlamaq;

4.21.12. "Kart/əlavə kart sahibin"ə bu müqavilə ilə nəzərdə tutulmuş şərtlərə əsasən kart(lar)ı təqdim etmək; Kartdan(lardan) və PIN koddan (gizli şifrədən) istifadə qaydaları ilə "Kart/əlavə kart sahibi"ni tanış etmək; kart(lar)ın istifadəsi ilə yerinə yetirilən əməliyyatlar və aparılan hesablaşmalar üzrə "Kart/əlavə kart sahibi"nin müraciətlərinə və şikayətlərinə 7 (yeddi) gün ərzində baxmaq; "Kart/əlavə kart sahibi" ilə münasibətdə müəyyən edilmiş şərtlərə əməl etmək.

4.22. Kart/əlavə kart sahibinin hüquq və vəzifələri (öhdəlikləri)

4.22.1. Bu müqavilənin hər hansı bir şərt(lər)i ilə razı olmadığı təqdirdə, müqavilənin imzalanmasından (bağlanmasından) imtina etmək. "Bank"dan bu müqavilə ilə öhdəliklərin icra olunmasını tələb etmək;

4.22.2. "Bank"a yazılı qaydada bildirməklə və borc məbləğindən asılı olaraq xəbərdarlıq müddətlərini gözləməklə kartın istifadəsi ilə bağlı yaranmış bütün borcunu(larını) ödəməklə müqaviləni ləğv (xitam) etmək;

4.22.3. Kredit kartından istifadə nəticəsində yaranmış borcunu(larını) və/və ya borcu üzrə faizləri, komissiya və digər nəzərdə tutulmuş ödənişləri vaxtında və müqavilə ilə müəyyən edilmiş şərtlərlə ödəmək(qaytarmaq), kredit və ona hesablanmış faiz borcunu, eləcə də ödənilməsi gecikdirilmiş kredit və kreditdən istifadəyə görə faiz borcunu, müqavilə üzrə gecikdirilmə faizlərini və s. ödəmək (qaytarmaq). Bu müqavilə üzrə öhdəliklərini lazımınca yerinə yetirmədikdə yaranmış borcların geri qaytarılması ilə bağlı "Bank"ın çəkdiyi (çəkməli olduğu) bütün xərclərin əvəzini, habelə əldən çıxmış faydasını "Bank"a ödəmək;

4.22.4. "Bank" tərəfindən tələb edilən, o cümlədən ödəniş qabiliyyətini müəyyən edilməsi üçün zəruri sənədləri təqdim etmək

(qeyd: “Kart/əlavə kart sahibi” “Bank”a təqdim etdiyi, o cümlədən müqavilə bağlamaq üçün təqdim etdiyi bütün sənədlərin/məlumatların tamlığına, dürüstlüyünə və düzgünlüyünə görə məsuliyyət daşıyır);

4.22.5. Tələb etdiyi hallarda kartı dərhal “Bank”a qaytarmaq;

4.22.6. Kartın gizli şifrəsinin (PIN kodunun) qorunmasını və/və ya səlahiyyətsiz şəxs(lər) tərəfindən istifadə edilməməsini təmin etmək;

4.22.7. Kartın səlahiyyətsiz şəxs tərəfindən istifadəsi, itməsi, oğurlanması və hər cür korlanması hallarında “Bank”ı dərhal müvafiq qaydada xəbərdar etmək və bununla bağlı bankın göstərişlərinə əməl etmək;

4.22.8. Müqaviləyə xitam verildikdə, kartın istifadə (etibarlıq) müddəti başa çatdıqda onu istifadə etməmək və “Bank”a qaytarmaq;

4.22.9. Kartdan üçüncü (səlahiyyətsiz) şəxslərin istifadəsinə yol verməmək və kartdan (kart hesabından) bütün silinmələrə (köçürmələrə/çıxarılmalara) görə məsuliyyət daşımaq (qeyd: Kart “Kart/əlavə kart sahibin”ə təhvil verildikdən sonra, kartdan hər hansı bir şəkildə və qaydada istifadəsinə, o cümlədən üçüncü şəxs(lər)in istifadəsinə və/ və ya kartdan (kart hesabından) vəsaitin silinməsinə (köçürməsinə/çıxrılmasına) görə məsuliyyəti “Kart/əlavə kart sahibi” daşıyır);

4.22.10. Qeydiyyatı və/ və ya yaşayış yeri üzrə ünvanında və digər rekvizitlərində dəyişikliklər olduğu təqdirdə, “Bank”ı müqavilədə nəzərdə tutulmuş müddətlərdə yazılı qaydada məlumatlandırmaq (əks təqdirdə tərəfin sonuncu məlum olan rekvizitlərinə\ünvanına göndərilmiş hər hansı məlumat (bildiriş və s.) çatdırılmış hesab ediləcək);

4.22.11. Kart ilə əməliyyat(lar) apararkən qanunvericiliyin, o cümlədən Azərbaycan Respublikası Mərkəzi Bankının qayda və təlimatlarının bütün tələblərinə ciddi şəkildə riayət etmək;

4.22.12. Kartı qanunsuz əməliyyat(lar)da istifadə etməmək; və kreditdən\lərdən yalnız istehlak yönümlü məqsəd və təyinat üzrə istifadə etmək;

4.22.13. Bu müqavilə və/və ya qanunvericilik ilə müəyyən edilmiş digər vəzifə və öhdəliklərini yerinə yetirmək.

4.22.14. “Kart/əlavə kart sahib”i, bu müqavilə üzrə öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə, “Bank”ın gecikdirilmiş borcu və ondan istifadə üçün hesablanmış bütün faizləri, gecikdirilmə faizlərini , komissiya və s. nəzərdə tutulmuş digər ödənişləri borcu(ları) əvəzinə mübahisəsiz (akseptsiz) qaydada sərəncamı olmadan onun istənilən hesabın(ların)dan silmək və\və ya ona qarşı olan (irəli sürülmüş) tələb miqdarında (məbləğində) hesab(lar)dakı məxaric əməliyyatlarına məhdudiyyətlər qoymaq hüququna malik olmasını qəbul, bəyan və təsdiq edir;

4.22.15. “Kart/əlavə kart sahibi”i razılaşır, bəyan və təsdiq edir ki, öhdəliklərinin icra edilməməsi və ya lazımınca icra edilməməsi səbəbindən yaranmış (ödənilməmiş) borcların geri qaytarılmasının təmin edilməsi məqsədilə Bank borcun qaytarılmasını üçüncü şəxslərə tapşırmaq və bu məqsədlə qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tətbirlərin həyata keçirilməsi üçün (məhkəmə instansiyalarına\orqanlarına müraciət və s.) kart/əlavə kart sahibinə aid olan məlumatları həmin şəxslərə təqdim etmək, bu işlərin aparılmasına görə həmin şəxslərə ödənilən xərclərin və yaxud çəkilən (çəkilməli olan) məsrəfləri (xərcləri) “Kart/əlavə kart sahibi”ndən tələb etmək (tutmaq/almaq) hüququna malikdir.

4.23. Borcun qaytarılması tələbi

“Kart/əlavə kart sahibi” bu müqavilə ilə üzərinə düşən öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə, habelə onların maliyyə (əmlak) vəziyyəti əhəmiyyətli dərəcədə pisləşərsə, bu isə kartdan istifadə nəticəsində yaranmış borcun qaytarılması üçün təhlükə yaradarsa “Bank” kartın fəaliyyətini dayandırmaqla kart üzrə yaranmış bütün borcun (hesablanmış faizlərin, komissiyaların və s.) dərhal qaytarılmasını tələb edə bilər, tələbləri yerinə yetirilmədikdə isə borcun qaytarılması üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün tədbirləri həyata keçirə, o cümlədən məhkəməyə müraciət edə bilər. Bu hüquq həmçinin “Kart/əlavə kart sahibi”nin əmlak vəziyyəti müqavilə bağlanmazdan əvvəl pisləşdikdə, “Banka” isə bu yalnız bu müqavilə bağlandıqdan sonra məlum olduqda da qüvvədədir.

4.24. Mübahisələrin həll edilməsi qaydası

Mövcud müqavilə üzrə əmələ gələn mübahisələri tərəflər öz aralarında məhkəmədənkənar qaydada danışıqlar yolu ilə\qaydada həll etməyə çalışacaqlar.Tərəflər mübahisəni öz aralarında həll edə bilmədikdə mübahisəyə Azərbaycan Respublikasının aidiyyəti məhkəməsində baxılacaq.

4.25. Silinmələr (geri ödənişlər)

Kart(lar) üzrə borc(lar)la bağlı geri ödənişlər aparılarkən, ödənilən borc(lar) məbləği(ləri) nəzərdə tutulmuş ödəniş üçün yetərli olmadıqda, əvvəlcə kreditin(borcun) gecikdirilməsindən əmələ gələn zərər , gecikdirilmə faizləri, sonra faizlər və nəhayət kreditin (borcun) əsas məbləği üzrə borc ödənilir (silinir). “Borcalanın” (“Kart/əlavə kart sahibinin”) müəyyənləşdirdiyi başqa qayda etibarsızdır. “Borcverən” (Bank) tərəfindən borcun hər hansı digər ödəniş ardıcıllığı müəyyən oluna bilər.

Kreditin (borcların) «Borcverənə» geri qaytarılması “Borcverənin” struktur bölmələri vəsitəsilə (filial, şöbə və s.) deyil, digər ödəniş kanalları vasitəsilə (ödəniş terminalları, internet saytları və s. kanallar) ödənildiyi, həmçinin ödənişlər qaytarılma (geri ödəmə) qrafikinə (cədvəlinə) müvafiq həyata keçirilmədiyi təqdirdə (məsələn: ödəniş tarixindən əvvəl, nəzərdə tutulmuş (vaxtı çatmış) ödəniş məbləğindən artıq və s.b.b.) ödənilmiş vəsait “Borcalanın” aidiyyəti hesabına mədaxil edilir, qaytarılma (geri ödəmə) qrafiki üzrə nəzərdə tutulmuş ödəniş gününədək həmin hesabda saxlanılır və müvafiq ödəniş günü ödənilir (hesabdan

borca silinir). Bu zaman ödənilən borc nəzərdə tutulmuş ödəniş üçün yetərli olmadıqda borcdan silinmə bu maddədə müəyyən edilmiş müvafiq ardıcıllıqla ödənilir (silinir); ödənilən borc nəzərdə tutulmuş ödənişlərdən artıq olduqda isə silinmə ardıcıllığı əvvəlcə ödəniş gününə hesablanmış faizlər, sonra kreditin əsas məbləği üzrə borc silinir kimi müəyyən edilir.

"Borcalan" qəbul və bəyan edir ki, kredit öhdəliyinin vaxtından əvvəl ödənilməsi, qaytarılma (geri ödəmə) qrafikində (cədvəlində) nəzərdə tutulan ödəniş məbləğindən (vaxtı çatan ödəniş məbləğindən) artıq məbəğdə əsas borc və ya faizlərin ödənilməsi (silinməsi) bankın struktur bölmələr vəsitəsilə (filial, şöbə və s.) mümkün olacaqdır, belə ödənişlər (silinmələr) digər ödəniş kanalları vasitəsilə (ödəniş terminalları, internet saytları və s. kanallar) mümkün olmayacaqdır.

4.26. Digər müddəalar

Tərəflər maddələrinin hamısını oxuduqlarını, bütün müddəalarını müzakirə edərək qəbul etdiklərini, hər sahifənin imzalamağa ehtiyac olmadığını, müqavilənin bütün müddəalarının barələrində etibarlı olacağını qəbul, bəyan və təsdiq edirlər. Müqavilə imzalandığı gündən qüvvəyə minir və öhdəliklər tam yerinə yetirilənədək qüvvədə qalır.

4.26.1. Bu müqavilə onun məzmununu dəyişilməz formada maddi daşıyıcıda əks etdirməyə imkan verən elektron və ya digər texniki vasitələrin köməyi ilə bağlanıldıqda da yazılı formaya riayət edilmiş hesab edilir və bu halda iradəsini ifadə edən Borcalanı dürüst müəyyən etməyə imkan verən hər hansı üsuldan istifadə olunmuşdursa, imza tələbi yerinə yetirilmiş hesab edilir.

Borcalan və\və ya Borcverəni dəqiq müəyyən etməyə imkan verən xüsusi üsul (üsullar) da müəyyənləşdirilə bilər və bu müqavilə tərəflərin imzaladığı bir sənədin\müqavilənin tərtibi yolu ilə, habelə Mülki Məcəlləyə uyğun olaraq məktubların, teleqramların, elektron sənədlərin və ya digər verilənlərin mübadiləsi yolu ilə bağlana bilər.

4.26.2. Əgər Borcalan ödəniş qabiliyyətini itirərsə və ya şərtləşdirilmiş təminatı azaldarsa, yaxud ümumiyyətlə, belə təminat verə bilməzsə (belə hallar üzrə), kreditor dərhal icranı tələb edə bilər.

Borcverən Borcalandan müqavilədə nəzərdə tutulmuş qaydada və məbləğdə faiz almaq hüququna malikdir.

Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi və ya Borcalanın Borcverənə hər hansı yanlış məlumat verməsi səbəbindən borcun vaxtında qaytarılmayacağı açıq-aşkar bəlli olduqda, yaxud Borcalan Borcun verilməsi üçün bu müqaviləə nəzərdə tutulmuş öhdəliyini icra etmədikdə, o cümlədən təminat təqdim etmədikdə (belə hallar üzrə), Borcverən borc vermək öhdəliyini tam və ya qismən icra etməkdən birtərəfli qaydada imtina edə bilər (imtina etmək hüququna malikdir).

Borcalan krediti\borcu (həmçinin faizləri və\və ya haqları və s.) bu müqavilədə nəzərdə tutulan müddətdə və qaydada Borcverənə qaytarmalıdır.

Mülki Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa, Borcalan borcun verildiyi gündən qaytarıldığı günədək hesablanmış faizləri və (və ya) haqları və s. ödəməklə, borcu vaxtından əvvəl qaytara bilər.

4.26.3. "Bank" aşağıdakı hallarda bu müqavilə üzrə verilmiş kreditin\borcun (o cümlədən borcun vaxtından əvvəl tələb edildiyi günədək borcla bağlı Banka ödənilməli olan faiz və (və ya) digər ödənişlərin) vaxtından əvvəl qaytarılmasını tələb edə bilər:

- Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən bu müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə Banka sonradan məlum olduqda) və ya Borcalanın Borcverəni hər hansı yanlış məlumat verməsi səbəbindən kreditin\kredit borcunun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

-Bu müqavilə üzrə vaxtı çatmış kreditin\borcun (faizlər və (və ya) haqlar daxil olmaqla) 90 (doxsan) gün və ya daha çox müddətə gecikdirilməsi, yaxud kreditin\borcun (faizlər və (və ya) haqlar daxil olmaqla) ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 (doxsan) gündən az olmamaqla);

- Borcalanın kredit\borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, Borcverənin cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda kreditin\borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda (buradaki şərt kredit öhdəliyinin icrası təminatının itirilməsi və yaxud dəyərinin azalması hallarına yalnız bu şərtlə tətbiq edilir ki, Borcalan Borcverən tərəfindən tələb irəli sürüldükdən sonra iki ay ərzində təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun);

- Borcalan Bborcverənə borcun təyinatı üzrə istifadə edilməsinə nəzarət etməyə imkan vermədikdə və ya kredit\borc təyinatı üzrə istifadə olunmadıqda.

4.26.4. Bu müqavilə üzrə Borcalan tərəfindən öhdəlik vaxtından əvvəl ödənilərsə, Borcverən Mülki Məcəlləyə uyğun olaraq zərərin əvəzinin ödənilməsi üçün kompensasiya ödənilməsini tələb edə bilər.

Mülki Məcəlləyə əsasən Borcalan Borcərənin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə ondan faydalanmağa və s. görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir ki, faizlərin miqdarı pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün bank uçot dərəcəsi ilə müəyyənləşdirilir. Bank uçot dərəcəsini Azərbaycan Respublikasının Mərkəzi Bankı müəyyənləşdirir.

4.26.5. İstehlak kredit müqaviləsindən imtina hüququ. Borcalan istehlak krediti müqaviləsi üzrə pul vəsaitinin ona verildiyi gündən 30 (otuz) gün müddətində istehlak krediti müqaviləsindən imtina edə bilər. Bu halda, Borcalan müqavilə üzrə verilmiş

pul vəsaitini və həmin pul vəsaitinin verildiyi gündən qaytarıldığı günədək hesablanan faizləri ödəməlidir. Borcverən tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının məbləğidə Borcalandan alına bilər.

4.26.6. İstehlak krediti müqaviləsinin vaxtından əvvəl icrası, kompensasiya qaydaları və s.

Borcalan istehlak kreditini istənilən vaxt xəbərdarlıq etmədən tamamilə və ya qismən Borcverənə qaytara bilər. Bu halda, kreditin qalıq müddətinə görə hesablanmış faizlər və (və ya) digər haqlar vaxtından əvvəl ödənilmiş məbləğə mütənasib olaraq azaldılır. Borcverən istehlak krediti müqaviləsinin vaxtından əvvəl icrası zamanı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Mülki Məcəllə) uyğun olaraq zərərin əvəzinin ödənilməsi üçün Borcalandan Mülki Məcəllənin 746-4-cü maddəsinin tələbləri nəzərə alınmaqla kompensasiya tələb edə bilər. Göstərilən kompensasiyanın məbləği müqavilə müddətinin bitməsinə bir ildən çox müddət qaldıqda, istehlak krediti üzrə vaxtından əvvəl ödənilmiş məbləğin 1 (bir) faizindən, bir il və daha az müddət qaldıqda isə 0,5 faizindən çox olmamalıdır. Kompensasiya məbləği aşağıdakı hallarda tələb edilə bilməz: vaxtından əvvəl ödəniş bu müqavilə üzrə bağlanan sığorta müqaviləsinin əsasında həyata keçirildikdə;

bank hesabının kreditləşdirilməsi halında.

Borcalan tərəfindən son on iki ay ərzində istehlak krediti üzrə vaxtından əvvəl ödənilmiş məbləğ ölkə üzrə müəyyən edilmiş minimum əməkhaqqı məbləğinin qırx mislindən çox olarsa, Bank ona belə ödəmələr zamanı dəymiş zərəri məhkəmə qaydasında və ya zərərin baş verdiyi tarixdən sonra Borcalan ilə ayrıca razılıq əldə etməklə Mülki Məcəllənin 746 -4.3-cü maddəsində göstərilmiş kompensasiya məbləğlərindən daha yüksək (dəymiş zərərə mütənasib) kompensasiya tələb edə bilər. Bu halda, Borcverənə dəymiş zərər qaytarılan kreditin kredit müqaviləsində nəzərdə tutulan faiz dərəcəsi ilə vaxtından əvvəl ödənilmə anında Borcverənin borc verdiyi eyni təyinatlı kreditin faiz dərəcəsi arasındakı fərqdən ibarətdir. Kompensasiya məbləği hər bir halda istehlak kreditinin Borcalan tərəfindən vaxtından əvvəl ödənilməsi anı ilə müqavilənin müddətinin başa çatması anı arasındakı müddətdə ödənilməli olan illik faiz dərəcəsi üzrə hesablanmış faiz məbləğlərindən çox ola bilməz.

4.26.7. Borcalan qəbul, təsdiq və bəyan edir ki, ödənişlərini vaxtında etmədikdə (və\və ya vəzifələri lazımınca icra edilmədikdə) həmin hallar bu müqavilə və\və ya qanunvericliklə nəzərdə tutulmuş hüquqi nəticələrə səbəb olacaqdır\ola biləcəkdir (bunlarla məhdudlaşdırılmayaraq, o cümlədən Borcverənə vurulmuş zərərin ödənilməsi, Borcverən tərəfindən kreditin\borcun əsas məbləğinin və faizlərinin vaxtından əvvəl qaytarılmasının tələb edilməsi, tələbi yerinə yetirilmədikdə məhkəməyə müraciət edilməsi və s.b.b.).

4.26.8. Borcalan razılaşıar ki, bu müqavilənin notarial qaydada bağlanmasıda (təsdiqidə) tətbiq\tələb edilə bilər ki, tətbiq edildikdədə müqavilənin bağlanılması və s. ilə bağlı olan bütün notarial xərclər (həmin ana mövcud olan və/və ya tətbiq edilən rüsumlar, haqlar və s. xərclər) Borcalan tərəfindən ödəniləcəkdir.

4.26.9. Borcalanın müqavilə müddətində sorğu əsasında ödənişsiz olaraq kağız daşıyıcıda təqvim ili ərzində iki dəfə (müqavilədə daha əlverişli hal nəzərdə tutulmadıqda), digər davamlı daşıyıcıda isə istənilən zaman kreditin qalığı barədə hesabdan çıxarışı kreditin ödəniş qrafiki şəklində əldə etmək hüququ var.

4.26.10. Bu müqaviləyə görə 1 il 360 gündən ibarətdir və kredit üzrə faizlər ilin 360 gününün faktiki saylarının əsasında hesablanır. Faizlər kreditin «Kart/əlavə kart sahibinə» verildiyi gündən (borcun verildiyi gün daxil, qaytarıldığı gün isə xaric olmaqla) hesablanır. Kredit üzrə faizlər bu müqavilənin şərtlərinə əsasən kredit "Kart/əlavə kart sahibinə" verildiyi (köçürüldüyü) gündən borcun tam qaytarılması anınadək hesablanır. Kredit məbləği «Kart/əlavə kart sahibinə» «Yapı Kredi Bank Azərbaycan» QSC-də açdığı/açılan müvafiq cari hesaba köçürülməklə verilir.

4.26.11. Borcalan bəyan və təsdiq edir ki, o kredit ödənişini Banka məxsus olmayan müvafiq ödəniş terminalları (MPay, MilliOn, Azərpoçtla və s.) və/və ya ödəniş sistemləri və s. vasitəsilə həyata keçirildiyi zaman ödəniş şirkəti (ödəniş terminalın və/və ya ödəniş sisteminin sahibi) tərəfindən tətbiq edilən komissiyanı ödəyəcək.

4.26.12. Borcverən bu müqavilə üzrə aşağıdakı hallardada borc verməkdən tam və ya qismən imtina edə bilər (borc verməkdən tam və ya qismən imtina etmək hüququna malikdir):

- Borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi və ya Borcalanın Borcverənə hər hansı yanlış məlumat verməsi səbəbindən borcun vaxtında qaytarılmayacağı açıq-aşkar bəlli olduqda, yaxud Borcalan borcun verilməsi üçün bu müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etmədikdə, o cümlədən təminat təqdim etmədikdə;

- İqtisadi şəraitin dəyişməsi ilə bağlı:

• İqtisadi şəraitin dəyişməsi nəticəsində Borcalanın Borcverən qarşısında öhdəliklərin yerinə yetirilməsinə mənfi təsir göstərə biləcək risklər mövcud olduqda;

• Kreditin verilməsindən sonra bazarda kredit faiz dərəcələrində Borcverən tərəfindən müəyyən edilmiş həddən çox faizlər dəyişdikdə;

- Borcverənin maliyyə vəziyyətinə təsirlə bağlı:

• Borcverənin kifayət qədər likvid vəsaiti olmadıqda və ya likvidlik mövqeyinin pisləşməsi və bu sahədə Mərkəzi Bank tərəfindən müəyyən edilmiş prudensial normativlərin pozulması riskləri mövcud olduqda;

• Mərkəzi Bank tərəfindən müəyyən edilmiş prudensial normativlərinin pozulması riski olduqda;

• Borcverənin maliyyə dayanıqlığının pisləşməsi riskləri mövcud olduqda;

- Borcalanın kredit ödənişlərinə təsirlə bağlı:

• Borcalan tərəfindən müqavilə ilə nəzərdə tutulmuş ödənişlər ödəniş qrafikinə uyğun icra edilmədikdə və ya gecikmələr yarandıqda;
• Borcalanın digər öhdəlikləri (vergi borcları və sair) üzrə gecikmələri yarandıqda;
• Borcalanın kredit tarixçəsi pisləşdikdə;
• Kreditin ümidsiz kreditə çevrilməsi riski ilə bağlı Borcverənin əsaslı ehtimalları yarandıqda.
- Borcalanın maliyyə vəziyyətinə təsirlə bağlı:
• Borcalanın borc yükü artdıqda;
• Borcalanın maliyyə vəziyyətində, əmlakında və onun təşkilati-hüquqi formasında kredit müqaviləsi üzrə şərtlərin yerinə yetirmə qabiliyyətinə mənfi təsir göstərə biləcək hər hansı bir dəyişiklik olduqda və ya bazar şəraitində borcalanın mövcudluğu üçün əhəmiyyətli təhlükə yaradan dəyişiklik olduqda;
• Borcalanın müflisləşməsi barədə məlumat əldə edildikdə, habelə Borcalan barədə cinayət işi başlandıqda, inzibati və ya cinayət məsuliyyətinə cəlb edildikdə;
• Borcverənin kredit riskinin idarəedilməsi stategiyasına və siyasətinə əsasən müəyyən edilən Borcverənin daxili risk reytinqi üzrə Borcalanın risklilik dərəcəsi Borcverən üçün əlverişli olmayan səviyyəyə çatdıqda;
• Borcalanın iştirakçılarının payları (səhmləri) satıldıqda, girov qoyulduqda, başqa şəxsə ötürüldükdə və ya hər hansı formada özgəninkiləşdirildikdə, onun iştirakçılarının paylarının (səhmlərinin) nominal dəyəri azaldıqda;
• Borcalan müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edildikdə;
• Borcalanın sahibkarlıq fəaliyyətinə istənilən səbəbdən xitam verildikdə və ya Borcalan vergi uçotundan çıxarıldıqda və ya riskli vergi ödəyicisi olduqda;
• Məhkəmə və digər orqanlar tərəfindən Borcalanın gəlirlərindən və hesablarından məcburi icra ödənişlərinin (cərimə, sağlamlığa zərər vurma və s.), tutulmaların həyata keçirilməsi barədə qərar qəbul edildikdə;
• Borcalana və Borcalan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda onun ərinə/arvadına, yaxud hər hansı təminatçıya qarşı məhkəmədə onun əmlak vəziyyətini əhəmiyyətli dərəcədə pisləşdirən və ya pisləşdirə bilən iddia tələbi irəli sürüldükdə, göstərilən şəxslərin bu və ya digər əmlak (təminatçının girov (ipoteka) ilə yüklü edilmiş əmlakı) üzərində mülkiyyət hüquqlarına xitam veriləcəyi ilə bağlı ehtimallar yarandıqda və ya müvafiq orqanlar tərəfindən inzibati icraata başlandıqda və ya Borcalan ilə əlaqədar hər hansı cinayət üzrə ibtidai və məhkəmə araşdırmasının başlanılması və ya aparılması barədə məlumat daxil olduqda;
• Borcalan tərəfindən qeyri-qanuni əməliyyatların aparılmasına dair şübhələr olduqda.
• Borcverənin əvvəlcədən razılığı olmadan dividend və ya mənfəət ödənildikdə.
- Dİgər öhdəliklərin yerinə yetirilməməsi ilə bağlı:
• Borcalan tərəfindən kreditin müqavilə ilə nəzərdə tutulmuş təyinat üzrə istifadə etmədiyi müəyyən edildikdə;
• Borcalan tərəfindən Borcverəni aldatmağa yönəlmiş hər hansı bir hərəkət aşkar olduqda, o cümlədən Borcalanın özünün sahibkarlıq fəaliyyəti, maliyyə və iqtisadi imkanları və kredit müqaviləsindən irəli gələn öhdəliklərin vaxtında və lazımi qaydada icrasına təsir edə biləcək digər faktlar haqqında verdiyi məlumatların və təqdim etdiyi sənədlərin həqiqətə uyğun olmadığı aşkar olduqda;
• Borcalan tərəfindən onun kreditdən necə istifadə olunması, habelə şəxsi və təsərrüfat fəaliyyəti ilə bağlı maliyyə vəziyyətinin monitorinqi məqsədilə gəlmiş Borcverənin səlahiyyətli nümayəndələrinin vəzifələrini yerinə yetirməsinə şərait yaratmadıqda;
• Borcalan tərəfindən Borcverənə düzgün məlumat vermədikdə;
• Borcalan Borcverən tərəfindən müəyyən edilmiş müddətdə özünün işgüzar fəaliyyəti haqqında Borcverənə yazılı məlumat vermədikdə;
• ESİ faktorları üzrə tələblər Borcalan tərəfindən nəzərə alınmadıqda və ya pozulduqda;
• Borcalan və ya təminatçı Borcverənin razılığı olmadan bu müqaviləyə əsasən ona məxsus hüquqları və öhdəlikləri üçüncü şəxslərə verdikdə;
• Borcalanın Kredit(lər)dən Borcverən tərəfindən Borcalana bildirilmiş və istisna olunan fəaliyyət növü üzrə istifadə etdiyi müəyyən olunduqda.
- Təminatla bağlı:
• Kredit öhdəliyinin icrasının təminatı itirildikdə və ya dəyəri azaldıqda və Borcalan Borcverən tərəfindən müəyyən edilmiş müddət ərzində təminatı əvəz etmədiyi və ya əlavə təminat təqdim etmədiyi halda və bu halda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;
• Bu Müqavilə üzrə Borcalanın öhdəliklərinin icrasını təmin etmək üçün bağlanmış girov, qarantiya və zaminlik müqaviləsi etibarsız hesab edildikdə və ya vaxtından əvvəl xitam verildikdə;
• Təminatı təqdim edən tərəfindən ipoteka predmetinin qorunması və lazımi qaydada saxlanılması üzrə üzərinə götürdüyü öhdəliklər lazımi qaydada yerinə yetirilmədikdə.

4.27. Müqavilə şərtlərinin dəyişdirilməsinin mümkünlüyü

"Kart\əlavə kart sahibi", "Bank"ın bu müqavilə üzrə şərtləri (faiz dərəcələrinin, komisyonların (xidmət haqlarının) və s. şərtlərin)) gələcəkdə dəyişdirmək hüququna malik olduğunu və ediləcək həmin dəyişikliklərin əvvəlcədən (azı 1(bir) ay əvvəldən) kağız və ya digər dözümlü daşıyıcıda qanunvericiliyə zidd olmayan çatdırılma vasitələri ilə məlumatlandırılmasının (təqdim edilməsinin) yetərli olacağını qəbul, bəyan və təsdiq edir. "Kart\əlavə kart sahibi", dəyişikliklərlə razı olmadıqda bunların tətbiq edilmədən əvvəl 110 (yüz on) manatdan çox məbləğdə borclar üçün 3 (üç) ay müddəti, daha az məbləğdə borclar üçün 1 (bir) ay müddəti ərzində, kartın (kredit xəttinin) istifadəsi ilə əlaqədar yaranmış bütün borclarını ödəməklə, "Bank" a müraciət edərək müqaviləyə xitam vermək hüququna malikdir. "Kart\əlavə kart sahibi", gözlənilən dəyişiklərlə bağlı məlumatı aldıqdan sonra borc məbləğindən asılı olaraq yuxarıda qeyd olunmuş müddətlər ərzində müqaviləyə xitam verilməsi barədə "Bank"a müraciət etmədiyi təqdirdə, yeni müqavilə şərtlərinin onun tərəfindən qəbul edilmiş hesab olunmasını bəyan və təsdiq edir. "Kart/əlavə kart sahibi" bu müqavilə üzrə borc faizlərinin dərəcəsi dəyişdikdə ləğvetmə haqqında 3 (üç) aylıq xəbərdarlıq müddətini gözləməklə istənilən vaxt müqaviləni ləğv etməkdə xüsusi hüquqa malikdir. Sözügedən dəyişikliklər kartla bağlı istifadə limitinin (kredit xəttinin) istifadə edilmiş hissələrinə şamil edilməycək.

(Qeyd: "Dözümlü daşıyıcı" dedikdə, məlumatın məqsədlərinə uyğun müddət ərzində saxlanılmasına imkan verən və saxlanılan məlumatın dəyişiksiz əks etdirilməsi mümkün olan istənilən alət(daşıyıcı) başa düşülür)).

5. İnternet/Mobil Bankçılıq xidməti üzrə maddələr/müddəalar

5.1. Predmet. Bu Müqaviləyə görə Bank Tariflərə uyğun olaraq Müştəriyə qeyri-məhdud bank xidmət kanalları vasitəsilə Müştərinin Banka məxsus ödəniş kart(lar)ı və ya bank hesab(lar)ı üzrə İnternet/Mobil Bankçılıq xidmətini təqdim edir.

Qeyd: müqavilənin bu hissəsində istifadə olunan anlayışlar aşağıdakı mənaları daşıyır:

"İNTERNET/MOBİL BANKÇILIQ" XİDMƏTİ: İnternet və ya mobil telefon vasitəsilə (kompüter, mobil telefon, televiziya, kiosk, ictimai media vasitəsilə təqdim olunan və ya təqdim ediləcək, lakin bunlarla məhdudlaşmayan) ödəniş kart(lar)ı və ya bank hesab(lar)ı üzrə Bankın hazırda və gələcəkdə təqdim edəcəyi xidmətlər;

"ÖDƏNİŞ KARTI": Banka məxsus olan nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş aləti;

"QEYRİ-MƏHDUD BANK XİDMƏT KANALLARI": Bankın filial və şöbələri xaricində qalan, Müştəriyə xidmətlərini çatdırdığı internet, mobil cihazlar, ATM, və s kimi kanallar;

"TƏHLÜKƏSİZLİK VASİTƏLƏRİ": İnternet/Mobil Bankçılıq xidməti alan Müştərilərin İnternetdə Bank fəaliyyətinin Təhlükəsizliyi üçün yararlandıqları Müştəri nömrəsi, Şifrə və Bir dəfəlik şifrə.

"ƏLAVƏ TƏHLÜKƏSİZLİK VASİTƏLƏRİ": Müştərinin seçimi əsasında onun İnternet/Mobil Bankçılıq xidmətlərindən istifadə zamanı təhlükəsizliyini təmin etmək üçün Bank tərəfindən təmin edilən vasitələr.

"AĞILLIAÇAR": İnternet/Mobil Bankçılıq xidmətindən yararlanarkən Müştəriyə iki mərhələli təhlükəsizlik verən və birdəfəlik istifadə üçün nəzərdə tutulan rəqəmlərdən ibarət bir şifrə yaradan Açara bənzər fiziki təchizat;

"AĞILLI MOBİL": İnternet/Mobil Bankçılıq xidmətindən yararlanarkən Müştəriyə iki mərhələli təhlükəsizlik verən və bir dəfəlik istifadə üçün nəzərdə tutulan rəqəmlərdən ibarət bir şifrə yaradan, Java sisteminə uyğun mobil telefonlara yüklənə bilən proqram;

"AĞILLI SMS": İnternet/Mobil Bankçılıq xidmətindən yararlanarkən Müştərinin adına qeyd edilmiş və Müştəri tərəfindən Banka bildirilmiş və bank sistemində qeytiyyata alınan mobil telefon nömrəsinə göndərilən bir dəfəlik istifadə üçün nəzərdə tutulan rəqəmlərdən ibarət şifrə ilə təsdiqləməni təmin edən sistem və bu sistemin funksiyasını təmin edən, Müştəri üçün hazırlanmış proqramtəminatı;

"TARİFLƏR": Bu Müqaviləyə uyğun təyin olunan İnternet/Mobil Bankçılıq xidmət haqqı;

"ŞİFRƏ": Bankın internet/mobil və ya elektron qaydada keçirilən əməliyyatlar üçün, Müştəriyə gizli saxlanmaq şərtilə verdiyi istifadə kodları və ya Müştərinin Bankdan aldığı bu şifrə ilə təqdim edilən xidmətlərdən faydalanaraq elektron mühitdə öz-özünə ala biləcəyi/çıxara biləcəyi və ya Bankdan tələb edə biləcəyi gizli saxlanmalı olan kod.

"BİR DƏFƏLİK ŞİFRƏ": İnternet/Mobil Bankçılıq xidmətindən istifadə zamanı Müştərinin təhlükəsizliyini təmin etmək məqsədilə Bank tərəfindən "Ağıllı Açar", "Ağıllı Mobil" və "Ağıllı SMS" təhlükəsizlik vasitələrilə yaradılan və bir dəfəlik istifadə üçün nəzərdə tutulan əlavə identifikasiya kodudur.

5.2. İnternet/Mobil Bankçılıq xidmətinə qoşulma və istifadə.

Müştəri Banka müraciət edərək İnternet/Mobil Bankçılıq xidmətinə qoşulmaq üçün bu Müqavilənin ayrılmaz tərkib hissəsi (Əlavəsi) olan Müraciət Formasını doldurараq imzalayır və Bankın müvafiq işçisinə təqdim edir. Müraciət Formasını doldurarkən, Müştəri özünün qeyd etməli olduğu bütün məlumatları tamvə düz şəkildə Banka təqdimedir. İnternet/Mobil Bankçılıq xidmətinə qoşulanzaman Müştərinin Banka məxsus bütün ödəniş kart(lar)ı və bank hesab(lar)ı avtomatik qaydada xidmətə əlavə olunur. İnternet/Mobil Bankçılıq xidmətinə qoşulmaq üçün Müştəriyə Müştəri Nömrəsi, Şifrə və Bir dəfəlik şifrə əldə edilməsi üçün əlavə təhlükəsizlik vasitəsi verilir.

Müştəri, İnternet/Mobil Bankçılıq xidmətinə daxil olmaq üçün internet vasitəsilə Bankın rəsmi internet saytı olan www.yapikredi.com.az saytında yerləşdirilmiş müvafiq linkə daxil olur, ona məxsus Müştəri Nömrəsini, Şifrəni və Bir dəfəlik şifrəni daxil edib birbaşa bankın sisteminə daxil olur. Mobil Bank xidmətindənistifadə etmək üçün Müştəri Bankın rəsmi internet səhifəsi olan www.yapikredi.com.az saytında yerləşən "Mobil Bank" linkinə daxil olub, mobil telefonunun əməliyyat sisteminə uyğun "Mobil Bank" proqram təminatını mobil telefonuna yükləməlidir.

Bankın Müştəriyə internet və/və ya elektron sistemlər vasitəsilə xidmət göstərməsi Müştəriyə cihaz və proqram (hardware-software) təminatı

ilə əlaqədar Bankda öhdəlik yaratmır.

5.3. İnternet/Mobil Bankçılıq xidmətindən istifadə qaydaları

İnternet/Mobil Bankçılıq xidməti Müştəriyə məxsus kredit kart(lar)ının və ya kredit kart(lar)ı olmayan Müştərinin bank hesab(lar)ının etibarlılıq müddəti çərçivəsində təmin olunur. Müştərinin kredit kartı yeni müddətə yeni nömrə ilə buraxılan təqdirdə Müştəri Banka yeni Müraciət Formasını təqdim edir. Kart hesabı üzrə əməliyyatlar Bank tərəfindən avtorizasiya olunduqdan sonra həyata keçirilir. Avtorizasiya kart hesabında mövcud vəsait çərçivəsində təmin olunur və Bank komissiyalarını daxil edir. Avtorizasiya zamanı kart hesabında əməliyyatın həyata keçirilməsi üçün lazımi vəsait olmadıqda Bank tərəfindən əməliyyat həyata keçirilmir.

Müştəri, İnternet/Mobil Bankçılıq xidməti üzrə dəyişikliklər edilməsi məqsədilə yeni bir Müraciət Forması ilə Banka müraciət edir. Əks təqdirdə, mövcud İnternet/Mobil Bankçılıq xidməti onun üçün qüvvədə qalır və bütün nəticəsi ilə davam edir. Müştəri İnternet/Mobil Bankçılıq xidmətinin qoşulduğu mobil telefon nömrəsini dəyişdirdiyi halda həmin gün Banka yazılı məlumat verməlidir. Belə məlumatın verilmədiyi halda yarana biləcək neqativ hallar üçün Bank məsuliyyət daşımır.

Müştərinin ölkə xaricində İnternet/Mobil Bankçılıq xidmətinə qoşula bilməsi üçün, bir dəfəlik şifrələrin göndərildiyi mobil nömrənin rouminq xidməti aktiv olmalıdır. Rouminq xidməti zamanı yarana biləcək problemlərə görə Bank məsuliyyət daşımır.

İş saatları xaricində verilmiş Müştəri sorğuları Bank tərəfindən növbəti iş günündə icra olunmaq üçün dəyərləndirilir.

5.4. Əlavə Təhlükəsizlik Vasitələrindən istifadə qaydaları

5.4.1. Ağıllı Açar. Hər bir "Ağıllı Açar" Müştəri üçün xüsusi yaradılır və bir dəfəlik istifadə üçün rəqəmlərdən ibarət şifrələr təmin edir. Bir dəfə istifadə üçün yaradılan şifrə, ikinci dəfə həmin Müştəri və ya başqa bir Müştəri tərəfindən istifadə edilə bilməz. Bu Müqavilə üzrə Ağıllı Açarın dəyəri ayrı ayrılıqda 30 (otuz) AZN təşkil edir və İnternet/Mobil Bankçılıq xidmətinə ilk müraciət zamanı Müştəri tərəfindən banka bir dəfə ödənilir. Ağıllı Açarın istifadəsini dayandırmaq üçün cihaz Banka geri qaytarılmalıdır. Müştəri, lazımi şəkildə işləməyən, nasaz və/və ya sıradan çıxmış Ağıllı Açarlar haqqında dərhal Banka məlumat verərək, onları ləğv etdirmək öhdəliyini daşıyır. Nasaz Ağıllı Açar səbəbindən ümumiyyətlə və ya lazımi şəkildə aparıla bilməyən əməliyyatlar üzrə Bank məsuliyyət daşımır. Ağıllı Açara, istehsal tarixindən etibarən, istehsaldan irəli gələn nasazlıqlara görə 1 (bir) il müddətinə zəmanət verilir. Ağıllı Açar zəmanət müddəti ərzində və zəmanət çərçivəsində sıradan çıxdığı halda, yenisi ilə dəyişdirilir.

5.4.2. Ağıllı Sms. Ağıllı Sms Müştərinin Banka bildirdiyi mobil nömrəsinə şifrə göndərilməklə aktivləşir. Hər bir Ağıllı Sms şifrəsi Müştəri üçün xüsusi yaradılır və bir dəfəlik istifadə üçün rəqəmlərdən ibarət şifrələr təmin edir. Bir dəfəlik istifadə üçün yaradılan şifrə ikinci dəfə həmin Müştəri və ya başqa bir Müştəri tərəfindən istifadə edilə bilməz.

5.4.3. Ağıllı Mobil. Hər bir Ağıllı Mobil Müştəri üçün xüsusi yaradılır və bir dəfəlik istifadə üçün rəqəmlərdən ibarət şifrələr təmin edir. Bir dəfəlik istifadə üçün yaradılan şifrə, ikinci dəfə həmin Müştəri və ya başqa bir Müştəri tərəfindən istifadə edilə bilməz.

Müştəri Bankın rəsmi internet saytı olan www.yapikredi.com.az saytında yerləşdirilmiş İnternet/Mobil Bankçılıq xitmətləri üzrə təhlükəsizlik tövsiyyələri ilə yaxından tanış olmağını və onlara riayət edilməsini öncədən qəbul, bəyan və təsdiq edir.

5.5. İnternet/Mobil Bankçılıq xidməti vasitəsilə aparılan əməliyyatlar. Müştəri İnternet/Mobil Bankçılıq xidməti vasitəsilə Banka məxsus olankart hesab(lar)ı üzrə hesab açılması, ödənişkartları və / və ya Bank hesablarına nəzarət edilməsi, valyuta mübadiləsi əməliyyatının həyata keçirilməsi, hesabdan çıxarışların alınması, hesabın qalığının öyrənilməsi, kommunal xidmətlər, kütləvi xidmət operatorlar (internet provayder, kabel televiziyası) və mobil rabitə üzrə ödənişlərin aparılması, ödəniş kartları və bank hesabları arasında köçürmələrin aparılması və s. kimi əməliyyatlar apara bilər. Müştəri İnternet/Mobil Bankçılıq xidməti vasitəsilə aparılan əməliyyatların məbləğinin hesabından silinəcəyini qəbul və təsdiq edir.

5.6. Bankın vəzifələri və hüquqları

5.6.1. Bank aşağıdakıları öz öhdəsinə götürür:

5.6.1.1. Müştərinin Bankda olan kart hesab(lar)ındakı vəsaiti üzrə sərəncam vermək.

5.6.1.2. Bank Müştərinin Müraciət Forması əsasında İnternet/Mobil Bankçılıq sistemində mobil telefon nömrəsini qeydiyyatdan keçirmək, mobil telefon nömrəsi üzrə qeydiyyat məlumatlarını dəyişdirmək və mobil nömrə üzrə Mobil Bank xidmətinə bu Müqaviləyə uyğun olaraq xitam vermək öhdəliklərini qəbul və bəyan edir. Müştərinin mobil telefonunun itirilməsi halında Müştərinin Banka şifahi müraciəti əsasında Bank həmin Müştərinin Mobil Bank xidmətini operativ olaraq bloklaşdırır.

5.6.2. Bank aşağıdakı hüquqlara malikdir:

5.6.2.1. Müştəri tərəfindən Banka təqdimedilən Müraciət Forması və digər sənədlər üzrə məlumatların düzgünlüyünü və tamlığını yoxlamaq;

5.6.2.2. Müştəriyə məxsus olan şəxsi məlumatların emalını həyata keçirmək, və həmçinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bu Müqavilənin icrası məqsədilə şəxsi məlumatlarının emalı üçün üçüncü şəxsləri cəlb etmək;

5.6.2.3. Müştərini əvvəlcədən məlumatlandırmaqla İnternet/Mobil Bankçılıq xidmətindən istifadə imkanını məhdudlaşdırmaq;

5.6.2.4. Müştəriyə İnternet/Mobil Bankçılıq xidmətlərinin təminatını aşağıdakı hallarda dayandırmaq:

Müştərinin hesab(lar)ında bu Müqaviləyə uyğun xidmət haqlarını ödəmək üçün kifayət qədər vəsait olmadıqda; Müştərinin Bank tərəfindən bu Müqavilə və/və ya Azərbaycan Respublikası qanunları ilə zidd olan əməliyyatları həyata keçirdiyi hallarda.

5.6.2.5. Bu Müqaviləyə və (və ya) Tariflərə Müştəriyə öncədən yazılı, yaxud da şifahi şəkildə internet və/və ya digər əlaqə/informasiya kanalları ilə xəbərdarlıq edərək dəyişikliklər etmək.

5.6.2.6. Bank Ağıllı Açar, Ağıllı Mobil, Ağıllı Sms və digər əlavə təhlükəsizlik vasitələrindən istifadə edərək həyata keçirilən xidmətləri bir tərəfli olaraq müəyyənləşdirmək, istifadə şərtlərini hazırlamaq və dəyişdirmək, istifadələrini əməliyyat əsaslı əlavə şərtlərə təhkim etmək

səlahiyyətinə sahibdir.
5.6.2.7. Bank Müştəriyə verdiyi Müştəri Nömrəsi kimi hesaba giriş vasitələrini təhlükəsizlik səbəbilə bir tərəfli olaraq hər zaman dəyişdirmək, qismən və ya tamamən istifadəyə bağlamaq səlahiyyətinə malikdir.
5.7. Müştərinin hüquq və öhdəlikləri
5.7.1. Etiraz hüququ. Müştərinin hesabdan çıxarış vasitəsilə bildirilən borc və ödənişlər haqqında qeydlərə dair etiraz etmək hüququ vardır. Müştəri öz etirazlarını hesabından silinmə tarixindən 1 (bir) təqvim ayı ərzində yazılı şəkildə Banka bildirməlidir. Əks təqdirdə həmin əməliyyatlar Müştəri tərəfindən qəbul edilmiş hesab ediləcəkdir. Bundan əlavə Müştəri etiraz və İnternet/Mobil Bankçılıq xidməti ilə bağlı meydana çıxacaq bütün anlaşmazlıqlarda Bankın sənədlərinin və kompüter məlumatlarının qəti dəlil olacağını, onlara etiraz etməyəcəyini qəbul edir və öhdəsinə götürür.
Müştəri müqavilənin icrasına təsir edəcək hər hansı halla bağlı *0444 və ya (+99412) 4977652 nömrələri vasitəsilə Bankın Telefon Mərkəzinə müraciət edərək və ya Bankın bu Müqavilədə qeyd olunmuş telefon nömrələri eləcə də digər əlaqə vasitəsilə Banka məlumat verə bilər. Lakin xətlərin məşğulluğu və ya hər hansı digər texniki səbəbdən Müştəri tərəfindən bu cür məlumatların verilməməsi Bank üçün hər hansı öhdəlik yaratmır və Müştərini bu Müqavilə ilə müəyyən edilmiş öhdəliklərindən azad etmir.
5.7.2. Müştəri aşağıdakıları öz öhdəsinə götürür:
5.7.2.1. Müştəri, İnternet/Mobil Bankçılıq xidməti ilə əlaqədar Bank tərəfindən hazırlanmış və ona yazılı, yaxud da şifahi şəkildə internet və/və ya digər əlaqə/informasiya kanalları ilə yenilənmiş vəziyyətdə çatdırılan/çatdırılacaq bütün məlumatlandırmalara tam şəkildə əməl edəcək.
5.7.2.2. Müştəri, bu Müqavilə çərçivəsində olan əməliyyat və xidmətlərlə əlaqədar Banka yazılı, şifahi, internet və/və ya elektron sistemlər və/və ya Mobil Bankı vasitəsilə verdiyi məlumatların hamısının düzgün, bütöv və tam olduğunu, məlumatlar düzgün, bütöv və tam olmadığı halda, yaranacaq zərərlərə görə Bankın məsuliyyət daşımayacağını qəbul və bəyan edir.
5.7.2.3. Müştəri, bu Müqavilə çərçivəsindəki xidmətlər və hesabları ilə əlaqədar olaraq, təsdiqləyici məlumatların aparılan əməliyyatlar üzrə İnternet/Mobil Bankçılıq sistemi vasitəsilə Bank tərəfindən göndərilənlərdən ibarət olacağını qəbul edir.
5.7.2.4. Müştəri, Əlavə Təhlükəsizlik Vasitələri üçün təyin etdiyi mobil telefon nömrəsinə gələn şifrələri məxfi və təhlükəsiz şəraitdə saxlamağa, hər bir halda üçüncü şəxslərin öyrənmələrinə və/və ya istifadələrinə icazə verməyəcəyinə, mobil telefonuna gələn şifrələrin şəxsən öz tərəfindən tələb və qəbul edilməsinə, əlavə təhlükəsizlik vasitələri ilə həyata keçirilən əməliyyatlara götə özü məsuliyyət daşıyır.
5.7.2.5. Bankın Müştəriyə İnternet/Mobil Bankçılıq xidməti vasitəsilə etdiyi və edəcəyi bildirişlər Müştəriyə şəxsən bildirilmiş xəbərdarlıq xarakterini daşıyır. Müştəri bu bildirişlərin İnternet/Mobil Bankçılıq vasitəsilə edilməsi halında ona bildirilməmiş olduğuna dair hər cür etiraz və rədd haqlarının bu Müqavilə ilə istisna edildiyini qəbul və bəyan edir.
5.8. Müəlliflik hüquqlari üzrə təminatlar.
Müştəri, İnternet/Mobil Bankçılıq xidmət çərçivəsində təqdim olunan mal və xidmətlər və onların təqdim olunması ilə əlaqədar hər cür vizual və səsli materialların Bankın müəlliflik hüquqları daxilində olduğunu və bunlardan Bankın icazəsi olmadan heç bir şəkildə istifadə etməyəcəyini qəbul və bəyan edir. Müştəri, Bank tərəfindən verilmiş proqramların müəlliflik hüququnun Banka aid olduğunu, bu proqramları heç bir halda çoxaldıb yaymayacağını öhdəsinə götürür.
Müştəri, Ağıllı Açar, Ağıllı Mobil, Ağıllı Sms və gələcəkdə Bank tərəfindəntəqdimolunacaq hərcürəlavə təhlükəsizlik vasitələrinin müəlliflik və sənaye mülkiyyət hüquqlarının Banka məxsus olduğunu qəbul və bəyan edir.
5.9. İnternet/Mobil Bankçılıq xidmət haqqı:
İnternet/Mobil Bankçılıq xidmət haqqı Bank tərəfindən müəyyən edilmiş Tariflərə uyğun təyin olunur. Müştəri İnternet/Mobil Bankçılıq xidmətinə qoşulmaq üçün müvafiq xidmət haqqını əvvəlcədən ödəyir. Təyin olunmuş xidmət haqqı nağd şəkildə qəbul edilə, Müştərinin hesab(lar)ından silinə və ya borc kimi yazıla bilər. İnternet/Mobil Bankçılıq xidməti üzrə Tariflərdə göstərilmiş faiz, komissiyalar və digər ödəmələr tətbiq olunur.
İnternet/Mobil Bankçılıq xidmət haqqı Bankın təqdim etdiyi Əlavə Təhlükəsizlik Vasitələrindən istifadə haqqını daxil etmir. Əlavə təhlükəsizlik vasitələrinə dair xidmətlərə görə Bank ayrıca Tarifləri və digər ödəmələri müəyyən edir.
Bank xarici valyutanın konvertasiyasına görə xidmət haqqı almaq hüququna malikdir. İnternet/Mobil Bankçılıq xidməti üzrə ödəmələr hesab(lar)ın valyutasına müvafiq olaraq qəbul edilir. Ödəmələrdə Bank tərəfindən müəyyən edilən valyuta məzənnələri Bank tərəfindən əsas kimi götürülür.
Müştərinin internet və/və ya elektron sistemlər və/və ya Mobil Bank vasitəsilə təqdim olunan xidmətlərlə əlaqədar apardığı xarici valyuta əməliyyatlarının AZN-ə çevrilməsində və ya AZN-dən xarici valyutaya çevrilməsində Bankın müəyyənləşdirdiyi valyuta mübadiləsi üzrə xidmət haqqı tətbiq olunur.
5.10. İnternet/Mobil Bankçılıq xidmətinin fəaliyyətinin dayandırılması və ləğvi.
Bank lazım bildiyi hallarda Müştəriyə 15 (on beş) təqvim günü əvvəl yazılı, yaxud da şifahi şəkildə internet və/və ya digər əlaqə/informasiya kanalları ilə bildiriş verərək İnternet/Mobil Bankçılıq xidməti vasitəsilə təqdim olunan xidmətlərin əhatəsini məhdudlaşdıra, genişləndirə, qismən və ya tamamən dayandıra bilər. Bank bu xidmətlərə dair giriş, təsdiq, ləğvetmə və s. prosedurlarla əlaqədar dəyişiklik tətbiq edə bilər. Müştəri bu dəyişiklikləri elektron sistemdə tətbiq edərək, onlara müvafiq hərəkət etməyi, əks təqdirdə və/və ya xidmətin dayandırılması səbəbilə yarana biləcək zərər və itkilərə görə Bankın heç bir məsuliyyət daşımayacağını qəbul edir.
Bank, Müştərinin internet və/və ya elektron sistemlər və/və ya Mobil Bank vasitəsilə təqdim olunan xidmətlərdən bu müqavilədə müəyyən olunan məqsədlər xaricində və / və ya qanunvericiliyə zidd olaraq istifadəsini müşahidə etdiyi zaman, müştəriyə əvvəldən xəbərdarlıqetmədən

bu xidmətlərin göstərilməsini müvəqqəti və daimi olaraq dayandıra bilər.
Bank öz təşəbbüsü ilə Müştərinin İnternet/Mobil Bankçılıq xidməti və Əlavə Təhlükəsizlik Vasitələrindən istifadə üçün təyin edilmiş mobil nömrəsinin istifadəyə bağlanması, xəttin ləğv edilməsi, üçüncü şəxsə ötürülməsi və ya Müştərinin adına qeyd olunmaması, Müştərinin bu Müqavilənin maddələrinə və Azərbaycan Respublikası qanunvericiliyinə zidd hərəkət etdiyini göstərən hallarda bu Müqaviləni ləğv etmə hüququna malikdir.
Müştəri Banka 15 (on beş) təqvim günü əvvəlcədən yazılı xəbərdarlıq verərək İnternet/Mobil Bankçılıq xidmətini dayandırmaq və ya bu Müqaviləyə xitam vermək hüququna malikdir.
5.11. Məsuliyyətin məhdudlaşdırılması.
Müştəri onun və/və ya sistem idarəçilərinin aparacağı bütün əməliyyatlar nəticəsində ona, üçüncü şəxslərə və/və ya Banka dəyə biləcək zərərə görə məsuliyyət daşıyacağını, bütün bu məsələlərlə əlaqədar Bankın heç bir öhdəlik daşımadığını əvvəldən qəbul və bəyan edir. Müştərinin öz hesabı ilə əlaqədar verdiyi səhv məlumatlar, hər hansı bir zərər və ya qarışıqlığa yol açacaq internet/mobil vasitələri ilə qüsurlu sorğular təqdim olunmasıyla əlaqədar yarana biləcək anlaşılmazlıqlara görə Bank məsuliyyət daşımır.

Müştəri sorğularına əsasən Bank tərəfindən aparılacaq hər bir debitor və kreditor qeydi Bankın qeyd və sənədlərində dərhal öz əksini tapacaqdır. Müştərinin verdiyi sorğulara dairəməliyyatların həyata keçirilmə vaxtı ilə əlaqədar uyğunsuzluqlar olduğu halda Bank qeydlərinin və əməliyyatın həyata keçirildiyi vaxtda olan faiz və dəyərlərin əsas götürüləcəyini Müştəri qəbul və bəyan edir.
Müştəri Bank sistemində, mobil operatorun sistemində və/və ya digər rabitə sistemlərində və internet şəbəkələrində yarana biləcək gecikmə və nasazlıq səbəbindən həyata keçirə bilmədiyi əməliyyatlar üçün və ya mobil operatoru və ya digər rabitə sistemlərindən irəli gələcək təhlükəsizliyin pozulması və hər cür gecikmə və nasazlıq səbəbindən yaranacaq zərərlər üçün Bankdan hər hansı bir təzminat tələbetməyəcək.
5.12. Məlumatın açıqlanmaması.
Müştəri, İnternet/Mobil Bankçılıq vasitəsilə göstərilən xidmətlərdən yararlanmaq üçün ona verilən Müştəri nömrəsi, Şifrə, Bir dəfəlik şifrə və istifadəçi məlumatlarını məxfi saxlamaqöhdəliyi daşıyır. Bank Müştəri tərəfindən həmin məlumatın açıqlanması nəticəsində vurulmuş ziyana görə heç bir məsuliyyət daşımır.
Müştəri nömrəsi, Şifrə, Bir dəfəlik şifrə və istifadəçinin şəxsi məlumatları hər hansı bir səbəblə açıqlandığı halda dərhal Bankı xəbərdar edir və şifrə Bank tərəfindən ləğv edilir. Müştəri, İnternet/Mobil Bankçılıq xidməti ilə bağlı bütün məsələlərə aid məlumatları Bank tərəfindən Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun surətdə müvafiq dövlət orqanlarına və başqa dairələrə verilə biləcəyini əvvəlcədən qeyd-şərtsiz qəbul edir. Müştəri bu Müqavilənin icrası məqsədilə Bank tərəfindən Müştərinin şəxsi məlumatlarını saxlamaq və emal etmək hüququnu, yəni həmin məlumatların toplanması, saxlanması, emalı, istifadəsi üzrə hüququnu qəbul, təsdiq və bəyan edir.
5.13. Digər müddəalar.
Müştəri İnternet/Mobil Bankçılıq xidmətinə bağlı bütünhesablarına (əməliyyatlarına) görə bu Müqavilə çərçivəsində eyni dərəcədə məsuliyyət daşıyır. Müştəri tərəfindən Banka təqdim olunan elektron sənədlər imzalanmış sənədlərlə bərabər hüquqi qüvvəyə malik olacaq. Müştəri İnternet/Mobil Bankçılıq xidməti çərçivəsində təqdim olunan xidmətlər, təhlükəsizlik vasitələri və həyata keçiriləcək əməliyyatlar və bununla bağlı olaraq veriləcək hərhansı çıxarış və qeydlər Bank tərəfindəninternet vasitəsilə və ya elektron formada təqdimolunması səbəbindən onları etibarsız hesab etməyəcəyini bəyan və qəbul edir.
İnternet/Mobil Bankçılıq xidməti çərçivəsində təqdim olunan xidmətlər, təhlükəsizlik vasitələri və həyata keçiriləcək əməliyyatlar və bununla bağlı olaraq veriləcək hər hansı çıxarış və qeydlər məhkəmədə, dövlət, ictimai və özəl qurumlarda sübut kimi istifadə edilə bilər.

6. Zaminlik üzrə maddələr/müddəalar

Bu müqavilə üzrə "Müştəri"\"Borcalan"\"Kart\əlavə kart sahibi"nin "Bank"\"Borcverən" qarşısında öhdəliklərinin icrasının təmini olaraq "Zamin" "Müştəri"\Borcalan\"Kart\əlavə kart sahibin"ə zamin durur və onun öhdəliklərinə görə "Bank"\"Borcverən" qarşısında "Müştəri"\Borcalan\"Kart\əlavə kart sahibi" ilə tam birgə məsuliyyət daşıyır. "Zamin" razılaşır, təsdiq və bəyan edir ki, "Müştəri"\Borcalan\"Kart\əlavə kart sahibi" tərəfindən bu müqavilə üzrə üzərinə düşən öhdəlikləri pozulduqda, icra edilmədikdə və ya lazımınca icra edilmədikdə, "Bank"\"Borcverən" "Zamin"in "Yapı Kredi Bank Azərbaycan" QSC-dəki hər hansı bir hesabındakı pul vəsait(lər)ini, "Müştərinin"\Borcalan\"Kart\əlavə kart sahibi"nin yaranmış bütün borcu miqdarında (əsas borc, faiz, gecikdirilmə faizləri, və s. daxil) onun sərəncamı olmadan "Müştərinin"\"Kart\əlavə kart sahibi"nin borcu əvəzinə mübahisəsiz qaydada onun istənilən hesab(lar)ından silmək və\və ya "Müştəri"\Borcalan\"Kart\əlavə kart sahibi"nə qarşı olan (irəli sürülmüş) tələb miqdarında (məbləğində) hesab(lar)dakı məxaric əməliyyatlarına məhdudiyyətlər qoymaq hüququna malikdir. Zaminliyə, "Müştərinin"\"Kart \əlavə kart sahibi"nin "Bank"\"Borcverən" qarşısında öhdəliyinin xitamı ilə əlaqədar xitam verilir;
"Zamin" razılaşır, bəyan və təsdiq edir ki, "Müştəri"\Borcalan\"Kart\əlavə kart sahibi"nin "Bank"\"Borcverən" qarşısında öhdəliklərinin icra edilməməsi və ya lazımınca icra edilməməsi səbəbindən yaranmış (ödənilməmiş) borcların geri qaytarılmasının təmin edilməsi məqsədilə Bank borcun qaytarılmasını üçüncü şəxslərə tapşırmaq və bu məqsədlə qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tətbirlərin həyata keçirilməsi üçün (məhkəmə instansiyalarına\orqanlarına müraciət və s.) kart/əlavə kart sahibi ilə yanaşı zaminə aid olan məlumatların da həmin şəxslərə təqdim etmək, bu işlərin aparılmasına görə həmin şəxslərə ödənilən xərclərin və yaxud çəkilən (çəkilməli olan) məsrəfləri (xərcləri) "Müştəri"\Borcalan\"Kart\əlavə kart sahibi" ilə yanaşı zamindən də tələb etmək (tutmaq/almaq) hüququna malikdir.

7. Beynəlxalq kart təşkilatları (MasterCard, Visa və s.) tərəfindən qəbul edilmiş "məsuliyyətin ötürülməsi qaydası"nın

(liability shift rule) tətbiq olunmadığı ölkələrdə əməliyyatların aparılmasına dair şərtlər.

Çip kart üzrə öhdəliyinin (məsuliyyətin) ötürülməsi o deməkdir ki, EMV (Europay, MasterCard və Visa) çip kart platformasına keçən ölkədə və\və ya regionda saxta və\və ya fırıldaqçılıq əməliyyatı baş verdiyi halda əməliyyat üzrə öhdəlik (məsuliyyət) qeyri-çip kart istiqamətli tərəfə (şikayətçi tərəfə) ötürüləcəkdir (keçəcəkdir).

Əlavə olaraq, əgər PIN beynəlxalq kart təşilatları tətbiq edilən regionda və ya ölkədə üstünlük verilən və ya tələb edilən CVM-dirsə (card verification method – kartın müştəriyə aid olub-olmamasını yoxlama vasitələri) hər hansı bir müştəri (müştəri\kart\əlavə kart sahibi) Çip/PIN əməliyyatlarını dəstəkləmək qabiliyyətinə malik olmadıqda beynəlxalq kart təşkilatları əməliyyatlarında saxtakarlıqla nəticələnən itirilmiş, oğurlanmış və ya heç vaxt qəbul edilməmiş kartlar üçün həmin müştəri (müştəri\kart\əlavə kart sahibi) məsuliyyət daşıyacaqdır.

8. Beynəlxalq sanksiya qaydaları və Bank siyasətinə uyğunluq.

Müştəri qüvvədə olan OFAC qaydaları, Avropa Birlik qaydaları, Birləşmiş Millətlər Təşkilatının Əmrləri və digər oxşar milli və beynəlxalq qanunvericilik və embarqo qaydalarına uyğun olaraq qadağan edilmiş kimi qəbul edilən şəxs, təşkilat, tərəf və ölkələrlə bağlı hər hansı bir əməliyyatı Yapı Kredi Bank Azərbaycan ("Bank") vasitəsilə həyata keçirməyəcəyini; Yapı Kredi Bank Azərbaycan. vasitəsilə həyata keçirdiyi əməliyyatlardan əldə olunan gəlir və vəsaitləri qeyd olunan qadağan olunmuş ölkələrdə istifadə etməyəcəyini qəbul edir və üzərinə götürür.

Müştəri bu öhdəliklərinə daxil olan məsələlərə zidd olan bir əməliyyat tələbini irəli sürməyəcək, lakin belə bir əməliyyat tələbin olması Bankın istəyi və məsuliyyəti üzrə olduğu müəyyən olunarsa, bu əməliyyat tələbinin Bank tərəfindən rədd edilə biləcəyini, Müştəri tərəfindən həyata keçirilən bank əməliyyatlarının yuxarıda qeyd olunan qaydalar çərçivəsində rədd edilməsi, dayandırılması, qaytarılması, bank hesablarının dondurulması və/və ya hesablardakı məbləğlərin müvəqqəti və ya davamlı müsadirə edilməsi halında və bütün bu səbəblərə görə Bankın heç bir məsuliyyətinin olmayacağını və bu məsələlərdə bütün məsuliyyətin onun öz üzərinə düşdüyünü qəbul və bəyan edir.

Müştəri hər hansı bir şəkildə hazırkı öhdəliyinə zidd olaraq Bank vasitəsilə həyata keçirdiyi əməliyyatlardan və ya həyata keçirdiyi əməliyyatlardan əldə etdiyi gəlir və vəsaiti qadağan edilmiş ölkələrdə istifadə etməsindən irəli gələn bütün məsuliyyətin tamamilə ona aid olduğunu qəbul və bəyan edir.

Müştəri Bank vasitəsilə bu əməliyyatlardan hər hansı birini həyata keçirməsi, Bank tərəfindən bu əməliyyatın/əməliyyatların qəbul ediləcəyi mənasına gəlmədiyini, bu halda bütün məsuliyyətin ona aid olduğunu qəbul və bəyan edir.

Hazırkı öhdəliyin predmeti olan əməliyyatlar və müddəalarla əlaqədar olaraq Müştəri Bankdan ayrı olaraq heç bir tələbi olmayacağını, Bankı bu məsələlərdə əvvəlcədən və dönməz olaraq azad etdiyini qəbul və bəyan edir. Müştəri hazırkı öhdəliyin predmeti olan əməliyyatlarla əlaqədar Bank tərəfindən hər hansı bir üçüncü şəxsə ödəmə edilməsi və/və ya Bankın zərərə uğraması halında qeyd olunan məbləğləri ilk tələb üzrə, yarana biləcək bütün növ faiz, komissiya və xərclərlə birgə dərhal, nağd şəkildə və birdəfəlik olaraq Banka ödəyəcəyini qəti şəkildə bəyan və qəbul edir və öhdəsinə götürür.

9. Bank əmanəti üzrə maddələr\müddəalar.

9.1. Əmanətin məbləği, faiz dərəcəsi, müddəti və s.

9.1.1. «Müştəri» razılaşır ki, bu müqavilənin məqsədləri üçün «Bank» tərəfindən «Müştəri» üçün açılmış müvafiq hesaba daxil olmuş əmanəti (bundan sonra «əmanət məbləği») nağd pul ilə əmanətə yerləşdirəcək, «Bank» isə öz növbəsində razılaşır ki, «əmanət məbləğini» «Müştəridən» qəbul edəcək, onun təhlükəsizliyini qoruyacaq, «əmanət məbləğini» bu muqavilənin şərtlərinə müvafiq qaydada «Müştəriyə» qaytaracaq və həmçinin «Müştəriyə» müvafiq qaydada faiz ödəyəcək (nəzərdə tutulduğu halda).

9.1.2. Əmanətin məbləği, faiz dərəcəsi, müddəti və s. şərtləri tərəflər arasında razılaşdırılaraq imzalanan və bu müqavilənin ayrılmaz tərkib hissəsi\ləri hesab edilən müvafiq rəsmi sənədlərlə (əlavə razılaşma, saziş və s.b.b.) rəsmiləşdirilərək qeyd olunacaqdır. Bank, Müştərinin müraciəti əsasında ona əmanətin müxtəlif növləri üzrə xidmət təqdim edə bilər ki, əmanət məbləğinə hesablanan müvafiq illik faiz dərəcəsinin (bundan sonra «faiz» kimi istinad olunacaq) «Müştəriyə» aylıq\rüblük\müddətin sonunda və s. kimi qaydada olaraq (müvafiq hesabat dövrü (aylıq\rüblük və s. başa çatdıqdan sonra) ödənilməsi şərti ilə olmasıda müəyyən edilə bilər.

9.1.3. «Əmanət məbləğinə» «faiz» əmanət məbləğinin «Banka» daxil olduğu günün ertəsi günündən «Müştəriyə» qaytarılmasından və ya başqa əsaslarla «Müştərinin» hesabından silinməsindən əvvəlki günədək hesablanır.

9.1.4. Aşağıda qeyd edilən hallarda «müştəri» faiz almaq hüququna malik olmur:

a) fors major halları səbəbindən bu müqaviləyə xitam verildikdə.

b) qanunvericliklə və\və ya bu müqavilə ilə nəzərdə tutulmuş digər hallarda.

9.2.Tərəflərin hüquq və vəzifələri.

9.2.1. «Bankın» vəzifələri:

9.2.1.1. bu müqavilənin şərtlərinə müvafiq «Müştəriyə» «faizi» hesablamaq və ödəmək;

9.2.1.2. qanunvericiliyə müvafiq olaraq bu müqavilədən irəli gələn məlumatların məxfiliyini qorumaq;

9.2.1.3. qanunvericliklə nəzərdə tutulmuş hallar istisna olmaqla birtərəfli qaydada bu Müqavilə ilə müəyyən olunmuş faizləri dəyişdirməmək.

9.2.2. «Bankın» hüquqları:
9.2.2.1. Bu müqavilənin məqsədləri, o cümlədən hesabın açılması üçün tələb olunan və ya müvafiq hesab edilən sənəd və məlumatları «Müştəridən» tələb etmək;
9.2.2.2. Əmanətin qeyri-qanuni yolla əldə edilməsi aşkar olunduqda əmanəti qəbul etməmək və\və ya bununla bağlı qanunvericilikdə nəzərdə tutulmuş müvafiq tədbirləri görməklə müqaviləyə xitam vermək.
9.2.2.3. «Müştərinin» «Bank» qarşısında müəyyən edilmiş hər hansı bir öhdəlikləri icra edilmədikdə və ya lazımınca icra edilmədikdə, əmanətindəki (hesabındakı pul) vəsaitini ona («müştəriyə») qarşı olan (irəli sürülmüş) tələb miqdarında (məbləğində) «Müştərinin» sərəncamı olmadan borcu (öhdəlikləri) əvəzinə mübahisəsiz qaydada «Müştərinin» hesabından silmək və\və ya «Müştəriyə» qarşı olan (irəli sürülmüş) tələb miqdarında (məbləğində) hesabdaki məxaric əməliyyatlarına məhdudiyyətlər qoymaq.

9.2.2.4. "Müştəri" əvvəlcədən qəbul, təsdiq və bəyan edir ki, "Bank" Müştərinin təmin\təqdim etdiyi əlaqə vasitələrinə öz reklam və xəbərdarlıq məlumatlarını göndərmə və həmin əlaqə vasitələri ilə birbaşa iki tərəfli əlaqə qurmaq hüququna malikdir.
9.3. «Müştərinin» vəzifələri:
9.3.1. «Bank» tərəfindən tələb olunan bütün sənəd və məlumatları təqdim etmək. Ünvanı, rekvizitləri, ş.v., telefonları, habelə səlahiyyətli təmsilçilərinə münasibətdə hər-hansı dəyişikliklər barədə «Banka» dərhal məlumat vermək.
9.3.2. Bu müqavilənin müddəti sona çatdıqda (müqaviləyə xitam verildikdə) əmənət məbləğini, müqavilənin müddətinin başa çatmasınadək müvafiq qaydada hesablanmış və ödənilməli olan bütün faizlərlə birlikdə, "Bankdan" götürmək. "Müştəri" qəbul, təsdiq və bəyan edir ki, bu müqavilənin (əmanətin) müddəti qurtaranadək onun tələbi ilə əmanət məbləği qaytarıldığı təqdirdə, "Bank" əmanət məbləği üzrə ödənilən faizləri əmanət məbləğindən tutaraq\çıxaraq əmanət məbləğini bu müqavilənin şərtlərinə müvafiq qaydada «Müştəriyə» qaytaracaqdır.
9.4. «Müştərinin» hüquqları:
9.4.1. Bu müqavilənin və qanunverciliyin şərtlərinə riayət etməklə «əmanət məbləğinin» qaytarılmasını və «faizləri» ödənilməsini tələb etmək;
9.4.2. «Əmanət məbləğinə» dair hesabdan rübdə bir dəfədən artıq olmayaraq pulsuz çıxarış almaq;
9.5. Bu müqavilənin hər-hansı bəndi ilə müəyyən edilmiş hüquq və hüquq müdəfiyə vasitələri «Banka» və və\ya «müştəriyə» münasibətdə bəradər tətbiq olunur və tərəflərin bu müqavilənin digər bəndləri və ya qanunvericiliklə malik olduğu hər-hansı digər hüquq və hüquq müdafiyə vasitələrini istisna və əvəz etmir. Əmanət müddəti bitdikdən sonra Əmanət məbləğinə heç bir faiz hesablanmır.
9.6. Əmanətlərin Sığortalanması Fondu, «Bank» və «Əmanətçi»
9.6.1. Bank Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra – «Fond») iştirakçısı olaraq Fonda sığorta haqqı ödəyir (bu haqq Əmanətçidən tutulmur).
9.6.2. «Bank» tərəfindən «əmanətçidən» bütün müvafiq valyutalarda qəbul edilmiş əmanətlər qanunvericiliklə müəyyən edilmiş qaydada Fond tərəfindən sığortalanır.
9.6.3. Sığorta hadisəsi- «Bankın» məcburi ləğv edilməsi və ya müflis elan olunması, yaxud qanunvericiliyə müvafiq olaraq əmanətlər üzrə öhdəliklərin yetirilməsinə moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və bankın əmanətçilər qarşısında öz öhdəliklərini qanun və ya müqavilə şərtlərinə uyğun yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikası Mərkəzi Bank tərəfindən təsdiq edilməsidir.
9.6.4. Sığorta hadisəsi baş verdikdə, Fond aşağıdakı kütləvi informasiya vasitələrində birində və\və ya bir neçəsində müştəriyə (əmanətçiyə) kompensasiyanın ödənilməli yeri və vaxtı barədə elan verir: AzTV; Ictimai TV; «Azərbaycan», «Respublika», «Xalq» qazetləri, AzərTAc informasiya agentliyi; APA informasiya agentliyi.
9.6.5. Əmanətlərin Sığortalanması Fondundan kompensasiya almaq üçün «müştəri» (əmanətçi) kütləvi informasifa vasitələrində göstərilən qaydada və yerə ərizə ilə müraciət edərək aşağıdakı sənədləri ərizəyə əlavə edir:
- şəxsiyyət vəsiqəsini və ya şəxsiyyətini təsdiqləyən digər sənəd;
- əmanət kitabçasını və ya əmanəti təsdiqləyən digər sənəd;
- Bank əmanəti müqaviləsini.

Ərizə verildiyi tarixdən etibarən 90 gün ərzində Əmanətlərin Sığortalanması Fondu «müştəriyə» kompensasiya ödəməlidir.
9.6.6. Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:
9.6.6.1. bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;
9.6.6.2. qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;
9.6.6.3. cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;
9.6.6.4. üzərinə həbs qoyulmuş əmanətlər;
9.6.6.5. Azərbaycan Respublikası Mərkəzi Bankı ilə razılaşdırmaqla Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən qorunan əmənətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsinin yuxarı həddindən artıq faizlə qəbul edilmiş əmanətlər;

9.6.6.6. fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi) min manatdan yuxarı pul vəsaitləri;
9.6.6.7. fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri;
9.6.6.8. Qanunvericiliklə qorunan əmanətlərə aid edilməyən digər əmanətlər.
9.7. Sığorta hadisəsi baş verdikdə Fond qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş qaydada və müəyyən edilmiş illik faiz dərəcəsi hədində (qanunla qorunan əmanət) «Əmanətçiyə» (müştəriyə) qanunvericilikdə müəyyən olnmuş məbləğdə kompensasiya ödəyir. Sığorta hadisəsi baş verdiyi günə əmanətçinin iştirakçı bank qarşısında vaxtı çatmış öhdəliyi olduqda əmanət üzrə kompensasiya hesablanmış faizlər də daxil olmaqla əmanətçinin bank qarşısında icra edilməyən öhdəliyinin hissəsi qorunan əmanətinin məbləğindən çıxılmaqla qalıq hissəsi üzrə ödənilir.

9.8. «Müştəriyə» Əmanətlərin Sığortalanması Fondu tərəfindən kompensasiya milli valyutada olan əmanət üzrə manatla, digər xarici valyutada olan əmanətlər üzrə isə həmin əmanətlərin valyutasında ödənilir. Əmanətlər ABŞ dolları və ya Avroda olmadıqda, kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir. Əmanətlər üzrə faizlər sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə ödənilir, bu şərtlə ki, kompensasiya bu müqavilədə göstərilən məbləğdən artıq olmasın.
9.9. əmanətçinin (müştərinin) bankda, o cümlədən bankın yerli filiallarında və şöbələrində bir neçə əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada əmanətləri olduqda onlar toplanır və bir əmanət kimi kompensasiya olunur.
9.10. «Bank» «müştərinin» yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın sığorta sistemində iştirakı, qorunan əmanətlər və kompensasiyalar barədə ona məlumat verir.
9.11. «Müştəri» (əmanətçi) aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsi ilə Fondla əlaqə saxlıya bilər: AZ1014, Bakı şəhəri, Bül-Bül prospekti 40 ; əlaqə tel: (99412) 596 65 91, 596 65 92, 596 65 93; Faks: (99412) 596 65 94; qaynar xətt: 941; e-mail: adif@adif.az; sayt: www.adif.az
9.12. Fors major. Bu Müqavilənin icrasına qarşısıalınmaz qüvvə təsir göstərərsə, Bank öhdəliklərinin pozulması və ya öhdəliklərini lazımınca yerinə yetirməməsi üçün məsuliyyət daşımır. Qarşısıalınmaz qüvvənin təsirinə Bank tərəfindən nəzarət edilməyən, onun səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara göstərilənlərlə məhdudlaşdırılmayaraq müharibə, kütləvi iğtişaş, yanğın, zəlzələ, daşqın, tufan, epidemiya, epizootiya, karantin, ümumi tətillər, vətandaş qarşıdırması, dövlət və hökümət qərarları və bu kimi digər hallar aid edilir. Fors-major halları 30 gün və ya ondan artıq davam edərsə tərəflərdən biri 5 gün əvvəl digərini rəsmi qaydada məlumatlandırmaqla müqaviləyə xitam verə bilər
9.13. 6.Digər şərtlər
9.13.1. «Müştəri», qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, «Bankın» yazılı razılığı olmadan hazırki müqavilə ilə müəyyən edilmiş hər-hənsı hüquqlarını və öhdəliklərini güzəşt etmək hüququna malik deyil.
9.13.2. Tərəflər razılaşır ki, «Bank» əmanət kitabçasını «Müştəriyə» təqdim etmək üçün öhdəlik daşımır, lakin özünün mülahizəsinə görə əmanət kitabçasını hər-hansı məqamda «Müştəriyə» təklif edə bilər.
9.13.3. Müqavilə imzalandığı gündən qüvvəyə minir. Bu müqaviləyə edilən əlavə və dəyişikliklər yazılı formaya riayət edildikdə və hər iki tərəf imzaladıqda etibarlıdır.

10. Depozit (seyf) qutusu üzrə maddələr\müddəalar.

10.1. Depozit qutularında qanunla qadağan olunmuş əşyalar (odlu və soyuq silah, narkotik maddələr, radioaktiv, kimyəvi, partladıcı maddələr və s.) saxlanıla bilməz. Depozit qutuları yalnız qiymətli kağızlar, zinyət əşyaları, sənədlər və digər daşına bilən qiymətli əşyaların saxlanılması və mühafizəsi üçün nəzərdə tutulub. Bank mühafizə və təhlükəsizlik məqsədi ilə müştərinin iştirakı ilə depozit qutusunun içindəkiləri yoxlamaq və bunun üçün müştərini banka dəvət edib depozit qutusunu açdırmaq hüququnu özündə saxlayır.
10.2. Bank icarəyə verdiyi depozit qutusunun içində saxlanılanlar üzündən əmələ gələn heç bir problemə cavabdeh deyil və onlar hər hansı bir qəzadan və ya bankdan asılı olmayan digər səbəblərdən zərər çəkərsə bank buna görə də cavabdehlik daşımır.
10.3. Müştəri bu müqavilədə göstərilən şərtləri qəbul etdiyi təqdirdə depozit qutusunun iki açarını bankdan təhvil alır. Bu açarların biri və ya hər ikisi itirilsə, müştəri dərhal Bankı yazılı şəkildə xəbərdar etməlidir. Əks təqdirdə bank bu səbəbdən baş vermiş hər hansı problemə cavabdeh deyildir. Hər iki açarın itirildiyi halda Bank müştərinin iştirakı ilə depozit qutusunu açа bilər. Ancaq açarın birinin itirildiyi halda depozit qutusunun kilidi mütləq dəyişdirilməlidir. Kilidin dəyişdirilməsi və ya qırılmasından yaranan təmir xərclərini müştəri ödəyir. Bununla yanaşı müştəri açarın\ların itirilməsinə görə Banka müəyyən edilmiş məbləğində cərimə ödəyir.
10.4. Müştəri açarları qutunun üstündən öz əli ilə çıxarmalıdır. Bank, müştəri açarı depozit qutusunun üstündə unudarsa, heç bir məsuliyyət daşımır.
10.5. Müştəri depozit qutusundan digər şəxsin istifadə edə bilməsi üçün bankın verdiyi nümunə əsasında vəkalətnamə verə bilər. Bununla bərabər vəkalətnaməni istifadə edəcək şəxsin kimliyi Bankla razılaşmalıdır. Bu vəkalətnamə Bankın məsul işçisinin iştirakı ilə müvəkkil və (və ya) vəkil tərəfindən imzalandıqdan sonra bank tərəfindən təsdiq edilib qeydə alınır.

Müştəri, eyni zamanda bir nəfərdən artıq şəxsə vəkalətnamə verə bilməz. Həmin vəkalətnamə ancaq yazılı şəkildə ləğv edilə bilər. Vəkalətnamə ləğv olunduqda Bank yazılı şəkildə xəbərdar edilməzsə, vəkalətnamə qüvvədə qalır. Tərəflər, hər hansı bir səbəbdən, vəkalətnamənin qüvvədən düşdüyünü Banka yazılı şəkildə bildirməyənə qədər Bank bundan xəbərdar olunmuş sayıla bilməz.

10.6. Müştəri və ya vəkili hər dəfə xəzinəyə girərkən bankın tərtib etdiyi blankda tarix, saat göstərilməli və imzalanmalıdır. Bu tələbin müştəri və ya vəkili tərəfindən pozulması səbəbindən yarana biləcək məsələlərə görə Bank cavabdehlik daşımır və istədiyi zaman həmin tələbin yerinə yetirilib-yetirilmədiyini yoxlamaq hüququnu özündə saxlayır.

10.7. Müxtəlif şəxslər depozit qutusunu ortaq olaraq icarəyə götürmüşlərsə, onlardan hər hansı biri depozit qutusunu açmaq üçün kassa dairəsinə tək də girə bilər və bank bundan irəli gələn hər hansı məsələyə cavabdeh deyil. Əgər ortaqlar (arasında bu barədə razılıq əldə edilməyibsə, onların hamısının kassa dairəsinə birgə girmək və ya müştərək vəkil (vəkalətli şəxs) göndərmək məcburiyyətindədirlər.

10.8. Müştərinin vəfat etdiyi halda, qutunun içindəkilər onların sahibi tərəfindən müəyyən edilmiş vərəsəlik hüququna və Azərbaycan Respublikasının müvafiq qanunvericilinə əsasən istifadə ediləcəkdir.

10.9. Bankın bir binadan digər bir binaya köçməsi halında depozit qutusunu da yeni binaya daşımaq haqqı vardır.

10.10. Müəyyən olunmuş öhdəlik və məhdudiyyətlər qanunla müəyyən edilmiş və ya nəzərdə tutulmuş öhdəlik və məhdudiyyətləri əvəz etmək məqsədi ilə deyil, onlara əlavə olaraq tərtib edilmişdir. Bu hissələrdəkilərin hər hansı bir müddəası qüvvədən duşmüş sayıldıqda və ya onun tətbiqi mümkün olmadıqda, Müqavilənin bütün digər müddəaları öz hüquqi qüvvəsini saxlayacaqdır.

11. Mübahisələrin həlli, tətbiq edilən qanunvericlik

11.1. Bu müqavilə və ya ümumi şərtlər ilə əlaqədar yaranmış mübahisələr qarşılıqlı razılıqla həll edilir. Qarşılıqlı razılıqla həll edilməyən mübahisələr Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının müvafiq məhkəmələri vasitəsilə həll ediləcəkdir.

11.2. Bu Müqavilə, Müqavilədən irəli gələn və\və ya Müqavilə ilə tənzimlənməyən bütün məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzi Bankının normativ xarakterli aktları və digər normativ-hüquqi aktlar ilə tənzimlənir. Hazırkı müqavilə ilə əlaqədar yaranan bütün vergi məsələləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq tənzimlənir.

11.3. Tərəflərdən hər hansı birinin təşəbbüsü və razılığı ilə mübahisələr qanunvericliyin tələbləri daxilində mediasiya qaydasında\sessiyasında həll edilə\baxıla bilər.

12. Əlavə (digər) şərtlər və s.

12.1. Bu Müqavilə və ya Ümumi Şərtlər Bankın _____ internet səhifəsində (keçidində) yerləşdirilir (mövcuddur) və bu müqavilə və ya ümumi şərtlər çərçivəsində (daxilində) müvafiq xidmət və\və ya məhsul ilə bağlı aidiyyəti müqavilə, razılaşma, saziş (birlikdə və\və ya ayrı-ayrılıqda) imzalandığı tarixdən qüvvəyə minir və tərəflər bütün öhdəliklərini tam icra edənədək qüvvədə qalır. Hazırkı Müqavilə və ya Ümumi şərtlər Bankın bütün filial, şöbə, nümayəndəliklərində və ya digər struktur bölmələrində müştərilən istəyinə\müraciətinə əsasən çap (kağız) variantındada (formatında) təqdim edilə (diqqətinə çatdırıla) bilər.

12.2. Bu müqavilə onun məzmununu dəyişilməz formada maddi daşıyıcıda əks etdirməyə imkan verən elektron və ya digər texniki vasitələrin köməyi ilə bağlanıldıqda da yazılı formaya riayət edilmiş hesab edilir və bu halda iradəsini ifadə edən Borcalanı dürüst müəyyən etməyə imkan verən hər hansı üsuldan istifadə olunmuşdursa, imza tələbi yerinə yetirilmiş hesab edilir. Tərəfləri dəqiq müəyyən etməyə imkan verən xüsusi üsul (üsullar) da müəyyənləşdirilə bilər və bu müqavilə tərəflərin imzaladığı bir sənədin\müqavilənin tərtibi yolu ilə, habelə Mülki Məcəlləyə uyğun olaraq məktubların, teleqramların, elektron sənədlərin və ya digər verilənlərin mübadiləsi yolu ilə bağlana bilər.

12.3. Tərəflərin bir-birinə olan bildirişləri, xəbərdarlıqları və s. sənədləri tərəflərin bir birinə hazırda və\və ya sonradan təqdim etdikləri (təqdim edilən) telefon (mobil) nömrələrə, elektron poçt ünvanına, habelə poçt ünvana məktub, sifarişli məktub, teleqram və ya digər ümumi qəbul edilmiş üsulla göndərilir (göndərilə bilər). Həmin ünvana göndərilmiş bildirişlər Tərəflərə çatdırılmış hesab olunacaq və bu zaman Tərəflər göndərilən sənədlərin alınmaması, qəbul edilməməsi və s.b.b. halına istinad edə bilməz. Müştəri bu və ya digər rekvizitlərində, Banka təqdim etmiş telefon nömrəsi və\və ya ünvanında hər hansı bir dəyişiklik baş verdiyi təqdirdə dərhal rəsmi qaydada Bankı məlumatlandırmalıdır. Əksi təqdirdə tərəfin sonuncu məlum olan rekvizitlərinə, ünvanına və s. göndərilmiş hər hansı məlumat (bildiriş və s.) çatdırılmış hesab ediləcək (Müştəri hüquqi və ya poçt ünvanında, mobil nömrə, elektron poçt, poçt (qeydiyyat və\və ya yaşayış yeri) və ya digər rekvizitlərində dəyişiklik olduğunda bu barədə dərhal Bankı xəbərdar etməlidir, əks təqdirdə sonuncu məlum olan ünvan və\və ya rekvizitlər üzrə göndərilmiş müraciətlər, sənədlər, bildirişlər, məktublar və s. buna bənzər müracitlər, sənədlər və s. ünvan sahibinə çatdırılmış hesab olunacaq). Hazırki Müqavilə çərçivəsində Müştəriyə Bank tərəfindən məktub, elektron poçt ünvanı (e-mail), faks, sms, internet\mobil bankçılıq xidməti ilə göndərilən məlumatda yazılı\rəsmi xəbərdarlandığı kimi hesab olunur (hesab olunacaq).

12.4. Tərəflər razılaşırlar ki, hazırki müqavilə və ya ümumi şərtlərin bu və ya digər maddələrində və\və ya müddəalarında (hissələrdə) öz əksini tapan Fərdi məlumatlar və onların qorunması üzrə şərtlər; Beynəlxalq sanksiya qaydaları və Bank

siyasətinə uyğunluq üzrə şərtlər; Beynəlxalq kart təşkilatları (MasterCard, Visa və s.) tərəfindən qəbul edilmiş "məsuliyyətin ötürülməsi qaydası"nın (liability shift rule) tətbiq olunmadığı ölkələrdə əməliyyatların aparılmasına dair şərtlər; zaminlik ilə, imza ilə, reklam ilə bağlı şərtlər hansı hissələrdə öz əksini tapib-tapmasından asılı olmayaraq bu Müqavilə və ya ümumi şərtlər üzrə müəyyən edilmiş bütün müvafiq\aidiyyəti xidmətlərə (və\və ya məhsullara), əməliyyatlara (və\və ya işlərə) və\və ya hallara da şamil ediləcəkdir\tətbiq olunacaqdir (qanunvericiliklə və\və ya bankdaxili qaydalar üzrə nəzərdə tuutlmuş müvafiq tələblər və\ və ya aidiyyəti üzrə tətbiqlərdə nəzərə alınmaqla).

12.5. Bank hüquq və öhdəliklərini Müştərinin razılığı olmadan üçüncü şəxsə sata, ötürə və ya güzəşt edə bilər. Müştəri yalnız Bankın yazılı razılığı ilə belə hüquqa malikdir.

12.6. Bu Ümumi Şərtlərə əlavə və dəyişikliklər Bank tərəfindən birtərəfli qaydada edilə bilər. Müvafiq bank xidmətinə və\və ya məhsuluna görə Bankın tətbiq etdiyi xidmət haqqı üzrə tariflər, komisiyalar və digər ödənişlər (tarif dayişikləridə daxil olmaqla) Bankın rəsmi _____ internet səhifəsində (keçidində) yerləşdirilir. Bank Tarifləri birtərəfli qaydada dəyişmək hüququna malikdir. Bu halda Müştəri/Borcalan xidmətlərin dəyərini yeni Tariflər üzrə ödəyir. Müştəri qəbul, təsdiq və bəyan edir ki, müvafiq əməliyyatları icra etməklə, həmin tariflərlə (komisiyalar, xidmət haqları və s. ödənişlərlə) razı olduğunu və onalrın həmçinin onun Bankda olan hesablarındanda mübahisəsiz (akseptsiz) qaydada tutulmasına razılığınıda bildirir. Müştəri müəyyən olunan xidmət tariflərinin, haqlarının və şərtlərin dəyişdirilməsi ilə razı olmadıqda, qeyd olunan xidmətin göstərilməsinə xitam verə bilər.

12.7. Müştəri bu Müqaviləni bağlamaqla Müqavilənin bütün maddələrinin\müddəalarının hamısını oxuduğunu, bütün müddəalarını başa düşdüyünü və qəbul etdiyini, Müqavilənin bütün müddəalarının barəsində etibarlı və keçərli olacağını, Müqavilənin bağlanması və icrası zamanı mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan, o cümlədən rəqəmsal alətlər vasitəsilə təsdiq, habelə elektron sənəd mübadiləsi üsulundan istifadə edilməsinədə (bu qaydada aparılmış işləmlərin əsl əl imzası ilə bərabər hüquqi qüvvəyə malik olacağına\əsl əl imzası ilə imzalanmış kimi qəbul ediləcəyinə) razı olduğunu, ümumi şərtlərin mətninin Bank tərəfindən Müştəriyə izah edildiyini, üzərinə düşən öhdəliklərinin lazınmınca icra olunmasına görə məsuliyyət daşıdığını, hər səhifəni imzalamağa ehtiyac olmadığınıda qəbul, bəyan və təsdiq edir (qəbul, bəyan və təsdiq etmiş olur).

12.8. Bu və ya digər səbəbdən hazırki Müqavilənin hər hansı bir bəndinin etibarsız hesab edilməsi müqavilənin bütövlükdə etibarsız hesab edilməsinə səbəb olmur.

12.9. **Maliyyə xidmətləri istehlakçıları üçün məlumat.** Maliyyə xidmətləri istehlakçılarının həmin xidmətləri istehlak edərkən qarşılaşdığı çətinliklər və suallarla əlaqədar +994124935058 telefon nömrəsi və +99412966 qaynar xətti ilə Mərkəzi Banka (ünvan: Bakı şəhəri, R.Behbudov küçəsi 90; https://cbar.az/) müraciət edə bilərlər. Bank xidmətlərindən istifadə zamanı yaranmış olan şikayət və təkliflərıniz üçün Banka və ya Bankın filiallarına birbaşa yaxınlaşmaqla və ya Bankın www.yapikredi.com.az internet səhifəsində Müştəri Şikayətləri və Təklifləri bölməsinə daxil olmaqla eləcə də Bankın İstehlakçıların Hüquqlarının Müdafiəsi Şöbəsinə shikayet@yapikredi.com.az elektron ünvanı vasitəsilə, Nəsimi rayonu, 628 - ci məhəllə, Cəlil Məmmədquluzadə, 73G Poçt indeksi: AZ1065 və\və ya AZ1078 poçt ünvanına yazılı müraciət etməklə yaxud da (012) 4977795 telefon nömrəsinə, Çağrı Mərkəzinin (012) 4977652 və *0444.